**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2024, 3 (44)**

**BAKI-2024**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 3 (44), 2024

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, professor Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 3 (44), s.3-12

# XƏZƏRSAHİLİ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ ARXEOLOJİ QAZINTILAR VƏ DƏNİZDƏ SUALTI TƏDQİQATLAR

***Abbas Seyidov***
AMEA Arxeologiya və Antropologiya İnstitutu
abbas.seyidov@gmail.com

***Leyla Rüstəmova***
AMEA Arxeologiya və Antropologiya İnstitutu
leyla.rustamova84@gmail.com

**Açar sözlər:** *Xəzəryanı bölgələr, sualtı arxeoloji tədqiqatlar, Xəzər dənizi, Abşeron yarımadası, Şəhri-Gürgan.*

Əsrlər boyu Xəzəryanı bölgələr uğrunda böyük imperiyalar arasında aparılan müharibələr nəticəsində sərvətlər əldən ələ keçmiş, ərazi dəfələrlə başdan-başa dağıdılmışdır. Beləliklə, e.ə. II minillikdən bu yana mənbələrdə Xəzərin 70-ə yaxın müxtəlif adına rast gəlinir.

XIX əsrin 90-cı illərindən başlayaraq Azərbaycanın Xəzərsahili ərazilərində onlarla abidə qeydə alınaraq, arxeoloji qazıntılarla öyrənilmişdir.

Xəzər dənizinin dibində arxeoloji tədqiqat işləri 1968-1987-ci illərdə aparılmış, suyun altından 4000-dən artıq artefakt aşkara çıxarılmışdır. 2008-ci ildə sualtı arxeoloji tədqiqatların bərpası istiqamətində müəyyən işlər görülmüşdür.

2024-cü ilin avqust-sentyabr aylarında AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Xəzər arxeoloji ekspedisiyası" Abşeron yarımadasının Xəzər rayonu ərazisində yerləşən Zirə və Pirallahı istiqamətində, Şəhri-Gürganda sualtı arxeoloji kəşfiyyat işləri aparmış, XII-XIV əsrlərə aid saxsı məmulatları və XIX əsrə aid iki batmış gəminin qalıqlarını qeydə almışdır.

# АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА КАСПИЙСКОМ ПОБЕРЕЖЬЕ АЗЕРБАЙДЖАНА И ПОДВОДНЫЕ ИССЛЕДОВАНИЯ В МОРЕ

***Аббас Сеидов***
***Лейла Рустамова***

**Ключевые слова:** *Прикаспийские регионы, подводные археологические исследования, Каспийское море, Апшеронский полуостров, Шахри-Гюргян.*

В результате многовековых войн между великими империями за прикаспийские регионы их богатства переходили из рук в руки, а территория неоднократно подвергалась разрушениям. Следовательно, источники, начиная со II тыс. до н.э. и позднее насчитывают более 70 различных названий Каспийского моря.

С 90-х годов XIX века в прикаспийских прибрежных районах Азербайджана были зарегистрированы десятки памятников, которые были изучены археологическими раскопками.

В 1968-1987 годах на дне Каспийского моря проводились археологические исследования, в результате которых было выявлено свыше 4000 подводных артефактов. В 2008 году были проведены работы по возобновлению подводных археологических исследований.

В августе-сентябре 2024 года «Каспийская археологическая экспедиция» Института археологии и антропологии Национальной Академии Наук Азербайджана провела подводные археологические исследования у берегов Зиры, Пираллахи и Шахри-Гюргяна, расположенных в Хазарском районе Апшеронского полуострова. Были найдены керамика XII-XIV веков и зарегистрированы останки двух затонувших кораблей XIX века.

## ARCHAEOLOGİCAL EXCAVATİONS ON THE CASPİAN COAST OF AZERBAİJAN AND UNDERWATER RESEARCH İN THE SEA

***Abbas Seyidov***
***Leyla Rustamova***

**Keywords:** *Caspian regions, underwater archaeological research, Caspian Sea, Absheron Peninsula, Shahri-Gurgan.*

As a result of the centuries-long wars between the great empires for the Caspian region, the wealth has changed from hand to hand, and the area has been repeatedly destroyed. Thus, about 70 different names of the Caspian Sea can be found in the sources starting from the 2nd millennium B.C.

Starting from the 90s of the 19th century, dozens of monuments were recorded and studied by archaeological excavations in the Caspian coastal areas of Azerbaijan.

Archaeological researches at the bottom of the Caspian Sea were carried out in 1968-1987, more than 4000 artifacts were discovered under the water. In 2008, some work was done to restore underwater archaeological research.

In August-September 2024, the Caspian Archaeological Expedition of the Institute of Archaeology and Anthropology of the National Academy of

Sciences of Azerbaijan conducted underwater archaeological research off the coast of Zira, Pirallahi and Shahri-Gurgan, located in the Khazar region of the Absheron Peninsula. Ceramics dated to the 12th-14th centuries were found and the remains of two sunken ships dated to the 19th century were registered.

Coğrafi mövqeyinə, yeraltı və yerüstü sərvətlərinə görə ən qədim zamanlardan yerli və yadellilərin diqqət mərkəzində olan Xəzəryanı bölgələr uğrunda tarixdə böyük imperiyalar arasında yüz illərlə ara verməyən müharibələr nəticəsində sərvətlər əldən ələ keçərək talanmış, ərazi dəfələrlə başdan-başa dağıdılmışdır. Məsələn, Ağ Hunlarla Sasanilər, Ərəb xilafəti ilə Xəzər xaqanlığı [6, 105-113], monqol və səlcuqlularla Xəzərətrafı dövlətlər, Bizansla Xəzərlər, Rusiya ilə Qacar İranı və digərləri arasında amansız müharibələr baş vermişdir.

Tədqiqatçılar belə hesab edirlər ki, vaxtilə Xəzər, Aral dənizi, Qara dəniz bitişik olub və "Xvalın dənizi" adlanıb. Bu gün Xəzər dənizinin uzunluğu 1200 km, ən enli yeri 554 km, sahil xəttinin uzunluğu isə 6500-6700 km-dir. Burada Azərbaycanın payı 800 kilometrdən artıqdır. Xəzər dənizinin adı Avestada "Vouru-Kaşap"–"Geniş su hövzəsi" mənasında işlənmişdir [9, 6-7, 26]. İqtisadi və strateji cəhətdən həmişə tarixçilərin, coğrafiyaçıların, səyyahların, həmçinin qonşu xalqların diqqətini cəlb edən Xəzər dənizi qədim assuriyalıların nəzərincə, onlara şərqdə məlum olan "dünyanın sonu" idi.

Yer üzündə analoqu olmayan bu dənizin (gölün) 70-ə yaxın müxtəlif tarixi adı məlumdur. Dənizin ən qədim adı e.ə. II minillikdə Xəzərdən cənubda yaşayan "kassi" tayfaları ilə bağlı olmuşdur. Tədqiqatçılar e.ə. I minillikdə Xəzər dənizinin cənub-qərbində yaşamış "kaspi"ləri ("pi"-cəm şəkilçisidir) kassilərlə eyniləşdirirlər [13, s.104]. Kassilərin etnik mənşəyi mübahisə doğursa da, təxminən e.ə.1742-ci ildə kassi hökmdarı Qandaşın Babılıstana yürüş etməsi məlumdur. Qandaşın adında türk elementləri özünü göstərir (məsələn: vətəndaş-bir vətənin sakinləri, yoldaş-eyni yolun yolçuları, Qandaş-eyni qanın daşıyıcısı və s.).

E.ə. VI əsrdə yaşamış, "tarixin atası" sayılan Herodot kaspilər və Xəzər dənizi haqqında yazır ki, cənubdan şimala 15 günə, şərqdən qərbə isə 8 günə üzmək mümkün idi. Tarixdə ilk dəfə e.ə. IV əsrdə Makedoniyalı Aleksandr Xəzər dənizini öyrənmək üçün ekspedisiya təşkil etmək əmri vermişdir. Aleksandrın tarixçisi Arrian yazır: Aleksandr (İskəndər) "Heraklidi ... gəmi-qayıranlarla... Girkaniyaya göndərərək, ona əmr etdi ki, Girkaniya dağlarında meşələri qıraraq ellin tipli, üstüörtülü və üstüaçıq uzun gəmilər qayırsın: o, Kaspi, və ya Girkan adlanan bu dənizin hansı dənizlə birləşdiyini tədqiq etmək istəyirdi..." [2, s.57]. Lakin bu məsələ onun sağlığında yox, ölümündən 40 il sonra həyata keçmişdir. Həmin ekspedisiya belə nəticəyə gəlmişdir ki, Kaspi dənizi daxili dəniz deyil, şimal okeanının körfəzidir. Arrian əmin idi ki,

ekspedisiya səhv fikirdədir: Kaspi dənizi heç bir okeanla əlaqəsi olmayan, qapalı bir dənizdir [4, s.13-14].

Qeyd edək ki, dənizin "Xəzər" adlanması onun sahilində və ətraf ərazilərində VII əsrin ikinci yarısından, X əsrin ortalarına qədər - 300 ilə yaxın mövcud olmuş Xəzər xaqanlığının adı ilə bağlıdır [12, s. 3].

Antik dövr səyyahlarının əsərlərində Xəzər dənizi haqqında bir sıra məlumatlara rast gəlmək olur. Yunan coğrafiyaçısı və tarixçisi Strabon (e.ə. 64 - b.e. 24) yazır ki, İberiyanın mərkəzindəki düzənlikdən çaylar axıb keçir. Onlardan ən böyüyü Kürdür... Kaspi dənizinə tökülür. Eramızın ikinci əsrində yaşamış yunan coğrafiyaçısı və astronomu Klavdiy Ptolemey (b.e. 70-147) belə yazır: "...Kaspi dənizi yaxınlığında udlar, olondlar, isoqlar və qerrlər yaşayırlar... Albaniya... qərbdə göstərilən xətt boyu İberiya ilə... İrkan dənizinə (Kaspi-red.) kimi həmsərhəddir" [3, s. 14-15, 23].

Xəzəryanı bölgələrin tarixini, enerji resurslarını X əsrdə yaşamış Əbu Duləf belə təsvir edir: "...Sonra Muğanadək dağlarla Azərbaycana qayıtdım. Mən böyük Təbəristan dənizinin sahili ilə Şirvan vilayətinə daxil olan Bakuya adlanan yerə çatanacan 80 fərsəx ağacların altı ilə getdim. Burada neft mədəni gördüm: onun gündəlik icarə haqqı 1000 dirhəmə çatır. Bunun yanında gecə-gündüz zanbaq yağı kimi ağ neft axan başqa bir mədən də vardır. Axırıncının icarəyə götürülməsi də elə birincidə olan kimidir [3, s. 119].

Bundan başqa müxtəlif dövrlərdə Yaqut əl-Həməvi (1179-1229-cu illər) Həmdullah Qəzvini (1280-1349-cu illər), Əbd ər-Rəşid əl-Bakuvi (XIV-XV əsrlər), alman alimi Adam Oleari (XVII əsr) və digərlərinin Xəzərin resursları haqqında məlumatları mənbələrdə qalmışdır [3, s.167, 174, 181, 224]. Bu siyahını uzatmaq da olar. Hətta, eramızdan əvvəlki qaynaqlarda midiyalıların neftdən alınan və "Midiya yağı" adlanan alovlanan maddələrin müharibə vaxtı oxlara sürtülərək düşmən düşərgəsinə atılması əks olunub [2, s.52].

Azərbaycanın Xəzərsahili ərazilərində son yüz ildən artıq dövr ərzində onlarla abidə qeydə alınaraq, arxeoloji qazıntılarla öyrənilmişdir. XİX əsrin 90-cı illərində fransız Jak De Morqanın Lənkəran rayonu ərazisində apardığı "qazıntılar" zamanı 230-dan artıq daş qutu tipli qəbir, dolmen abidəsi dağıdılmış, əldə olunmuş artefaktlar Avropanın müxtəlif muzeylərinə daşınmışdır [5, s.9-10].

1935-ci ildə E.A.Poxomovun rəhbərliyi altında Şabran şəhərinin arxeoloji cəhətdən öyrənilməsinə başlanılmış, 80 ildən artıq (fasilələrlə) aparılan arxeoloji qazıntılar nəticəsində şəhərin orta əsr qala divarları, təsərrüfat quyuları, təndirlər və zəngin maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur. Abidənin əhəmiyyətini nəzərə alan Ümummilli lider Heydər Əliyev Şabranda aparılan arxeoloji qazıntı işləri ilə yaxından tanış olaraq (Şəkil 1), tapşırıqlar vermiş [11, s.135-137], həmçinin 2003-cü ildə "Şabran" və "Çıraqqala" qoruqlarının yaradılması barədə Sərəncam imzalamışdır.

1939-1940 və 1947-1966-cı illərdə tədqiqatçı İ.M.Cəfərzadə tərəfindən Bakıdan 60-70 km aralı, Xəzərin sahilində Qobustan qayaüstü rəsmləri aşkar edilmiş, bir müddət sonra C.N.Rüstəmov və F.M.Muradova tərəfindən Qobustanda, 1963-1975-ci illərdə (fasilələrlə) arxeoloq Q.M.Aslanovun rəhbərliyi ilə Abşeron yarımadasında, 1967-ci ildə arxeoloq F.R.Mahmudov və H.R.Kəsəmənli tərəfindən Lənkəran rayonunda, 1982-ci ildən D.Musayev Quba-Xaçmaz bölgəsində, 2000-ci illərdə arxeoloq A.M.Məmmədov tərəfindən Salyan rayonu ərazisində arxeoloji qazıntılar aparılıb. Respublika Prezidenti İlham Əliyev 29 oktyabr 2013-cü il tarixdə Salyan rayonu ərazisində yerləşən Muğan Babazanlı abidələrinin 2800 illiyinin qeyd olunması haqqında Sərəncam imzalayıb və şəxsən ərazidə maddi-mədəniyyət nümunələri ilə tanış olub (Şəkil 2).

Əsrin əvvəllərində arxeoloq İ.N.Əliyev tərəfindən Abşeron yarımadasında Dübəndi mağarasında, Damba qəbiristanlığında, Kələzağda, Gürgan-Damba ərazisində [7, 189-193], 2011-ci ildə Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası A.Ələkbərov və M.Kazanovanın rəhbərliyi ilə Lənkəran və Lerikin Kravaladi, Cuci Tuk, Mundigah, Amarat və b. abidələrində [1, 370-378], son illərdə arxeoloqlarımız Salyan, Samux, Siyəzən rayonları ərazisində arxeoloji tədqiqat işləri aparıblar. Tədqiqatlar zamanı müəyyən edilib ki, təxminən 3-5 min il əvvəldən Xəzər hövzəsi oxşar mədəniyyətə, ideologiyaya mənsub tayfaların məskəninə çevrilmişdir. Xəzəryanı bölgələrdə arxeoloji qazıntı və tədqiqat işləri bu gün də uğurla davam etdirilir.

Xəzər dənizinin dibində arxeoloji tədqiqat işlərinin başlanması XX əsrin 60-cı illərinin sonlarına təsadüf edir. Azərbaycan SSR Nazirlər Sovetinin 24 iyul 1968-ci il tarixli 358 №-li Sərəncamı və Azərbaycan Elmlər Akademiyasının 9 avqust 1968-ci il tarixli 702 №-li Qərarı əsasında Xəzər dənizinin sualtı tarixi-arxeoloji abidələrinin öyrənilməsinə hazırlıq işləri ilə bağlı Tarix Muzeyinə tapşırıq verilir. Tarix elmləri doktoru Zelik Yampolski ilkin mərhələdə elmi məsləhətçi olmaqla, praktiki iş sualtı qayıqlar qrupunun rəhbəri, dalğıc Viktor Kvaçidzeyə həvalə olunur. 1987-cı il də daxil olmaqla - 19 il ərzində (kiçik fasilələrlə) V.Kvaçidze Xəzər sahillərində və adalarda sualtı tədqiqat işləri apararaq, 4000-dən artıq maddi-mədəniyyət qalığı aşkar edir (Şəkil 3). Tədqiqatlar Şuvəlan burnunda, Gurgan burnu ilə üzbəüz Abşeron yarımadasının şərq hissəsində, Bakı buxtası və Səbail sualtı istehkamında, Salyan rayonu ərazisində Kürün qədim kanalı və Bəndovan burnunda aparılır. Salyan rayonunda, Kür çayının qədim məcrası və Bəndovan burnu yerində aparılan tədqiqatları sualtı arxeologiya tarixinin mühüm mərhələsi hesab etmək olar. Burada iki yerdə IX-XIV əsrlərə aid xeyli sayda saxsı qablar müşahidə edilib. Həm suyun altında, həm də sahil zolağı boyu mədəni təbəqə və soba qalıqları, daş lövbərlər, metal məmulatlar, gümüş və mis pullar aşkar olunub. Əvvəlcə bu şəhər tipli yaşayış məntəqələri şərti olaraq Bəndovan-1 və

Bəndovan-2 adlandırılmış, sonralar Azərbaycan Tarix Muzeyinin "Orta əsrlər tarixi" şöbəsinin müdiri Rauf Məmmədov Viktor Kvaçidze ilə birlikdə dərc etdikləri məqalədə, aralarında təxminən 20 km məsafə olan iki orta əsr şəhərini - Quştasfı və Muğanı qeyd etmişlər. Bu şəhərlər orta əsrlərdə Azərbaycanın mühüm siyasi və mədəni mərkəzlərindən olmuşdur. 1987-ci ilin çətinlikləri və ictimai-siyasi hadisələri ilə bağlı şəraitsizlik ucbatından sualtı arxeoloji tədqiqat işləri dayandırılmışdır [10, s. 31-33].

Sualtı tədqiqat işlərində Viktor Kvaçidzedən başqa Gennadi Ağayev də iştirak etmişdir. Sualtı ekspedisiyaların işlərində dalğıc kimi həm yerli, həm də Leninqrad, Moskva və Rostov şəhərlərindən dəvət olunan mütəxəssislər və həvəskarlar da iştirak edirdilər. Ümumiyyətlə, bu ekspedisiyaların əsas tərkibini Azərbaycan Tarix Muzeyinin elmi heyəti təşkil etdiyindən, Xəzər dənizinin sualtı abidələrinin tədqiqi Azərbaycan Tarixi Muzeyində cəmləşmişdir. Burada muzeyin direktoru olmuş Püstəxanım Əzizbəyovanın fəaliyyətini də unutmaq olmaz.

Sualtı tarixi irsin əhəmiyyətini nəzərə alaraq, 2008-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu sahilboyu və sualtı arxeoloji abidələrin tədqiqi işlərinin bərpa olunması məsələlərini arxeoloq İdris Əliyevə həvalə edir [8, s.114-117]. Bu sahədə uzun müddət fasilə yarandığından, texniki avadanlıq, lazımi su gəmiləri, eləcə də təlim keçmiş dalğıclar olmadığı üçün, bəzi nailiyyətlər əldə edilsə də (Şəkil 4), işlər dayandırılır.

Son illərdə AMEA Rəyasət Heyəti tərəfindən elmi müəssisələrin strukturunun təkmilləşdirilməsi, müasir tələblərə cavab verən çevik idarəetmə sisteminin yaradılması, elmi tədqiqat işlərinin səmərəliliyinin artırılması istiqamətində mühüm islahatların həyata keçirilməsinə xüsusi önəm verilir. Bu islahatlara müvafiq olaraq, Xəzər dənizində sualtı tədqiqatların və sahilboyu ərazilərdə, digər su hövzələrində arxeoloji tədqiqat işlərinin aparılması üçün AMEA Rəyasət Heyətinin 12 iyul 2023-cü il tarixli, 16/33 №-li Qərarı ilə Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun strukturunda qismən dəyişiklik edilərək, daxili imkanlar hesabına və mövcud ştat vahidləri çərçivəsində "Xəzər arxeologiyası" şöbəsi yaradılır. Bunun nəticəsi olaraq, 27 avqust-12 sentyabr 2024-cü il tarixlərdə (17 gün) qısa bir müddət ərzində Arxeologiya və Antropologiya İnstitutunun "Xəzər arxeoloji ekspedisiyası" Abşeron yarımadasının Xəzər rayonu ərazisində yerləşən Zirə və Pirallahı istiqamətində, həmçinin orta əsrlərə aid Şəhri-Gürganda arxeoloji kəşfiyyat işləri aparmış və bu tədqiqatlar uğurlu olmuşdur. Tədqiqatlar zamanı XII-XIV əsrlərə aid saxsı məmulatları və XIX əsrə aid iki batmış gəminin qalıqları aşkar edilmişdir (Şəkil 5).

Texniki imkanlar ucbatından Xəzər dənizində istənilən zaman arxeoloji tədqiqat işlərinin aparılması mümkünsüzdür. Fikrimizcə, gəmi, dalğıc paltarı, hava balonu, dalğıc və sair ehtiyacların qarşılanması işləri yoluna qoymaq üçün

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq edilməli, onlara məxsus olan gəmilərdə quraşdırılan xüsusi avadanlıq, alət və cihazlardan istifadə olunmaqla daha səmərəli sualtı arxeoloji tədqiqatlar aparılmalıdır.

## Ədəbiyyat


1. Alekberov A.İ., (Azerbaijan), Gazanova M. (France). Prelımınary Results of The French-Azerbaıjan Archaeologıcal Expedıtıon–2013. Lenkoran valley. AAT jurnalı, 2013-2014, Bakı: “Xəzər Universiteti” nəşriyyatı, 2015, 420 s, 370-378 s.
2. Azərbaycan tarixi. 1 cild, Bakı: 1958, 448 s.
3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 1989, 328 s.
4. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Bakı: 1999, 160 s.
5. Bünyadov T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı: Azərnəşr, 1960, 238 s.
6. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: 1989, 336 s.
7. Əliyev İ.N., Əliyev C.İ. Abşeronda 2013-2014-cü illərdə arxeoloji işlər (Abşeron yarımadası, Türkan kəndi). AAT jurnalı, 2013-2014, Bakı: “Xəzər Universiteti” nəşriyyatı, 2015, 420 s, 189-193 s.
8. Əliyev İ., Rəhmanov A., Əliyev C. Xəzərin sualtı abidələri. AAT jurnalı. Bakı: “Xəzər Universiteti” nəşriyyatı, 2008, 152 s, 114-117s.
9. Əliyev Ş.C. Xəzər dənizi tarixi xəritələrdə. Bakı: 1973, 130 s.
10. Kvaçidze V.A. Xəzər Atlantidası. Bakı: CBS, 2009, 112 s.
11. Maqsudov F. Heydər Əliyev və Azərbaycan elmi. Bakı: Elm, 1998, 224 s.
12. Плетнева С.А. Хазары. Москва: 1986, 90 с.
13. Yusifov Y.B. Qədim Şərq tarixi. Bakı: 1993: 496 s.



**Şəkil 1.** *Ümummilli lider Heydər Əliyev qədim Şabranda aparılan arxeoloji qazıntı işləri ilə tanış olarkən (1983).*



**Şəkil 2.** *Azərbaycan Respublikasıın Prezidenti İlham Əliyev Salyan rayonu ərazisində yerləşən Muğan Babazanlı abidələrinin arxeoloji materialları ilə tanış olur (2013).*



**<u>Şəkil 3.</u>** *V.Kvaçidzenin tapıntıları [12, s.85]*

**<u>Şəkil 4.</u>** *İ.Əliyevin tapıntıları.*





**Şəkil 5.** *2024-cü ilin tapıntıları*

# HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : MONETLƏR

**Afiq Abdullayev**
AMEA, Arxeologiya və Antropologiya İnstitutu
afigabdullayev@mail.ru

**Açar sözlər:** *heraldika, numizmatika*

*Məqalədə metal pulların və kağız pulların ortaya çıxması, onların istifadə edilməsi və inkişaf tarixi, numizmatika elminin yaranması barədə araşdırma öz əksini tapmışdır. Məlum olduğu kimi, pulların inkişaf tarixini siyasi və iqtisadi amillərin təsirindən kənar araşdırmaq ümumi məzmunu və dövrün tarixi mənzərəsini əhatə etməyəcəkdir. Bu məqalədə pulların inkişaf tarixi dünyanın müxtəlif bölgələrində siyasi və iqtisadi inkişaf ilə əlaqəli şəkildə araşdırılmışdır. Avropada, Anadoluda, Uzaq Şərq bölgəsində və Yaxın Şərq bölgəsində metal monetlərin iqtisadi inkişaf ilə əlaqəli şəkildə araşdırılması elmi baxımdan beynəlxalq səviyyədə ümumi maliyyə sisteminin tarixi inkişafını öyrənmək üçün də mühüm məsələdir. Bu məqalədə də məhz bu amil nəzərə alınaraq bütün dünyada maliyyə sisteminin və nümizmatika elminin təşəkkül etməsi ümumi məzmunda və xülasə şəkildə araşdırılmışdır.*

## ДРУГИЕ ПРЕДМЕТЫ ГЕРАЛЬДИКИ : МОНЕТЫ

**Афиг Абдуллаев**

**Ключевые слова:** *геральдика, нумизматика*

*В статье отражены исследования о появлении металлических денег и бумажных денег, об истории их использования и развития, о возникновении науки нумизматики. Как известно, изучение истории развития денег вне влияния политических и экономических факторов не охватит общего содержания и исторической картины эпохи. В этой статье рассматривается история развития денег в связи с политическим и экономическим развитием в различных регионах мира. Изучение металлических монет в Европе, Анатолии, Дальневосточном регионе и Ближневосточном регионе в связи с экономическим развитием с научной точки зрения также является важным вопросом для изучения исторического развития общей финансовой системы на международном уровне. В данной статье также рассматривается в общем содержании и*

*в обобщенном виде формирование финансовой системы и науки нумизматики во всем мире с учетом именно этого фактора.*

## OTHER İTEMS OF HERALDRY : MONETS

**Afig Abdullayev**

**Key words:** *heraldry, numismatics*

*This article about a study of the metal money and paper money, the history of their use and development, the numismatics science. As is well known, a study of the history of the development of money outside the influence of political and economic factors will not cover the general content and the historical picture of the time. The article examined the history of the development of money in relation to political and economic development in different regions of the world. The study of metal Monets in relation to economic development in Europe, Anatolia, the Far East Region and the Middle East region is also an important issue for studying the historical development of the general financial system at the international level from a scientific point of view. İn this article, taking this factor, the formation of the financial system and the science of numismatic knowledge all over the world is examined in general terms and in summary.*

Heraldika tarix elminin köməkçi elmi tədqiqat sahəsidir. Tarixi hadisələrin araşdırılması zamanı rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin istifadə edildiyi müxtəlif maddi mədəniyyət nümunələri (tuğralar, tumarlar, damğalar, döymələr, möhürlər, monetlər, markalar, medallar, rozetlər, ordenlər, gerblər, emblemlər, sancaqlar, bayraqlar, kartuşlar, amuletlər, talismanlar, skeptronlar, ekslibrislər, miniatürlər, uniformalar, monoqramlar, anaqramlar, digər əşyalar, alətlər və s.) heraldikanın predmetinə və ya tədqiqat sahəsini daxil olur. "Heraldik elementlər" dedikdə isə əsasən rəmzi əlamət və ya simvolik xarakter daşıyan daşlar, metallar, rənglər, hərflər, rəqəmlər, təsvirlər (astral, həndəsi, insani, nəbati, heyvani və s.), müxtəlif işarələr, fiqurlar və s. nəzərdə tutulur [3, s.11]. Bu heraldik elementlər həm də "heraldikanın əlifbası" sayılır.

Heraldika elmi mahiyyət etibarilə rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin əks olunduğu maddi mədəniyyət nümunələrinə əsasən insanların məfkurəsinə, mədəniyyətinə, mənsubiyyətinə, ideologiyasına, mifologiyasına və qnesologiyasına aid məlumatları araşdırmağa və aşkarlamağa yönəlmiş elmi tədqiqat sahəsidir [1, s.46]. Heraldika təkcə tarix elminin köməkçi sahəsi deyil, həm də memarlıq və incəsənət sahəsi kimi təzahür edir.

Pullar (metal, kağız və s. formada) heraldik elementlər daşıyan maddi mədəniyyət nümunəsidir. Demək olar ki, bütün pullar üzərində rəmzi əlamət və ya simvolik xarakter daşıyan işarələr olur ki, bu işarələr də məhz heraldika elminin tədqiqat sahəsinə daxil olur.

**Monetlər**

Pul tarix boyunca həm dəyər vahidi kimi, həm ödəniş vasitəsi kimi, həm mübadilə vasitəsi kimi, həm hesablama vasitəsi kimi, həm də xəzinə məmulatı kimi istifadə edilmişdir [18, c.32-24]. Lakin pul sisteminin yaranması üçün say sisteminin, yazı sisteminin, ölçü və çəki sisteminin, vergi sisteminin, istehlak və istehsal təsərrüfatının, ticarət dövrüyyəsinin və s. amillərin də inkişaf etməsi lazım idi. Ən əsası həm bu sahələrə, həm də sikkə zərbinə, kağız çapına, maliyyə sahəsinə və s. məsələlərə nəzarət edəcək dövlət formasında inzibati idarəetmə olmalıdır. Tarixdə iqtisadi inkişafı araşdıran zaman məlum olur ki, istehsal təsərrüfatının inkişafı əvvəl say sisteminin, daha sonra yazı sisteminin, daha sonra ölçü və çəki sisteminin, ən sonda isə dəyər vahidi və mübadilə vasitəsi kimi pul sisteminin yaranması üçün təkan vermiş və ya pul sistemlərin yaranması üçün zərurət yaratmışdır[2, s.9]. Pul sistemi yarandıqdan sonra isə pullar iqtisadi sistemin ən vacib hissələrindən birinə çevrilmişdir.

Qədim zamanlarda pul kimi istifadə edilən müxtəlif məmulatlar sonradan metal pullar ilə əvəzlənmişdir. Belə ki, ticarət ilə məşğul olan insanlar metalın uzaq məsafələrə asanlıqla daşına bilməsini, əridilərək formasının yenidən dəyişməsini, bölünərək istifadə edilməsinin asanlığını və s. amilləri nəzərə aldıqları üçün e.ə. II minilliyin əvvəllərindən başlayaraq artıq həm ödəniş vasitəsi kimi, həm mübadilə vasitəsi kimi, həm də çəki sistemində ağırlıq standartının etalonu kimi daha çox əlvan metallardan istifadə etməyə başlamışdılar [6, s.5-10]. Xüsusilə əlvan metallar olan mis, gümüş, qızıl s. kimi metalların daha parlaq olması, daha qiymətli olması, daha az temperaturda əriməsi və əridikdən sonra qısa zamanda bərkiyərək formasını dəyişməsi, daha asan əzilməsi və döyülməsi, üzərinə daha asan şəkildə hər hansı işarə və damğa vurulması və s. kimi amillər onların pul kimi istifadə edilməsini və ya məhsulun mübadiləsi zamanı ödəniş vasitəsi kimi istifadə edilməsini çox sərfəli və səmərəli hala gətirirdi. Bu cür kiçik ölçülü və müxtəlif formaları metal “inqotların (külçələrin)” üzərinə hər hansı işarə və ya möhür vurularaq ödəniş vasitəsi kimi istifadə edilməsi artıq pul sisteminin yaranması üçün, həmçinin metal ingotların (külçələrin) isə zamanla metal monetlərə (sikkələrə) çevrilməsi üçün zəmin hazırlayırdı [13, s.12].

Tarixə nəzər saldıqda üzərində müxtəlif işarələr, yazılar, təsvirlər olan və zərb üsulu hazırlanan ilk yastı formalı monetlərin (metal pulların) Lidiyada ortaya çıxdığını görürük. Belə monetlər adətən qızıl və gümüş kimi metalların qarışığından hazırlanıbdır. Bəzi tarixçilər ehtimal edirdilər ki, belə qızıl və gümüş və digər metal qarışığı olan elektron monetlər Anadoluda məhz Lidiya

kralı Krezin (e.ə. VI əsr) dövründə zərb edilibdir. Lakin tarixi-arxeoloji tədqiqatlar (Artemis məbədi ərazisində qazıntılar və s.) göstərdi ki, hələ e.ə.VII əsrdə də Anadoluda elektron monetlər zərb edilibdir [15, p.156-167; şəkil 1]. Kral Krezin dövründə isə müxtəlif iqtisadi zərurətlər nəticəsində monetlərin zərb edilməsi, monetlərin qızıldan və gümüşdən ayrıca hazırlanması və tədavülə buraxılması sahəsində əsaslı islahatlar keçirilibdir. Belə ki, elektron monetlərin tərkibində qızılın və ya gümüşün və digər metalların miqdarının dəyişkən olması bir müddət sonra ticarət zamanı bu cür monetlərin dəyərin hesablanmasında çətinlik yaratmağa başlamışdı [6, s.17]. Bunun üçün də qızıldan və gümüşdən hazırlanan metal monetləri ayrıca zərb etmək zərurəti ortaya çıxmışdır. Kral Krez dövründə əsasən üzərində buğa və aslan təsviri olan staterlər (qızıldan hazırlanan monetlər) tədavülə buraxılıbdır və belə staterlər "krezeid (croeseid)" adlanıbdır [5, p.589; şəkil 2].

E.ə.VI əsrin ortalarında (e.ə.547) Əhəməni şahı II Kir Anadoluya hərbi səfər edərək Lidiya dövlətini süqut etdirsə də, Lidiyada istehsal olunan qızıl staterlər uzun illər tədavüldə qalmışdır. Daha sonralar Əhəməni imperiyasında gümüş siqloslar də tədavülə buraxılıb ki, 1 qızıl stater təxminən 20 gümüş siqlosa bərabər sayılırdı. Əhəməni hökmdarı I Dara (e.ə. 521-485) zamanında isə Lidiya simvolları və ornamentləri daşıyan monetlər tədavüldən çıxarılıb, onun əvəzinə Əhəməni mədəniyyətinə aid simvollar daşıyan və "darik (dareikos)" adlanan qızıl staterlər (təxminən 8.4 qr) və gümüş siqloslar (təxminən 5.5 qr) tədavülə buraxılıbdır [8, s.33; 11; şəkil 3]. Əhəməni imperiyası öz dövründə böyük bir coğrafi ərazini əhatə etdiyi üçün onların sikkə zərbi və maliyyə sahəsində keçirdikləri islahatlar demək olar ki, bütün Yaxın Şərq ölkələri daxil olmaqla digər qonşu ölkələrin ticarətinə və iqtisadi inkişafına da öz təsirini göstərirdi.

E.ə. VI əsrin sonlarında Afina şəhəri başda olmaqla Yunan şəhər dövlətləri gümüş mədənlərinin daha zəngin olmasını və gümüş metalının ticarətdə istifadə edilməsinin daha sərfəli olmasını nəzərə alaraq gümüş sikkələrin istehsalına və tədavülə buraxılmasına başladılar. Belə sikkələr sonralar "drahma" adlanmışdır [13, s.28; şəkil 4]. Yunan şəhər dövlətləri metropol kimi fəaliyyət göstərdikləri üçün onların ətraf ərazilərdə və perifeyalarda yaratdıqları ticarət koloniyaları da həmin şəhər dövlətlərin pul sistemindən istifadə edirdilər. Beləliklə, Ellin mədəniyyətinin yayıldığı geniş coğrafi ərazilərdə Yunan şəhər dövlətlərinin istifadə etdiyi sikkələr maliyyə və ticarət sahəsində istifadə edilibdir. Yunan şəhər dövlətlərinin ticarət əlaqələri artmağa başladıqca başqa dövlətlərin sikkələrindən də ticarət zamanı istifadə edilməyə başlanılıb. Bunun nəticəsində Yunan şəhər dövlətlərində Aqora adlanan bazar meydanlarında "trapeza" adlanan masalar qoyulurdu və valyuta mübadiləsi aparılırdı [6, s.31]. Bu trapezalar ilk bank sisteminin və valyuta mübadiləsinin yaranması demək idi. Yunan şəhər dövlətlərində sikkələr "argyrokopeion" adlanan zərbxanalarda

hazırlanırdı [13, s.29]. E.ə.IV əsrdə Makedoniya imperiyasının hökmdarı Böyük İskəndər dövründə isə yunan monetləri (sikkələri) Ellin mədəniyyətinin təsirinə məruz qalmış bütün ərazilərdən istifadə edilmişdir. Böyük İsgəndərin dövründə ilk dəfə monetlərin üzərində tanrı təsvirləri ilə yanaşı İsgəndərin də portreti zərb edilmişdir [17, s.11; şəkil 5].

E.ə.V əsrdə Cənubu İtaliya şəhərlərində Yunan gümüş sikkələrinə bənzər olan, amma daha ucuz metal sayılan misdən "xalkous (khalkous)" adlanan tunc ("as") monetlər istehsal etməyə başladılar və bir müddət sonra belə tunc monetlərdən ticarət əlaqələri nəticəsində e.ə.IV əsrdən etibarən Yunan şəhər dövlətlərində də istifadə edilməyə başlanıldı [6, s.29]. E.ə.III əsrin sonlarında (e.ə.213) isə Roma şəhərində Yunan şəhərlərinin gümüş sikkələrinə bənzəyən, amma üzərində Roma şəhərinin rəmzləri və zəfər tanrısı Viktoriyanın təsviri olan "victoriatus" adlanan sikkələr tədavülə buraxılsa da, qısa müddət sonra bu gümüş sikkələr "denarius" adlanan sikkələr ilə əvəzlənmişdir [8, s.70; şəkil 6]. Gümüş denariusların dəyəri əslində qızıl aureusların dəyərinə əsasən təyin edilirdi.

Məlum olduğu kimi Roma Respublikası e.ə.III əsrdən etibarən ərazilərini genişləndirməyə başlamışdı və e.ə.I əsrin ortalarında artıq Roma İmperiyasına çevrilirdi. Belə bir böyük imperiyanın ticarət və maliyyə sahəsində müxtəlif zəruri səbəblərə görə davamlı islahatlar keçirməsi labüd məsələ olubdur. Məhz buna görə də belə islahatlar nəticəsində monetlərin (sikkələrin) dəyəri, ölçüləri, tərkibində olan metalların qarışığı, üzərində olan simvolların dəyişməsi davamlı şəkildə müşahidə edilibdir. Daha sonralar, yəni b.e. III əsrinin sonlarında isə Roma imperiyasında artıq çox ciddi iqtisadi təlatüm müşahidə edilirdi. Həm siyasi böhranın, həm də iqtisadi böhranın dərinləşməsi bütün sahələrdə, o cümlədən maliyyə sahəsində də ciddi şəkildə islahatların keçirilməsi zərurətini yaradırdı. Belə bir dövrdə hətta sikkələrin tərkibində metal miqdarı hər zərbxanaya görə dəyişkənlik göstərirdi ki, bu hal sikkələrin dəyərinin düşməsi ilə nəticələnirdi. İmperator Avrelian yeni qızıl, gümüş, tunc sikkələrin tədavülə buraxılması və onların tərkibində metal nisbətinin sabitlənməsi üçün dövlət zəmanəti versə də, sikkələrin dəyərini itirməsini əngəlləyə bilmədilər [6, s.69]. Daha sonra İmperator Diokletian dövründə yeni qızıl, gümüş, tunc sikkələr tədavülə buraxıldı və onların dəyərinin sabitləşməsi üçün islahat tədbirləri görüldü. İmperator Diokletian dövründə ən mühüm sikkə islahatı isə daha işlək sikkə olması üçün mis və gümüş örtüklü sikkələrin yerinə mis fulusların (latın dilində "follis") tədavülə buraxılmasıdır [8, s.106; şəkil 8]. Qızıl sikkələr ümumi ticarətdə daha az işlək olsa da, bu sahədə də dəqiq nominal müəyyən etmək zərurəti vardı. İmperator I Konstantin dövründə qızıl tərkibli və yüngül çəkili "solidus" adlanan sikkələr tədavülə buraxılıbdır ki, bu solidlər də uzun əsrlər Aralıq dənizi hövzəsində (Avropada, Şimali Afrikada,

Yaxın Şərqdə) ən dəyərli valyuta sayılmışdır və sonralar Bizans dövlətinə ithafən “bezant” adlanmışdır [6, s.96; şəkil 9].

Çində isə ilk sikkələr e.ə.IV əsrdə ortaya çıxmışdır və tuncdan hazırlanmışdır. E.ə.III əsrin sonlarında Tsin xanədanlığı dövründə də belə sikkələr tədavülə buraxılmış və “vuzhu” adlanmışdır [6, s.194; şəkil 7]. Belə sikkələr dairəvi formada olsa da, onların ortasında kvadrat formada deliklər olurdu. Bu deliklər vasitəsilə həmin sikkələri 10 vuzhu, 20 vuzhu və s. şəkildə ipə düzərək toplayırdılar və hesablayırdılar. Uzun əsrlər (təxminən yeddi əsrdən çox) vuzhu sikkələri tədavüldə qalsa da, zamanla pul islahatı keçirilmiş, qızıl və gümüş sikkələr də tədavülə buraxılmışdır. Lakin Çində əhalinin çoxluğu və ərazinin böyüklüyü, daxili bazarın daha ənənəvi olması, həmçinin qızıl və gümüş metalların çatışmazlığı müşahidə edildiyi üçün maliyyə sistemində tunc sikkələr hər zaman önəmini qorumuşdur. Bunun digər bir səbəbi də budur ki, Çində sikkələrin tərkibinin sabit olması və keyfiyyətini hər zaman yüksək saxlanılmasıdır. Çin sikkələrinin üzərində insan təsviri olmayıbdır. Bunun səbəbi isə pulların hər hansı şəxsin deyil, xalqın ümumi mülkiyyəti sayılmasıdır. Qeyd etmək lazımdır ki, Avropadan fərqli olaraq Çində metal sikkələr hazırlanan zaman zərb üsulundan daha çox tökmə-qəlib üsulundan istifadə edilibdir.

Sung xanədanlığı zamanında isə ilk dəfə XI əsrdə “Çao (jiaozi)” adlanan kağız pullar istehsal edilibdir [6, s.212; şəkil 11]. İlk əvvəllər Siçuan vilayətində tacirlər tut ağacının liflərindən istehsal edilən kağızlara yazı yararaq və möhür basaraq bu kağızın ticarətdə maliyyə mübadiləsi zamanı müəyyən sikkə məbləğini göstərən “sənəd” və ya “istiqraz” kimi istifadə ediblər. Sonradan dövlət də belə kağız “sənədlərin” ticarətdə istifadə edilməsini dəstəkləyibdir. Lakin qonşu ölkələrdə metal pullar ilə ticarət davam etdiyi üçün kağız pullar istehsal ediləndən sonra metal pullar ticarət məqsədi ilə qonşu ölkələrə aparılırdı. Bir müddət sonra isə ölkədə metal pullar tükənməyə və beləcə kağız pullar da sürətlə dəyərini itirməyə başladı. Məhz buna görə də daha sonralar bu kağız pullar dövrüyyədən çıxarıldı.

Ərəb Xilafəti zamanı ilk əvvəllər Sasani dövlətinin, Bizans dövlətinin və Efiopiya dövlətinin sikkələrindən istifadə edilsə də, VII əsrin sonlarında Əməvilər Sülaləsi zamanı xəlifə Abdulməlik dövründə pul islahatının keçirilməsinə başlanıldı və daha sonra 702-ci ildə isə Vasit şəhərində ilk dəfə ərəb zərbxanası yaradıldı [6, s.121, 125]. Bu zaman üzərində Ərəb Xilafətinə aid yazıların, işarələrin və təsvirlərin olduğu dinar (qızıl) və dirhəm (gümüş) sikkələr tədavülə buraxılmışdır [şəkil 10]. Bu sikkələrin üzərində insan (əmir, xəlifə və s.) təsvirinin olmaması İslam mədəniyyətində insan təsvirinin çəkilməsinin xoş görülməməsi ilə əlaqədar dini məsələdir. İslam dininin yayılmasından sonra ərəb ölkələrində pul sistemində ölçü-çəki vahidi kimi yunan drahmasına

əsaslanan “dirhəm” və Bizans solidusuna əsaslanan “misqal” təşkil etmişdir [4, s.104].

Bankların yaranması prosesi də maliyyə sisteminə müvafiq şəkildə inkişaf edibdir. Hələ e.ə. III minilliyin sonlarında qədim Ur şəhərində hər hansı səbəblə vergi ödəyən şəxslər borçlu qaldıqları zaman və ya hər hansı səbəblə insanlar borc aldıqları zaman “hubullum” adlanan borc sənədlərində qeydiyyat aparılırdı [10, s.160]. Həmin dövrdə adətən məbədlər borc verirdilər və faiz alırdılar. Nəticə etibarilə, qədim Mesopotamiyada mövcud olan dövlətlərdə “məbəd iqtisadiyyatı” daha çox təşəkkül etmişdi. Belə ki, vergilərin toplanması, borcların verilməsi, xərcləmələrin hesablanması və s. kimi maliyyə prosesləri gil lövhələr üzərində qeyd edilirdi ki, bu da öz növbəsində mühasibatlığın yaranması deməkdir [9, s.20-21]. Həmçinin, geniş məhsul istehsalı ilə məşğul olan mülkədarlar və sahibkarlar da bəzən faiz ilə və ya faiz olmadan borc verirdilər və ya borc toplayırdılar. Bütün bu tarixi proseslər bank-kredit sisteminin rüşeymi sayılsa da, bank-kredit sisteminin inkişafı daha çox ticarət fəaliyyəti və maliyyə dövrüyyəsi ilə əlaqədar iqtisadi məsələdir. Antik yunan şəhərlərində isə metal sikkələrin tədavülə çıxmasından sonra e.ə.IV əsrdən etibarən bank sisteminin ilkin mərhələsi sərrafların (yunan dilində “trapezites”) fəaliyyəti ilə başlayıbdır və sərrafların toplu şəkildə birlikdə çalışdığı məkanlar (yunan dilində “trapezan”) yaranıbdır [7, s.100]. Belə məkanlar adətən ticarətin qızğın olduğu bazarlarda yerləşirdi. Sərrafların fəaliyyət göstərdiyi trapezanlar həm sikkələrin nominalını müəyyən edirdi, həm valyuta mübadiləsi ilə məşğul olurdu, həm də sikkə əmanətlərini qəbul edirdilər. Bir müddət sonra trapezanlar faizlə kredit verməyə də başladılar.

Antik Romada isə pul işləri ilə məşğul olan sərrafları e.ə.IV əsrdə “argentarius”, e.ə.II əsrdən etibarən “nummuslarius” adlandırmağa başlayıblar [7, s.265]. Antik yunan dilində “nomos” sözünün ümumi mənası “qanun, yaxud ilahi meyarları özündə ehtiva edən qanun” deməkdir [13, s.7]. Zamanla yunan dilində “nomos” sözü “sikkə” mənası verən “nomisma” sözünə çevrilib və sonradan latın dilinə “nummus” sözü kimi keçibdir [8, s.12]. Bir müddət sonra isə romalılar “xırda pullar” anlamına gələn latınca “nummus” sözündən istifadə etməyə başlayıblar. Ümumiyyətlə, Romada sikkələrdən əvvəl heyvanlar ödəniş vasitəsi kimi istifadə edildiyi üçün onlar pula “pecunia” deyiblər ki, bu söz latin dilində “pecus (heyvan)” sözündən götürülübdür [13, s.13].

Metal pullar olan monetləri (sikkələri) öyrənən elm sahəsi “numizmatika” adlanır. İslam mədəniyyətinin təsir dairəsinə daxil olan ölkələrdə isə numizmatika elmi ərəb dilində “məskukat” elmi adlanıbdır. Numizmatika elminə bəzən “sikkəşünaslıq” elmi də deyiblər. Numizmatika elmi tarix elminin köməkçi sahəsi kimi məhz pullar əsasında həm tarixi-siyasi, həm də tarixi-iqtisadi proseslərin inkişafını öyrənir. Metal pullar sayılan monetlər heraldik elementlər daşıyan sikkələrdir. “Monet” sözü latın dilində “moneo” sözündən

götürülüb və bu sözü "xatırlatma, xəbərdarlıq" və s. kimi tərcümə etmək olar. Qeyd etmək lazımdır ki, qədim Romada anatanrıça olan Yunonaya verilən bir başqa ləqəb (epitet) də məhz "Moneta" olmuşdur [20, c.3]. Həmin dövrdə Kapitoli təpəsində yerləşən Moneta Yunona məbədinə məhz metal monetlər nəzir kimi verilirdi. Belə ki, hər hansı arzunun gerçəkləşməsi üçün məbədin hovuzuna metal monetlər atırdılar. Azərbaycan dilində "manat", ingilis dilində "money", rus dilində "monet" sözlərinin də qədim Romada ilk əvvəllər "moneta" adlanan metal sikkələrin adı ilə oxşarlıq təşkil etməsi təsadüfi deyildir.

Maliyyə məbləğini göstərən və qiymətli kağızlar sayılan pulları, çekləri, veksellər və s. qiymətli kağızları da numizmatika elminin tədqiqat sahəsinə daxil edilibdir. Zamanla jetonlar, medalyonlar və s. kimi sikkəyə bənzər qiymətli metaldan hazırlanan və mübadilə vasitəsi olmayan əşyalar da bu elmin tədqiqat sahəsinə daxil edilmişdir. Məsələn, antik Roma şəhərində jetonlar hamamların, teatrların və s. kimi bəzi məkanların istifadəsi üçün, yaxud bəzi oyunlarda tamaşaçı və ya iştirakçı olmağın icazə vasitəsi kimi zərb edilirdi. "Medalia (medalyon)" sözü isə latin dilində "yarım dinar" mənası versə də, istifadəyə yararsız, amma dəyərini saxlamış sikkələrə deyilirdi [13, s.17]. Medalyonlar mübadilə vasitəsi sayılmırdı. Medalyonlar adətən amulet, talisman, yaxud xatirə əşyası, mükafat göstəricisi və s. kimi məqsədlə istifadə edilirdi.

Antik dövrdə qızıl və gümüş tərkibli metal pullar dəyərli olduğu üçün onlardan həm də bəzək əşyası kimi, yaxud amulet və talisman kimi də istifadə edilibdir [12, s.319]. Belə metal pullar amulet və ya talisman kimi istifadə edildiyi üçün onların üzərində bəzi fiziki dəyişikliklər edilirdi. Nəticə etibarlə belə metal sikkələr adətən tədavüldən çıxarılmış olurdu. Bir metal sikkənin amulet və ya talisman kimi istifadə edilməsi daha çox onun üzərində olan ikonalar və legendlər ilə bağlı inanclara əsaslanıbdır.

Daha əvvəllər də qədim monetləri toplayan həvəskar şəxslər olsa da, XV əsrdən etibarən İtaliyada metal monetləri toplayan peşəkar kolleksionerlər ortaya çıxmağa başladılar [13, s.9]. Onlar əsasən qədim dövrə və klassik dövrə aid metal monetləri toplayır və özlərinin şəxsi kolleksiyasını yaradırdılar. Bu cür kolleksiyası toplamaq həm də prestij sayılırdı, tarixə, maliyyə sahəsinə, incəsənət sahəsinə və mədəniyyət sahəsinə olan maraq kimi qiymətləndirilirdi. Çünki belə metal monetlər üzərində həm də tarixi şəxsiyyətlərin ikonaları və portretləri olurdu. Daha sonralar Avropada bəzi saraylarda və muzeylərdə də sərgilənmək üçün metal monetlərin kolleksiyasının yaradılmasına başlanıldı. Əvvəl kolleksiyaçılar tərəfindən toplanmağa başlayan metal monetlərin tarixinin araşdırılması həm də numizmatika elminin inkişafına təkan verirdi. XVIII əsrdə Vyana şəhərində yaşamış İosif Ekkel imperatorluq ərazisində monetlərin və medalların tədqiq edilməsi və kolleksiyasının toplanması ilə

məşğul olmağa başlamışdı [21, c.4]. Ekkel bu sahədə apardığı tədqiqatların nəticələrini "Qədim dövrdə monetlər" adlı kitab şəklndə nəşr etdirmişdir [19, c.17]. XIX əsrdə isə artıq metal monetlərə aid kolleksiya materialları və numizmatika elminə aid tədqiqatların nəticələri kitablar şəklində nəşr edilirdi. XIX əsrin sonları və XX əsrin əvvəllərində Avropada və Amerikada metal sikkələrin həm kolleksiyası, həm də tədqiqatı ilə bütün dünyada məşhur olan şəxslər sırasında B.V. Head, H. Cohen, E. Babelon, F. Imhoof-Blumer kimi şəxslərin adlarını qeyd etmək lazımdır [17, s.2].

Azərbaycanda isə numizmatika elminin inkişafı Azərbaycan ərazisinin Çar Rusiyası imperiyasına daxil olduğu XIX əsrdə başlamışdır. Bu dövrdə Azərbaycan ərazisində numizmatik tədqiqatlar ilə məşğul X.Fren, B.A.Dorn, M.E.Droun, S.Len-Pul, DeLeklüz, B.Berezin, M.F.Soret, T.Bartolomey, V.Q.Tizenqauzen, S.Q.Stroqanov, P.S.Savelyev, A.K.Markov və s. kimi alimlərin adlarını qeyd etmək olar [16, s.19]. XX əsrin 20-ci illərində bu sahədə geniş elmi fəaliyyətə başlayan Yevqeni Poxomov isə demək olar ki, Azərbaycanda "Numizmatika elmi məktəbinin" yaradıcısı olmuşdur. Azərbaycan Tarix Muzeyinin elmi işçisi olan Poxomov həm Azərbaycanda və qonşu ölkələrin ərazilərində numizmatika sahəsində elmi tədqiqatlar aparmış, həm də zəngin sikkə kolleksiyası toplamışdır [21, c.5]. XX əsrin ikinci yarısından etibarən isə Azərbaycanda bu elmi məktəbin davamçıları sayılan və bu sahədə peşəkar elmi fəaliyyət göstərən M.Ə.Seyfəddini, Ə.M.Rəcəbli, İ.Ə.Babayev, S.A.Dadaşova, M.M.Rəsulova, Y.A.Siniçina, Z.M.Əliyev, Q.Ə.Pirquliyeva, A.A.Quliyev, T.Ə.Quliyev və s. kimi alimlər elmi tədqiqatları arıdıcıl davam etdiriblər. Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində aşkar edilən ən qədim metal monetlər e.ə.IV əsrə aid Mekedoniya imperiyasının gümüş sikkələri olmuşdur [14, s.28]. Bu dövrdən sonra isə demək olar ki, Azərbaycan ərazisində ərazisində mövcud olmuş bütün dövlətlərin metal monetləri öz dövründə tədavülə buraxılmış və istifadə edilmişdir. Hal-hazırda Azərbaycan Milli Tarix Muzeyinsə çox zəngin sikkə kolleksiyası mühafizə edilir.

## Ədəbiyyat

1. Abdullayev A.N. "Heraldika və onun inkişaf tarixi". "Tarix, insan və cəmiyyət" jurnalı, № 4 (27). Bakı, 2019. 45-50 s.
2. Abdullayev A.N. "Heraldikanın digər predmetləri: monetlər". "Tarix, insan və cəmiyyət" jurnalı, № 4 (41). Bakı, 2023. 3-13 s.
3. Abdullayev A.N. "Heraldikanın predmeti və elementləri". "Tarix, insan və cəmiyyət" jurnalı, № 2 (29). Bakı, 2020. 10-16 s.
4. Bacanlı H. "Ölçü inkılabının tarihsel süreci, ölçüler kanununun kabulü ve uygulanışı". "Atatürk Araştırma Merkezi Dergisi", 2022 (№105). Ankara, 2022. 101-136 s.

5. Cahill, N.D., Kroll J.H., “New Archaic Coin Finds at Sardis”. “American Journal of Archaeology”, vol.109, № 4. Chicago, 2005. 589-617 p.
6. Eagleton E., Williams J. “Paranın tarihi” (çeviri). İstanbul, 2011. 394 s.
7. İldız E. “Eski Çağda bankacılık və bankerler”. İstanbul, 2013. 501 s.
8. Karwiese S., “Antik numizmatiğe giriş” (çeviri). İstanbul, 2004. 128 s.
9. Kaya N. “Muhasebe tarihi”. Ankara, 2021. 372 s.
10. Kınal F., “Eski Mezopotamya Tarihi”. Ankara, 1983. 223 s.
11. Kraay C.M. “Archaic and Classical Greek Coins”, Los-Angeles, 1976. 2-19 p.
12. Lenger D.S., “Antikçağda sikkenin amulet ve talisman olarak kullanımı”. MCBÜ, Sosyal Bilimler Dergisi, c.16, sayı 3. Manisa, 2018. 317-326 s.
13. Özdibay A.Ö. “Antik Numismatik”. İstanbul Üniversitesi, Tarih lisans programı - 2015-2018. 307 s.
14. Pirquliyeva Q. “Numizmatikanın əsasları”. B., 2009. 168 s.
15. Robinson, E.S.G. “The Coins from the Ephesian Artemision Reconsidered”. “Journal of Hellenic Studies”, vol. 71, 1951. 156-167 p.
16. Seyidov A.Q., Quliyev A.A., Rzayev R.Ş. “Azərbaycan tarixi (numizmatik materiallar əsasında). Bakı, 2017. 246 s.
17. Tekin O. “Eskiçağda para – Antik numizmatiğe giriş”. İstanbul, 1998. 40 s.
18. Воронов Ю.П. “Страницы истории денег”. Новосибирск, 1986. 176 с.
19. Кольцов П.М. “Нумизматика”, ч. 1, Элиста, 2008. 146 с.
20. М.А.Сейфеддини, И.А.Бабаев, М.М.Расуова, З.М.Алиев, С.Х.Дадашева. Нумизматика Азербайджана, т. I, - Баку, 1998. 200 с.
21. Раджабли А."Нумизматика Азербайджана". Б, 1997. 232 с.

## Şəkillər



*Şəkil 1. Artemis məbədindən tapılan və üzərində aslan təsviri qabartması olan elektron monet*



*Şəkil 2. E.ə. VI əsrə aid üzərində öküz və aslan təsviri olan "krezeid" adlanan qızıl sikkə*



*Şəkil 5. E.ə.IV əsrə aid üzərində Mekedoniya imperatoru Böyük İsgəndərin*



*Şəkil 3. E.ə.VI əsrə aid üzərində Əhəməni imperiyasına aid rəmzlərin olduğu "darik" adlanan qızıl sikkə*



*Şəkil 4. E.ə.VI əsrə aid üzərində Afina şəhərinin rəmzi sayılan bayquş və zeytun budağı təsviri olan gümüş sikkə*




*Şəkil 6. E.ə. III əsrə aid üzərində Roma şəhərinin rəmzi sayılan qoşa atlara qoşulmuş at arabası sürən savaşçı təsviri olan gümüş sikkə*



*Şəkil 7. E.ə. III əsrə aid Tsin dövləti tərəfindən tədavülə buraxılan və sonralar "vuzhu" adlanan tunc sikkələr*



*Şəkil 8. İmperator Diokletian dövründə Roma imperiyasında tədavülə buraxılan*



*Şəkil 9. İmperator I Konstantin dövründə Roma imperiyasında*



*Şəkil 10. VIII əsrdə Əməvilər sülaləsi zamanı Ərəb Xilafətində tədavülə buraxılan və "dinar" adlanan qızıl sikkələr.*

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 3 (44), s.25-37

# XVIII ƏSRİN SONU-XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ÇAR RUSİYASININ CƏNUBİ QAFQAZA HƏRBİ MÜDAXİLƏSİ (AKADEMİK P.Q.BUTKOVUN "1722-1803-CÜ İLLƏRDƏ QAFQAZIN YENİ TARİXİ ÜÇÜN MATERİALLAR" ƏSƏRİ ƏSASINDA)

**Aynurə Əfəndiyeva**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnistitutu*
**efendiyeva82@inbox.ru**

***Açar sözlər:*** *Şimali Azərbaycan, Cənubi Qafqaz, çar Rusiyası, Naxçıvan xanlığı, II Yekaterina, I Aleksandr, Valerian Zubov, işğal, siyasi vəziyyət*

*XVIII əsrin sonlarından başlayaraq I Pyotrun Cənubi Qafqazda möhkəmlənmək istiqamətindəki siyasətini davam etdirməyi qarşıya məqsəd qoyan II Yekaterina, daha sonra isə I Aleksadr yaranmış əlverişli siyasi vəziyyətdən yararlanaraq bölgəyə yürüşlər təşkil etmiş, bu diyarı ələ keçirmək uçun fəal siyasət yürütmüşlər. II Yekaterina 1796-cı ilin baharında V.Zubovun rəhbərliyi ilə Cənubi Qafqaza 30 minlik qoşun göndərmiş, Dərbənd, Bakı, Salyan, Şamaxı rus qoşunları tərəfindən tutulmuşdu. Lakin II Yekaterinanın vəfatından sonra hakimiyyətə gələn I Pavel yürüşü dayandıraraq, qoşunların geriyə qayıtması barədə əmr vermişdi.*

*1801-ci ilin martında I Pavelin öldürülməsindən sonra hakimiyyətə gələn I Aleksandrın zamanında Rusiya Cənubi Qafqaz istiqaməyində yenidən fəallaşaraq regionda möhkəmlənmək uğrunda mübarəzəyə başlayır.*

*Cənubi Qafqazda cərəyan edən bütün bu proseslər akademik P.Q.Butkovun "1722-1803-cü illərdə Qafqazin yeni tarixi üçün materiallar" adlı əsərində ətraflı şərh olunmuş, bölgənin daxili siyasi, beynəlxalq vəziyyəti, Azərbaycan xanlarının mövqeyi haqda geniş məlumat verilmişdi. Məqalədə P.Q Butkovun XVIII əsrin sonu-XIX əsrin başlanğıcında Cənubi Qafqazda baş verən siyasi proseslər haqqında verdiyi məlumatlar araşdırılmış, digər mənbələr və ədəbiyyatlarla müqayisəli şəkildə təhlil olunmuşdur.*

# О ВОЕННОЙ ИНТЕРВЕНЦИИ ЦАРСКОЙ РОССИИ НА ЮЖНОМ КАВКАЗЕ В КОНЦЕ XVIII - НАЧАЛЕ XIX вв. (НА ОСНОВЕ РАБОТЫ АКАДЕМИКА П.Г.БУТКОВА «МАТЕРИАЛЫ ДЛЯ НОВОЙ ИСТОРИИ КАВКАЗА В 1722-1803ГГ.»)

***Айнура Эфендиева***

***Ключевые слова:*** *Северный Азербайджан, Южный Кавказ, Царская Россия, Нахчыванское ханство, Екатерина II, Александр I, Валериан Зубов, оккупация, политическая ситуация.*

*Начиная с конца XVIII века Екатерина II, стремившаяся продолжить политику укрепления Петра I на Южном Кавказе, а затем и Александра I, воспользовавшись благоприятной политической ситуацией, организовывала походы в регион и вела активную политику по захватить эту землю. Весной 1796 г. Екатерина II направила на Южный Кавказ 30-тысячное войско под предводительством в Зубова, и русские войска захватили Дарбенд, Баку, Сальяны и Шамахы. Однако Павел I, пришедший к власти после смерти Екатерины II, остановил шествие и приказал войскам вернуться.*

*При Александре I, пришедшем к власти после убийства Павла I в марте 1801 года, Россия вновь активизировалась в регионе Южного Кавказа и начала борьбу за свое усиление в регионе.*

*Все эти процессы, происходящие на Южном Кавказе, были подробно объяснены в работе академика П.Г. Буткова «Материалы для новой истории Кавказа в 1722-1803 годах», даны обширные сведения о внутриполитическом и международном ситуации региона, положения Азербайджанских ханов. В статье проанализированы и сопоставлены с другими источниками и литературой сведения, предоставленные П.Г. Бутковым о политических процессах, происходивших на Южном Кавказе в конце XVIII - начале XIX века.*

# ON THE MILITARY INTERVENTION OF TSARIST RUSSIA IN SOUTHERN CAUCASUS AT THE END OF THE 18TH CENTURY AND THE BEGINNING OF THE 19TH CENTURY (BASED ON THE WORK "MATERIALS FOR THE NEW HISTORY OF THE CAUCASUS IN 1722-1803" BY ACADEMICIAN P.Q. BUTKOV)

*Aynura Efendiyeva*

***Keywords**: Northern Azerbaijan, South Caucasus, Tsarist Russia, Nakhchivan Khanate, Catherine II, Alexander I, Valerian Zubov, occupation, political situation.*

*Starting from the late 18th century, Tsarist Russia, initially under Peter I and later under Catherine II and Alexander I, pursued a policy of strengthening its position in the South Caucasus. They organized expeditions to conquer the region and implemented active policies to take control. Catherine II, with the leadership of V. Zubov, sent 30,000 troops to the South Caucasus in the spring of 1796, capturing Derbent, Baku, Salyan, and Shamakhi. However, after Catherine's death, her successor, Paul I, ordered the troops to withdraw.*

*Following Paul I's assassination in 1801, under Alexander I's rule, Russia renewed its efforts to strengthen its position in the South Caucasus. Academic P.Q. Butkov's work, "Materials for the New History of the Caucasus in 1722-1803," extensively discusses these processes, providing detailed explanations of the region's internal political and international situation, the position of Azerbaijani khans. This article explores Butkov's information on the political processes in the late 18th and early 19th centuries in the South Caucasus, analyzing it in comparison with other sources and literature.*

XVIII əsrin II yarısında Azərbaycan ərazisində 20-yə qədər xanlıqlar, sultanlıqlar və məlikliklər yaranmış Gürcüstanın qərbində Kartli-Kaxetya çarlığı, Şərqində isə İmeretiya, Meqreliya, Abxaziya və s. kimi çarlıqlar mövcud olmuşdur. Bu kiçik feodal dövlətlər arasında hakimiyyət uğrunda daim mübarizə getmiş, nəticə olaraq bu feodal dövlətlər kömək üçün çar Rusiyasına, Osmanlı imperiyasına müraciət etmək məcburiyyətində qalmışlar. Cənubi Qafqazda özünün xüsusi maraqları olan çar Rusiyası Azərbaycan ərazisində hər hansı bir xanlığın möhkəmlənməsində maraqlı deyildi və bölgənin işğalını gerçəkləşdirmək məqsədilə buraya ekspedisiyalar təşkil edir, ərazini daim nəzarətdə saxlamağa çalışırdı. Belə ki, Qafqaz ətrafını öyrənmək üçün Qildenştedti, habelə Xəzərsahili vilayətlərdə olan vəziyyəti araşdırmaq üçün

Qmeleni əraziyə göndərdi. Qubalı Fətəli xanın müraciətinə əsasən xana kömək məqsədilə general De-Medemin başçılığı ilə qoşun Dərbəndə yeridildi.

Əsrlər boyu Osmanlı-Səfəvi imperiyaları kimi böyük dövlətlərin arasında daim mübarizə meydanına çevrilən Gürcüstan üçün Şimal qonşusu olan Rusiya yaxşı himayədar ola bilərdi. Gürcüstan çarı II İraklı 1763-1774-cü illəri əhatə edən Rusiya-Osmanlı müharibəsində Rusiya tərəfindən müharibəyə qoşuldu, daha sonra isə Rusiyanın himayəsinə keçmək üçün müraciət etdi. Nəhayət, 1783-cü ildə Rusiya ilə 13 maddədən ibarət Georgiyevsk taraktatını imzaladı. Beləliklə də çarlığı himayə altına alan Rusiya Cənubi Qafqazda mövqeyini möhkəmləndirdi.

Osmanlı imperiyasına gəlincə Rusiya ilə Kiçik Qaynarça sülh müqaviləsini imzaladıqdan sonra daha bir müharibəyə qoşulmaq iqtidarında olmadığı üçün Cənubi Qafqazda gedən proselərə müdaxilə edə bilmədi.

**General Valerian Zubovun Cənubi Qafqaza yürüşü zamanı bölgənin siyasi vəziyyəti.** Ağa Məhəmməd xan Qacar İranda hakimiyyəti ələ alıb, Cənubi Azərbaycan xanlıqlarını özünə tabe edib, keçmiş Səfəvi imperiyasının sərhədlərini bərpa etməyi qarşısına məqsəd qoyaraq Cənubi Qafqaz istiqamətində yürüşə keçdi. Üç istiqamətdə yürüşə başlayan Qacar ordusunun bir hissəsi İrəvan və Naxçıvanı, bir hissəsi Qarabağ və Gürcüstanı, digər hissəsi isə Şirvan və Dağıstanı ələ keçirməli idi.

Bu arada Ağa Məhəmməd xan Tehranda olarkən 1795-ci ilin may ayında Ərdəbilli Nürəli xanın başçılığı altında bəzi məlumatlara görə 50 min, bəzilərinə görə 100 min qoşun və fransızların idarəçiliyində artilleriya toplanmağa başladı [16, s. 6].

Akademik P.Q. Butkov onun Azərbaycana gəlməkdə əsas niyyətinin istər silah gücünə, istərsə də razılıqla bütün hakimləri özünə tabe etmək, sonra da qüvvələrini gürcü çarına qarşı yönəltmək olduğunu qeyd edərək bildirir ki, Qacar 1795-ci ilin əvvəllərində  Şirvan daxil olmaqla bütün Azərbaycan xanlarına müraciət edərək ona tabe olmalarını və girov göndərmələrini tələb etdi [14, s. 332].

Hələ 1794-cü ildə Şuşalı İbrahim xan və İrəvan xanı öz elçilərini Konstantinopola göndərdi. Onlar ümid edirdi ki, ən qədim zamanlardan bəri mövcud olan dostluğa sadiq qalaraq Ağa Məhəmməd xana qarşı Osmanlı dövləti öz köməyini əsirgəməyəcək. Lakin Osmanlı hökuməti İran xalqı ilə müqaviləsi olduğunu bildirərək xanlara kömək etməkdən imtina etdi.

P.Q.Butkov II İrakli ilə olan ittifaqını təzələyən Şuşa xanının Ağa Məhəmməd xanın tələbini rədd etməsinin səbəbini  onun girov kimi göndərdiyi qardaşı oğlunu xanın öldürtməsi olduğunu qeyd edir. [14, s. 332]. Əhməd bəy Cavanşir də bu haqda bildirir ki, İbrahim xanın əmanət kimi göndərdiyi Əbdüssəməd bəy bütün əshabələri ilə birlikdə öldürüldüyündən Ağa

Məhəmməd xan Qacar onun əvəzində başqasını tələb etməsinə baxmayaraq İbrahim xan onun bu tələbini rədd edir [4, s. 146].

Əvvəlcə tabe olmaq istəməyən Şəki xanı sonradan Qacarın hakimiyyətini qəbul etdi. Şamaxı xanı Mustafa xanın Ağa Məhəmməd Xan Qacara olan münasibətindən yazan P.Q.Butkov qeyd edir ki, Şuşa xanının müttəfiqi Şamaxılı Mustafa xan boyun əyməmiş və rus hökumətinin himayəsinə üz tutmuşdu [14, s. 332].

P.Q.Butkov Gəncə xanı Cavad xanın isə Ağa Məhəmməd xan ilə ittifaqda olduğunu bildirir [14, s. 332]. Rusiya təbəəliyinə keçmək istəyən Dərbəndli Şeyx Əli xan və yeni barışdığı Bakılı Hüseyqulu xan isə Ağa Məhəmməd xanın elçisini hörmətlə qəbul etmiş və onu hədiyyələrlə geri qaytarmışdı. Hər iki xanın elçisinin bu vaxt Peterburqda olmalarına baxmayaraq onlar Rusiyadan uzaqlaşmağa başladılar.

Murtuzqulu xana sığınacaq verdiyinə və atasının ruslara bağlılığına görə Ağa Məhəmməd xanın qəzəbinə tuş gələn Talış xanı Mir Mustafa xan tabe olmaqdan imtina etdi və rusların himayəsinə keçmək uçun yaxın qohumu Zaman bəyi bu xahişlə general Qudoviçin yanına göndərdi. Dərbəndli Şeyx Əli xan tərəfindən geri qaytarılmasına baxmayaraq, oktyabr ayında xanın elçısı hərbi gəmi ilə Həştərxana gəldi və Rusiya himayəsinə götürülməyi xahiş etdi [14, s. 333].

1795-ci ilin yayında Ağa Məhəmməd xan Gilandan Talış xanı Mustafa xana qarşı daha bir qoşun göndərdi. Bu qoşun Talış ərazisinin bir çox yerlərini dağıtdı, Lənkəranda tut ağaclarının çoxu məhv edildi. Mir Mustafa xan ailəsi ilə birlikdə rus eskadrasının yerləşdiyi Sara adasına doğru getməyə məcbur oldu. Böyük rus hərbi qüvvəsi ilə qarşılaşan Qacar ordusu Sara adasına daxil ola bilməyib geri çəkildi.

Nəinki Azərbaycanda, ümimilikdə Cənubi Qafqazda daxili və xarici vəziyyətin gərginləşdiyi bir dövrdə Naxçıvanda hakimiyyətə gələn Kəlbəli xanın Ağa Məhəmməd xana müqavimət göstərmək üçün kifayət qədər qüvvəsi yox idi. Buna görə də o, xanlıqda hakimiyyəti ələ keçirmək arzusunda olan əmisi oğlu Abbasqulu xanı girov kimi Ağa Məhəmməd xanın yanına göndərdi. Kəlbəli xanın Abbasqulu xanı özündən uzaqlaşdırmaq məqsədilə göndərildiyini bilməsinə baxmayaraq Ağa Məhəmməd xan Naxçıvandan gələn girovu qəbul etdi [8, s. 73].

Azərbaycan xanları arasında olan bu fikir ayrığından istifadə edən Ağa Məhəmməd xan Şuşa və İrəvan xanlığına qarşı 8 min qoşun göndərdi. İbrahimxəlil xan İraklinin oğlu Çar Aleksandrın komandanlıq etdiyi qoşunların köməyi ilə onları qarşıladı və darmadağın etdi.

Şuşa qalasını bir aydan çox mühasirədə saxlasa da buranı ələ keçirə bilməyən Qacar 1795-ci ildə Tiflisə doğru hərəkətə keçir. Qacar İraklidən Rusiya ilə bağladığı müqaviləni ləğv edərək tabe olmasını tələb etdi. Lakin

Kartli-Kaxetya çarı xanın bu tələbini rədd etdi və rus komandanlığından kömək istədi. Lakin rus hökuməti Gürcüstana köməklik göstərmədi.

Belə görünür ki, II Yekaterina kabineti yaranmış siyasi şəraitdə Gürcüstanı qurban verərək, əslində Cənubi Qafqazda möhkəmlənmək və Xəzərin Qərb sahillərini tutmaq məqsədi daşıyan Şərq siyasətini həyata keçiməyə başlamışdı.

Çar II İrakli 1794-cü ildə 4 il Rusiyada elçi olmuş general-adyudant knyaz Qarsevan Çavçavadzeni elçi qismində Rusiyaya göndərdi. Hələ 1795-ci ilin mayında general Qudoviçə yazdığı məktubda Ağa Məhəmməd xanın Azərbaycana yaxınlaşması barədə məlumat verərək bildirirdi ki, umid yalnız Şuşa xanınadır. 3 min qoşun göndərilməsini xahiş edən II İrakli hələ 12 min qoşun üçün də kifayət qədər azuqə olduğunu qeyd edirdi [14, s. 335].

Gəncə hökmdarı Cavad xan və Məlik Məcnun da Ağa Məhəmməd xanın qoşununa bələdçi kimi Gürcüstan yürüşündə iştirak edirdi. II İraklinin Gəncə xanlığının daxili işinə qarışması və xanlığı işğal etmək iddiasında olması Cavad xanın bu yürüşdə iştirakının əsas səbəbi idi [4, s. 152]. Gürcu tarixçisı Teymuraz Baqrationi "David Baqrotioninin tarixi" kitabında Gürcüstan yürüşündə Naxçıvan xanı Kəlbəli xanın da olduğu qeyd edilmişdi. Belə ki müəllif yazir ki, Ağa Məhəmməd xanın qoşununun sərkərdəsi Naxçıvan xanı Kəngərli Kəlbəli xan ibadətgahlar, padşahların məqbərələrinin oldugu şəhərin dağıdilmasına imkan vermədi [5, s. 21].

11 sentyabr 1795-ci ildə özünü və ailəsini təhlükəyə atmaq istəməyən II İrakli Gürcüstanının qərbinə keçərək Tiflisi tərk etdi. Döyüş meydanında II İrakliyə aid çoxlu top ələ keçirildi [10, s. 162]. 1795-ci il sentyabrın 12-də Tiflis Qacar qoşunu tərəfindən tutuldu. Akademik P.Q.Butkov şəhərin alınması zamanı baş verən hadisələrin ətraflı şərhini vermişdi. Gəncəlilər və İrəvanlılarla birlikdə suvarı qoşunlarla surətlə Gəncədən Tiflisə çatan Ağa Məhəmməd xan müqavimətsiz şəhəri ələ keçirdi, qarət etdi, yandırdı. Şah sarayının daşlarında dağ yarandı. Avlabarı Tiflislə birləşdirən Kür çayı üzərindəki daş körpü uçuruldu. Tiflis qarət edilən zaman Rusiya sarayının göndərdiyi tac, II Yekatrinanın hədiyyəsi olan 12 top ələ keçirildi və 10 minə yaxın adam əsir götürüldü [14, s. 339-340].

Dərbənd, Bakı və Şəki xanları Tiflisin alınması və qazandığı uğurlar münasibətilə Ağa Məhəmməd xanı təbrik etdilər. Lakin Dağıstan hakimləri, Tarki şamxalı, Qaraqaytaq usmisi, Tabasaran hakimi təşviş içində idilər. 1795-ci ilin oktyabrında keçirilən şurada yekdil müdafiə haqqında qərar çıxarıldı, Ağa Məhəmməd xanın hücumunun qarşısını almaq üçün əlverşli yerlərdə mühafizə dəstələri yerləşdirildi və Rusiyaya kömək üçün müraciət edildi [14, s. 342 ].

P.Q.Butkov qeyd edir ki, Rus hökuməti gürcülərdən bu qədər zəiflik, Ağa Məhəmməd xandan isə bu qədər cəsarət gözləmirdi. Tiflisin dağıdılması barədə

məlumatı alan II Yekaterina General Qudoviçə Gürcüstana iki suvari dəstə göndərilməsi barədə təlimat verdi [14, s. 343-344]. Cənubi Qafqazı zəbt etməyi qarşıya məqsəd qoyan rus hökuməti Dağıstanı və Şirvan bölgəsi daxil olmaqla Araz çayına qədər bütün Xəzərsahili ərazidə Rusiya idarəçiliyini yaratmağı qarşıya məqsəd qoymuşdu [14, s. 367].

1795-ci ilin dekabrında general Savelyevin rəhbərliyi altında rus qoşunu Qızlardan Dərbənd istiqamətində yola düşdü. Fevralın 15-də Dərbəndə yaxınlaşan 3 piyada batalyonu, 1 kazak eskadronu, 250 kazak, 500 kalmık, 6 səhra topundan ibarət hərbi qüvvəni Dərbənd suvari dəstəsi qarşıladı [14, s. 349-352]. Qubadan Dərbəndə gələn Şeyxəli xan rus qüvvələrinə qarşı mübarizə aparmaq üçün Azərbaycan xanlarından və Ağa Məhəmməd xandan kömək istədi. Xorasandan ixtişaş xəbərini alan Ağa Məhəmməd xan Muğandan Tehrana yola düşdü, Şeyxəli xana qoşunlarının zəflədiyi və yorulduğunu, buna görə də kömək edə bilməyəcəyi barədə məlumat verdi. Butkov Qacarın qoşunlarınıın geri çəkilmə səbəbini rus qoşunlarının gəlməsi və Rusiya ilə muharibəyə girmək istəməməsi ilə əlaqələndirir [14, s. 354]. Dərbəndin müdafiəsi üçün topçularla birlikdə 2 top göndərən Bakı xanı Hüseynqulu xandan başqa heç bir xan onu dəstəkləmədi. Hətta Şamaxılı Mustafa xan Bakı xanlığı ilə Şeyxəli xan arasındakı əlaqələri təcrid etmək üçün əlindən gələni edirdi [7, s. 176].

Dərbənddən 2 verst məsafədə düşərgə salan Savalyev top bateriyası qurdu və şəhəri top atəşinə tutdu. Savalyev 4180 nəfərdən ibarət dəstə ilə Dərbəndin qala divarlarına yaxınlaşdığını və kəskin müqavimətə rast gəldiyini özünün 18 aprel 1796-cı il raportunda bildiridi. [7, s. 176]. P.Q.Butkov fevralın 26-dan martın 25-nə kimi Dərbənd uğrunda hərbi əməliyyatların davam etməsi, bu müddət ərzində qalaya 3 dəfə hücum edilməsi, lakin şəhərdəki bütün evlərin daşdan tikildiyi və torpaqla örtüldüyü üçün şəhərə ciddi ziyan dəymədiyi, hər dəfə rus qoşunlarının geri çəkildiyi haqda məlumat verir [14, s. 353]. Göründüyü kimi Dərbəndi davamlı olaraq bombalamasına, uzun müddət mühasirədə saxlamasına baxmayaraq Savalyevin qoşunu şəhəri ələ keçirə bilmir. Şəhərin mühasirəsinin dayandırılması, qoşunların geri çəkilməsi barədə general-leytinant Zubovdan əmr alan Savalyev Dərbəndin 15 verstliyində olan Darbağ çayına çəkilərək Fars ekspedisiyasının gəlişini gözləməyə başlayır [14, s. 353-354]. 12 min nəfərlik qoşun, 21 topla Dərbəndə doğru hərəkət edən V.Zubovun ordusuna Savalyevin burada olan dəstəsi də qoşulur [17, s. 291].

Bildiyimiz kimi, qraf V.A.Zubovun Cənubi Qafqaz ekspedisiyası 1796-ci ilin fevral ayında təşkil olunur. Hücum planı üç fərqli istiqamətdə hazırlanmışdı: 1) Xəzər donanması Bakı və Lənkəran sahillərinə; 2) Gürcüstandakı qoşunlar Gəncə və Qarabağa; 3) əsas qüvvələr isə Qızlardan keçib Dərbəndə və Bakı istiqamətində hücuma keçməli idi [14, s. 360].

II Yekatrinanın fevralın 19-da Zubova göndərdiyi təlimatda yürüşün əsas məqsədi kimi İranda sülhü və siyasi sabitliyi təşkil etmək göstərilirdi. P.Q.Butkov özünün də iştirak etdiyi bu yürüş haqqında əsərində çox geniş məlumat verərək yürüşün məqsəd və vəzifələrinə aydınlıq gətirmişdi. Verilən təlimata görə V.Zubov Gürcüstandakı dağnıqlığa son qoyaraq II İraklinin hakimiyyətini Araz çayından Osmanlı sərhədlərinə qədər uzatmalı, Gəncə və İrəvan xanlıqlarının Kartli-Kaxetya çarlığına birləşdirməyə nail olmalı, Xəzər dənizi sahilində yerləşən Bakını ələ keçirməli və buranı rus qüvvələrinin təhcizat bazasına çevirməli, Ağa Məhəmməd xanın ordusunu və qüdrətini məhv edərək Murtuzqulu xanın iştirakı ilə Gilana qoşun çıxartmalı idi [14, s. 360-364]. Təşkil olunan ekspedisiyanın məqsədinin Gürcüstanın azad olunması, Gürcü çarlığının, Qarabağ məliklərinin, Ağa Məhəmməd xana cəsarətlə müqavimət göstərən Şuşalı İbrahimxəlil xanın hakimiyyətini gücləndirmək olduğunu qeyd edən P.Q.Butkov əslində yürüşün təcavüzkar niyyətini gizlətməyə çalışır.

Aprelin 29-da Dərbənddən 18 verst uzaqlıqda Xəzər donanması Savalyevin dəstəsi ilə birləşərək, mayın 2-də şəhərə yaxınlaşdı və Şeyxəli xana qan tökülmədən şəhərin təslim edilməsi bildirildi, lakin xan bu təklifi rədd edərək mübarizəyə başladı və mayın 10-na kimi qətiyyətlə müqavimət göstərdi [14, s. 380-384].

Mayın 10-da Dərbənd qüllələrinin birində yaranan yarıqdan rus qüvvələri şəhəri güllə atəşinə tutumağa başladı. Əhalinin bir hissəsi vəkil seçdikləri Xızır bəy vasitəsilə şəhəri dağıntıdan xilas etmək üçün Şeyxəli xana təslim olmasını bildirdilər. Şeyxəli xan Dərbənd və Qubanın mötəbər əyanları ilə qraf Zubovun hüzuruna getdilər. Fətəli xanın qızı Pəricahan xanım Dərbənd və Qubanın müvəqqəti hakimi təyin olundu [13, s. 176].

Savalyevin rəhbərliyi altında 3 piyada taboru, 200 kazak və 4 səhra topu Dərbənddə saxlayan Zubov Qubaya yolandı. İyunun 6-da heç bir müqavimət ilə rastlaşmayaraq şəhəri işğal etdi, ordan isə Bakı istiqamətində yola düşdü [6, s. 220-221]. Hüseynqulu xan da mübarizənin mənasız olduğunu görüb Bakını təslim etdi. 1796-ci il iyun ayının 13-də Bakının qala açarları Zubova təqdim olundu. 3 piyada batalyonu, 2 suvari eskadronu, 3 səhra topu ilə general-mayor Raxmanovun dəstəsini Bakıya göndərən qraf özü Şamaxı xanlığı ərazisinə hücum etdi.

1796-ci ilin əvvəlindən II İrakli və İbrahim xanın qoşunları tərəfindən mühasirəyə alınan Gəncə xanlığında da vəziyyət olduqca gərgin idi. Çarəsiz qalan Cavad xan sentyabr ayında Zubova müraciət etmək və Ağa Məhəmməd şah Qacar təhlükəsinin qarşısını almaq üçün rus qoşunlarının Gəncəyə göndəriməsini xahiş etdi [14, s. 406]. Əslində Cavad xan II İrakli və İbrahimxəlil xandan xanlığını qorumaq məqsədilə rus təbəələyini qəbul etməyə məcbur olmuşdu. Butkov Cavad xanın Rimski-Korsakovun rəhbərliyi ilə Gəncəyə doğru hərəkət edən rus qoşununa şəhəri könüllü təslim etdiyi və

şəhərin qala qapısının açarını ona təqdim etdiyi barədə məlumat verir [14, s. 412].

Rus hökumətinin onları İran təhlükəsindən qoruyacaqlarına və hakimiyyətlərini möhkəmləndirəcəklərinə əmin olan xanlar rus təbəəliyinə keçməyə çalışır, bununla da öz xanlıqlarını müdafiə edəcəklərinə inanırdılar.

Kəlbəli xan da Naxçıvan xanlığının müstəqilliyini qorumaq məqsədilə Rusiya qoşunlarının Ali Baş Komandanı, general-mayor Qraf Valerian Zubovla danışıqlar aparmış, rus generalı Nesvyatevlə məktublaşmışdı [5, s. 68]. Qarabağ xanı İbrahim xan da oğlu Əbülfət xanı hədiyyələr və cins atlarla Zubovun hüzuruna göndərmiş, Rusiya dövlətinə sədaqətini bildirmişdi. Zubovun yürüşünün Qarabağ məliklərinin güclənməsinə kömək edəcəyini və onun hakimiyyətini təhlükə altına aldığını yaxşı başa düşən İbrahim xan sadəcə diplomatik addımlar atırdı.

II Yekaterinanın vəfatından sonra hakimiyyətə gələn I Pavel rus qoşunlarının Cənubi Qafqazdan çıxarılması barədə əmr verdi. Rus qoşunları ölkəni tərk edən kimi Ağa Məhəmməd şah Qacar Azərbaycan və Dağıstan hakimlərinə fərman göndərərək onları hədələyib tabe olmaqlarını tələb etdi. Naxçıvana göndərilən sərdara isə Naxçıvan əhalisinin İrana köçürülməsi, kəndlərin dağıdılması barədə göstəriş verilmişdi. P.Q.Butkovun məlumatına görə, Naxçıvan xanı Kəlbəli xan imdad diləmək üçün özü hədiyyələrlə şahın yanına getdi. Ağa Məhəmməd şah hədiyyələri qəbul etsə də, Rus komandanlığı ilə yazışdığına və Rusiyanın himayəsinə keçmək istədiyinə görə onun gözlərini çıxartdı [14, s. 427-428].

Ağa Məhəmməd şah İrəvan xanını da Zubovla məktublaşmada günahlandıraraq ondan 500000 manat cərimə istədi. Məhəmməd xan 200000 manatı ödəyə bildi, qalanını ödəmək üçün əmlakını satmaq məcrburiyyətindı qaldı [2, s. 104]. Bununla belə, Butkovun da məlumat verdiyi kimi şahın əmri ilə irəvanlı Məhəmməd xan həbs edilərək, ailəsilə birlikdə Qəzvinə aparıldı [14, s. 428]. 12 min suvari qoşunla hücuma keçən şah Şuşa qalasını maneəsiz tutdu. İbrahim xan Şuşanı tərk edib, ailəsi ilə birlikdə Car-Balakənə getdi.

Gəncəli Cavad xan Şuşaya Ağa Məhəmməd şahın hüzuruna gəldi, lakin Zubovun Qafqaza yürüşü zamanı şəhəri ruslara təslim etdiyinə görə şah onu həbs etdirdi [13, s. 178]. Ağa Məhəmməd şah çapar göndərərək Bakı xanı Hüseynqulu xanı da hüzuruna gətirtdi, Bakı şəhərini müqavimətsiz rus qoşunlarına təslim etdiyi üçün onu da həbs etdirdi. Bakının Şeyxəli xanın tabeliyinə verilməsi barədə fərman hazırlandı. Hüseynqulu xanın ailəsini və qohumlarını Tehrana apardı, Bakı əhalisindən isə təzminat alındı. [14, s. 429-430]. Lakin Şuşanın alınmasının səkkizinci günü, 1797-ci il 4 iyulda Qacar suiqəsd nəticəsində öldürüldü.

Bu hadisənin nəticəsi olaraq Bakı və Gəncə xanları həbsdən azad edilərək öz xanlıqlarına geri döndülər [12, s. 295].

11 yanvar 1798-ci ildə 80 yaşlı və dövrünə görə görkəmli dövlət xadimi, Kartli-Kaxetya çarı II İraklinin ölümündən sonra taxta oğlu XII Georgi çıxdı [3, s. 51]. XII Georgi ölkəni idarə etməkdə çətinlik çəkirdi, qardaşları ilə mübarizə şəraitində idi. Gürcü knyazlarının bir qismi Georgini, bir qismi isə qardaşı Yulonu dəstəkləyirdi. Digər tərəfdən 1800-cü ildə Fətəli xandan öglunu girov kimi Tehrana göndərməsini tələb edən məktub aldı. Əgər bundan imtina edərsə şah onu Tiflisi işğal edəcəyi ilə hədələyirdi. [9, s. 458]. Ölkənin belə bir vəziyyətində XII Georgi I Pavelə kömək üçün müraciət etdi. 18 aprel 1800-ci ildə I Pavel Kartli-Kaxetya çarlığının Rusiyaya birləşməsi haqqında manifest imzaladı. Manıfestin elan edilməsindən bir neçə gün sonra çar George vəfat etdi. 18 yanvar 1801-ci ildə I Pavel Gürcüstanın Rusiyanın tərkibənə daxil olunduğunu bəyan etdi və Georgenin oğlu David müvəqqəti olaraq Kartli-Kaxetya çarı təyin olundu. Pavelin öldürülməsi ilə hakimiyyətə gələn I Aleksandr Gürcustanda olan vəziyyəti təhlil etmək üçün general Knorinqi ora yolladı. Tiflisə gələn Knorinq Davidi hakimiyyətdən uzaqlaşdıraraq yerinə müvəqqəti olaraq general Lazarevi təyin etdi. 12 sentyabr 1801-ci ildə çar Aleksandr Kartli-Kaxetya çarlığının işğalı edilməsi və Şərqi Gürcüstanın Rusiy imperatorluğuna birləşdirilməsi haqqında fərman imzaladı. Cənubi Qafqazda möhkəmlənməyi qarşıya məqsəd qoyan I Aleksandr Kartli-Kaxetyanı ələ keçirməklə bölgənin işğalının əsasını qoymuş oldu.

**Çar Rusiyasının Cənubi Qafqazın işğalına başlaması.** Çar Rusiyası Cənubi Qafqazı işğal etməklə buranın təbii sərvətlərinə yiyələnmək, Cənubi Qafqazdan Osmanlı imperiyasını tamamilə sıxışdırıb çıxarmaq, Xəzər dənizini daxili dənizinə çevirərək bölgənin ticarət yollarına nəzarəti ələ keçirmək istəyirdi. Qərbi Avropa dövlətlərinin, xüsusilə də İngiltərə və Fransanın region ilə bağlı işğalçılıq planları da mövcud idi. Onlar Rusiyanın bu bölgədə olan fəaliyyətini diqqətlə izləyir və Rusiyanın planlarına mane olmağa çalışırdı. Rusların cənuba doğru irəliləməsi onları çox narahat edirdi. 1800-cü ilin sonunda İngiltərə Con Malkolmu elçi olaraq Qacar dövlətininə ticarət müqaviləsi imzalamaq üçün göndərdi. Siyasi məqsədlər güdən bu müqaviləyə əsasən əgər Qacar dövlətinə hər hansı bir dövlət hücum edərsə İngiltərə hərbi yardım göstərməyi öhdəsinə götürdü. Lakin I Aleksandrın taxta çıxması, İngiltərə-Rusiya arasındakı münasibətlərın yaxşılaşması İngiltərənin Qacar dövlətində nüfüzunu sarsıtdı.

Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra çar I Aleksandr xanlarla münasibətləri yaxşılaşdırmaq, Gəncə, İrəvan, Şəki, Şirvan, Bakı xanlarının Rusiya tərəfinə keçmələrini təmin etmək barədə yeni fərman imzaladı.

Bu fərmana uyğun olaraq Şimali Azərbaycan xanları və Dağıstan hakimləri Georgiyevsk şəhərinə çağrıldı. 26 dekabr 1802-ci ildə Quba və Lənkəran xanları, Tarki, Qaraqaytaq və Tabasaran hakimləri ilə Georgiyevsk müqaviləsi imzalandı. Müqaviləyə əsasən düşmənçiliyə son qoyulmalı, bütün münaqişələr

sülh yolu ilə həll edilməli, Qacar ordusuna qarşı birlikdə mübarizə aparmalı idi. Lakin Georgiyevsk müqaviləsini imzalayan xanların özləri çox keçmədən Rusiya işğalına məruz qaldılar.

1802-ci ildə Qafqaz ordularının baş komandanı təyin olunan gürcü əsilli Pavel Sisyanov rus qoşunlarının İmeretiyaya yeridilməsi barədə göstəriş aldı. 1804-cü ildə Sisianov ilə II Soloman arasında başlanan danışıqlar heç bir nəticə vermədi. II Solomon Rus idarəsini qəbul etməyə məcbur oldu və 25 aprel 1804-cü ildə Sisianovun tələblərini qəbul etdi [11, s. 110]. İmeretiya və Meqreliyanın Rusiyaya birləşdirilməsi Quriya çarlığının da taleyini müəyyənləşdirdi. Quriya çarlığı da Rusiyanın himayəsi altına keçdi.

Kartli-Kaxetya çarı II İraklinin oğlu şahzadə Aleksandrın Car Balakəndə olmasını bəhanə edən Sisianov bölgəyə hücüm etdi. Şahzadənin təslim edilməsi barədə məktubla müraciət edən Sisanovun tələbi rədd edildi. Qulyakovun başçılığı ilə 5 minlik rus hərbi hissələrı Car-Balakən camaatlığına yönəldi, martın 9-da Balakən general-mayor Qulyakov tərəfindən ələ kecirildi. [15, s. 366].

Rus hərbi hissələrinin Azərbaycan istiqamətində növbəti hədəfi Gəncə xanlığı oldu. 1804-cü il yanvarın 3-də general-leytinant Sisianov hücumla Gəncə xanlığını ələ keçirdi, Gəncəli Cavad xan öldürüldü. [15, s. 371].

Sisianov uzun müddətdir ki, Tehranda saxlanılan erməni katolikosu Danili İrəvana qaytarmaqla Cənubi Qafqaz ermənilərinin hörmətini qazanmaq istəyir, eyni zamanda daha etibarlı Danili Eçmiədzinə katolikos təyin etməklə İrəvan xanlığını ələ keçirməyi planlaşdırırdı.

Kəlbəli xanın Naxçıvanda və İrəvanda böyük hörməti olduğunu bilən Sisianov 6 fevral 1803-cü il məktubunda Kəlbəli xana yazırdı ki, ali məqamınızdan sizdən asılı olan bütün imkanlardan istifadə edərək Ümumrusiya əlahəzrət imperatoru və ali sultanının razılığına əsasən, Ararat patriarxı Danil katolikosun öz vəzifəsinə qaytarılması üçün kömək etməyinizi xahiş edırəm. Mənə gəlib çatan xəbərə görə inanıram ki, sizin katalikos Danilin geri qaytarılması üçün imkanlarınız var [1, s. 78].

Ağa Məhəmməd şahın ölümündən sonra taxta çıxan Fətəli şah Kəlbəli xanı həbsdən azad edərək ona İrəvan xanlığında yaşamasına icazə vermişdi. Gözlərini itirsə də siyasətdən kənarda qala bilməyən Kəlbəli xan tezliklə İrəvan xanı Məhəmməd xanın etimadını qazana bildi. Fətəli şah Naxçıvanlılar arasında böyük nüfuza malik olan Kəlbəli xanı İrana müəyyən məbləğdə xərac vermək şərtilə yenidən Naxçıvan xanı kimi qəbul etdi [1, s. 76-77].

Kəlbəli xan Naxçıvan xanlığında hakimiyyətdə olduğu illərdə (1787-1820) xanlığın inkişafı üçün əlindən gələni etmişdi. Əkinciliyin inkişaf etdirilməsi, yeni-yeni meyvə bağlarının salınması, şəhərlərdə və kəndlərdə məktəblərin açılması xanlığın müəyyən qədər inkişafina səbəb olmuşdu. Kəlbəli xanın hakimiyyəti dövründə Naxçıvan xanlığında müəyyən qədər

canlanma müşahidə olundu. Xanlığın istiqlaliyyətini müdafiə etmək üçün Kəlbəli xan eyni zamanda həm Rusiyanın, həm də İranın işğalçılıq siyasətinə qarşı diplomatik addımlar da atdı [1, s. 71; 8, s. 34].

Kəlbəli xan Naxçıvanın müdafiəsi üçün diplomatik manevrlərini gücləndirir. Sisianova yazdığı məktubunda isə əgər Ruslar Gürcüstanda qərar tutarlarsa, o zaman onlara xidmət edəcəyini bidirir, Ayın 28-də İran şahının yanına gedəcəyini və patriarx Danili Naxçıvana gətirəcəyinə söz verir [8, s. 53].

Rusiyanın Cənubi Qafqazda apardığı işğalçılıq siyasəti Qacarlar dövlətinin narahatlığına səbəb oldu. Şah hökuməti çar Rusiyasından Cənubi Qafqazdan qoşunlarının çıxarılmasını tələb etdi. Lakin Rusiyanın Qacarlar dövlətinin tələbini rədd etməsi ilə, 1804-cü il iyunun 10-da iki dövlət arasında diplomatik münasibətlər kəsildi, I Rusiya-İran müharibəsi başlamış oldu.

**Nəticə:** XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Cənubi Qafqazda mövcud olan feodal dövlətlər arasındakı gərgin münasibətlər, regionun parçalanmış vəziyyəti, siyasi birliyin olmaması xarici qüvvələrin işğalı üçün əlverişlı vəziyyət yaratdı. Cənubi Qafqazdakı bu cür mürəkkəb siyasi, iqtisadi və beynəlxalq vəziyyət Rusiyanın təcavüzkar planlarının gerçəkləşdirilməsini asanlaşdırmış oldu. Çar I Aleksandr Cənubi Qafqazı işğal etmək üçün qəti addımlar atdı. Kartli-Kaxetiya çarlığının birləşdirilməsi ilə Azərbaycan torpaqları olan Qazax, Borçalı, Şəmşəddil sultanlıqları, Pəmbək bölgəsi də ələ keçirildi. 1802-ci ildə imzalanan Georgiyevsk müqaviləsi ilə diplomatik uğur əldə edən Rusiyanın Şərqi Gürcüstanda möhkəmlənməsi rus-qacar münasibətlərini müharibə həddinə gətib çıxardı. 1803-cü ildə Car-Balakənin, 1804-cü ildə Gəncənin işğalı Qacarlar dövlətinin Rusiyaya müharibə elan etməsi ilə nəticələndi. Bununla da Azərbaycan torpaqlarının ələ keçirilməsi uğrunda gedən və torpaqlarımızın bölüşdürülməsi ilə sonlanan ədalətsiz müharibə başlandı.

## Ədəbiyyat


1. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1996, 106 s.
2. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, 124 s.
3. Həmidova Ş.P. XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı, Elm, 1985, 97 s.
4. Hüseynov Y.R. Qarabağ tarixi mənbələrdə. Bakı, "Şuşa" nəşruyyatı, 2012, 248 s.
5. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri.Naxçıvan-2013.184 s.
6. Mustafazadə T.T. Azərbaycan–Rusiya münasibətləri XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində. Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 528 s.
7. Mustafazadə T.T. Quba xanlığı. Bakı: Elm, 2005, 480 s.

8. Naxçıvan tarixi. Üç cilldə, II cild. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, 528 s.
9. Temizkan A. Rusiya ve Osmanlı devletinin Kafkas ötesinde nufuz mücadelesi. Türk Dünyası İncelemeleri Dergisi. C. VI, S. 2, İzmir 2006, 447-462 s. https://dergipark.org.tr/tr/download/article-file/406282
10. Türker Ö., Soofizadeh A. Gürcüstanın Rus himayesine girmesi ve sonuçlari: Georgiyevsk antlaşmasından Ağa Muhammed xanın Tiflis seferine. History studies Uluslararası Tarih Araştırmaları Dergisi, cild 7/3, Ankara, Eylül, 2015, 149-165 s. https://www.historystudies.net/gurcistanin-rus-himayesine-girmesi-ve-sonuclari-georgiyevsk-antlasmasindan-aga-muhammed-hanin-tiflis-seferine_674
11. Yılmaz Ö., Sarac F. İmereti kralı II Solomoonun bağımsizlik mücadelesi ve Osmanlı sürgününe dair bazı yeni bilgi ve belgeler. Mavi Atlas, 9 (2), 2021, 108-132 s. https://dergipark.org.tr/tr/pub/gumusmaviatlas/issue/65597/990128
12. Ашурбейли С.В. Очерк истории средневекового Баку. Баку, Издательство АН Азерб. ССР, 1964, 333с.
13. Бакиханов А.А. Гюлистан-и-Ирам / Ред., коммент., прим. и указ. акад. З.М. Буниятова. Баку: Элм, 1991, 304 с.
14. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. Часть II. СПб.: Тип. имп. АН, 1869, 601 с
15. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. Часть III. СПб.: Тип. имп. АН, 1869, 620 с.
16. Мамедова Г.Н. О походе Зубова в Азербайджан. Баку,: Элм, 2003, 94 с
17. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в. М.: Наука, 1966, 324 с

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 3 (44), s.38-45

# İNFORMASİYA MƏDƏNİYYƏTİ: ŞƏRHLƏR VƏ YANAŞMALAR

**Aynurə Əsgərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aynure.edu@mail.ru

***Açar sözlər**: informasiya mədəniyyəti, Ginman, Hindle, Marçand, Davenport, Oliver, R.Əliquliyev.*

*Məqalədə informasiya mədəniyyəti haqqında alim və mütəxəssislərin rəy və yanaşmaları təhlil olunur. Dünya alimləri ilə yanaşı Azərbaycan alimlərinin R.Əliquliyev və R.Mahmudovanın informasiya mədəniyyətinə verdiyi təriflər yer alır. İnformasiya mədəniyyətinin geniş və dar mənada izahı verilir. Müxtəlif sahə mütəxəssislərinin və alimlərin yanaşmaları əsasında informasya mədəniyyətinin elementləri, növləri, göstəriciləri, informasiya mədəniyyətinin formalaşması şərh olunur. Adrian Kari və Karolayn Murun "İnformasiya Mədəniyyətinin Qiymətləndirilməsi - Kəşfiyyat Modeli" adlı məqaləsinə və Alberto Acerbinin "Rəqəmsal əsrdə mədəni təkamül" kitabına istinad edilir. Süni intellektin insan təcrübəsini yenidən formalaşdırdığı bildirilir. İnformasiya mədəniyyətinin formalaşmasında informasiyalaşma prosesinin mühüm rolu, informasiyalaşmanın məqsədi və başlıca vəzifəsi, informasiya tələbatı, informasiya resursu, informasiya fəaliyyəti haqqında məlumat verilir. İnformasiya mədəniyyətinin formalaşması probleminin dünya üçün aktual olduğu diqqətə çatdırılır. Bu mövzunun hərtərəfli araşdırılmasının mühüm əhəmiyyət kəsb etdiyi bildirilir.*

## ИНФОРМАЦИОННАЯ КУЛЬТУРА: ИНТЕРПРЕТАЦИИ И ПОДХОДЫ

**Айнура Аскерова**

***Ключевые слова:** информационная культура, Джинман, Хиндл, Маршанд, Дэвенпорт, Оливер, Р. Алигулиев.*

*В статье анализируются мнения и подходы ученых и экспертов к понятию информационной культуры. Приводятся определения информационной культуры, предложенные как азербайджанскими исследователями Р. Алигулиевым и Р. Махмудовой, так и международными авторами. Описывается информационная культура в широком и узком*

*контексте. На основе мнений различных специалистов обсуждаются элементы, типы и показатели информационной культуры, а также процесс ее формирования. Ссылаются на статью Эдриана Кэри и Кэролайн Мур под названием «Оценка информационной культуры – модель исследования» и книгу Альберто Ачерби «Культурная эволюция в цифровую эпоху». Утверждается, что искусственный интеллект меняет человеческий опыт. Особое внимание уделяется значительной роли информатизации в этом процессе, включая цели, основные задачи, информационный спрос, ресурсы и деятельность. Подчеркивается актуальность вопроса формирования информационной культуры в глобальном масштабе и важность комплексных исследований в этой области.*

## INFORMATION CULTURE: INTERPRETATIONS AND APPROACHES

**Aynura Asgarova**

***Keywords:*** *information culture, Ginman, Hindle, Marchand, Davenport, Oliver, R. Aliquliyev.*

*The article analyzes the opinions and approaches of scholars and experts regarding information culture. It includes definitions of information culture provided by Azerbaijani scholars R. Aliquliyev and R. Mahmudova, alongside global scholars. The explanation of information culture is provided in both broad and narrow contexts. Based on the perspectives of various field specialists and researchers, the elements, types, and indicators of information culture, as well as the formation of information culture, are discussed. The article by Adrian Cary and Caroline Moore titled "Assessment of Information Culture – Exploration Model" and Alberto Acerbi's book "Cultural Evolution in the Digital Age" are referenced. It is stated that artificial intelligence is reshaping human experience. The article highlights the significant role of the process of informatization in the formation of information culture, along with its objectives and primary tasks, information demand, information resources, and information activities. It emphasizes the relevance of the issue of information culture formation on a global scale and notes the importance of comprehensive research on this topic.*

Müasir dövrdə bir sıra tədqiqatçıların araşdırmalarında informasiya mədəniyyəti mövzusu aktuallıq təşkil edir. İnformasiya mədəniyyəti insanın ümumi mədəniyyətinin bir hissəsi olub, mədəniyyətin digər komponentlərinin formalaşmasına müəyyən dərəcədə təsir göstərir. İnformasiya mədəniyyəti

insana istənilən növ informasiya ilə işləmək, həm gündəlik həyatında, həm də peşəkar fəaliyyətində bu informasiyadan səmərəli istifadə etmək imkanı yaradır. Elmi ədəbiyyatda informasiya mədəniyyəti ilə bağlı mütəxəssislərin müxtəlif şərhləri və yanaşmaları mövcuddur. Bəzi şərhçilərə görə informasiya mədəniyyəti– insanın informasiyanın qəbulu və mənimsənilməsi, yadda saxlanılması, emalı, mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi, təqdim edilməsi, informasiyadan istifadə edərkən hüquqi və etik normalara əməl edilməsi, həmçinin zərərli informasiyadan qorunma üsulları ilə bağlı olan bilik və bacarıqlarıdır.

İnformasiya mədəniyyəti geniş mənada etnik və milli mədəniyyətlərin qarşılıqlı əlaqəsini, onların bəşəriyyətin ümumi təcrübəsində əlaqəsini təmin edən prinsiplər və mexanizmlər məcmusudur; sözün dar mənasında– nəzəri və praktiki məsələlərin həlli üçün informasiya ilə istinadın və onun istehlakçısına təqdim edilməsinin optimal yolları; istehsal, saxlama və məlumat ötürülməsinin texniki mühitinin təkmilləşdirilməsi mexanizmlərini; təlim sisteminin inkişafını, insanın informasiya vasitələrindən və məlumatlarından səmərəli istifadəyə hazırlanmasını əks etdirir[11].

Azərbaycan alimləri R.Əliquliyev və R.Mahmudova görə informasiya mədəniyyəti–informasiya tələbatını müəyyənləşdirərək lazımi informasiyanın axtarılıb tapılması, qəbulu, saxlanması, emal olunması, təhlili, təqdim olunması üçün müasir informasiya texnologiyalarından yüksək səviyyədə istifadə etmək bacarığı, eyni zamanda informasiya ilə işləyərkən onun tamlığının, əlyetərliliyinin təmin edilməsi, məxfiliyinin qorunması, hüquqi və etik normalara əməl olunmasıdır [1].

Ginman informasiya mədəniyyətinə “maddi resursların transformasiyası ilə yanaşı intellektual resursların çevrilməsinin də davam etdirildiyi mədəniyyət” kimi tərif vermişdir. “Bu transformasiya növü üçün ilkin resurslar müxtəlif növ bilik və informasiyalardır. Əldə edilən məhsul, maddi fəaliyyətin müsbət fəaliyyət göstərməsi və inkişafı üçün zəruri olan emal olunmuş intellektual məhsuldur” [3].

Adrian Kari və Karolayn Mur informasiya mədəniyyəti ilə bağlı tədqiqatlarda tez-tez istinad edilən müəlliflərdir. Onların "İnformasiya Mədəniyyətinin Qiymətləndirilməsi - Kəşfiyyat Modeli" adlı məqaləsində informasiya mədəniyyəti– “əməliyyat və strateji uğurun əldə edilməsində məlumatın dəyərinin və faydasının tanındığı, məlumatın təşkilati qərarların qəbul edilməsinin əsasını təşkil etdiyi və informasiya texnologiyalarının effektiv informasiya sistemləri üçün bir vasitə kimi asanlıqla istifadə edildiyi bir mədəniyyət” kimi müəyyən edilir. Kari və Mur hesab edir ki, informasiya mədəniyyəti və təşkilat mədəniyyətinin sintezi biliyə əsaslanan təşkilata çevrilmə prosesinin tərkib hissəsidir. Təşkilat əvvəlcə informasiya mədəniyyətinin mənimsənilməsi zərurətini dərk edir, sonra etikanı çatdırır və informasiya mədəniyyətinin komponentlərini əks etdirmək üçün yenidən strukturlaşdırmaqla öhdəlik

nümayiş etdirir. Proses dinamikdir və informasiya mədəniyyətinin fəlsəfəsi və təcrübəsi normaya çevrilənə qədər davam edir. Bu mərhələdə informasiya mədəniyyəti artıq təşkilat mədəniyyətindən fərqlənmir və təşkilat informasiyanın mövcudluğu və istifadəsinin gündəlik fəaliyyətə xas olduğu bir təşkilata çevrilmişdir. Kari və Mur informasiya mədəniyyətinin qiymətləndirilməsi üçün vacib olan altı elementi müəyyən edirlər:

• kommunikasiya axınları;
• təşkilatlararası tərəfdaşlıqlar;
• daxili mühit;
• informasiya sistemlərinin idarəedilməsi;
• informasiyanın idarə edilməsi
• proseslər və prosedurlar [7].

İnformasiya mədəniyyətinə dair skeptik və distopik yanaşmasında Bernard Stiegler böyük korporasiyalar tərəfindən dəstəklənən hazırki informasiya mədəniyyətinin ictimai həyatı degenerasiya etdiyini və pozduğunu iddia edir. Böyük korporasiyalar cazibədar və mürəkkəb alqoritmlərdən istifadə edərək istehlakçılığı təşviq etməklə insan təcrübəsini yenidən müəyyənləşdirir. Stiegler informasiya texnologiyalarını həm müalicə, həm də zəhər kimi başa düşülə bilən yunan sözü olan farmakon kimi təsvir edir [9].

Alberto Acerbinin "Rəqəmsal əsrdə mədəni təkamül" kitabında onlayn məkanların insan mədəniyyətinə inteqrasiyası müzakirə edilir, burada o, informasiya inqilabı nəticəsində dəyişdirilmiş insan təcrübəsinin bir neçə ölçüsünü təsvir edir. Acerbi naməlum istifadəçilər arasında qarşılıqlı əlaqənin qeyri-şəffaflığını və müxtəlif hadisələrin varlıq duyğumuzu dəyişdirdiyini iddia edir [10].

Amerikalı pedaqoq Uilyam Mitçelə görə [5], internetin yayılması və süni intellektin yaranması insanların öz kimliyini necə dərk etməsinə təsir edib. Mitçel bildirir ki, insan və maşın arasındakı ayrılıq artıq keçərli deyil. Hərtərəfli virtual şəbəkələr praktiki olaraq bioloji səviyyədə insanla birləşərək, kosmosda səpələnmiş bir kiborq kimi özünü dərk etməyə aparır. Zamanın necə təsəvvür edildiyi baxımından, səmərəli texnologiyalarla birləşən hiperəlaqə çoxlu sayda fəaliyyətin ekspedisiyasına səbəb oldu. Məkan baxımından, dünyanın demək olar ki, hər yerindən işləyə, ünsiyyət qura, istehlak edə və bir çox başqa hərəkətlər edə bilərsiniz. İstər-istəməz, bu dəyişikliklər insanların öz aralarında, təbiətlə qarşılıqlı əlaqəsini və öz mənlik anlayışlarını necə tanıdıqlarını yenidən formalaşdırdı. Kibərməkanın çoxsaylı keyfiyyətləri arasında o, müəyyən dərəcədə gözlənilməzliyi ehtiva edir. Məsələn, süni intellekt yeni fəaliyyət üsullarını şərtləndirir və nəticədə insanların təcrübəsini yenidən formalaşdırır.

Hindle informasiya mədəniyyətini altı elementin təşkil etdiyini irəli sürür:

• üfüqi və şaquli olan informasiya axınları;

• fərdlərin öz işlərini görmək üçün lazım olan məlumatlara çıxışı var;
• qərarlar məlumatlı mülahizələrə əsaslanır;
• hər kəs informasiya idarəçiliyinə öz rolunun bir hissəsi kimi baxır;
• effektiv iş əlaqələri qurmaq üçün məlumat mübadiləsi;
• İT biznes nəticələrinə nail olmaq üçün bir vasitə kimi qəbul edilir.

Marçand informasiya mədəniyyətinin dörd növünü müəyyən etmişdir:

• funksional mədəniyyət: menecerlər məlumatdan başqaları üzərində təsir və ya güc tətbiq etmək vasitəsi kimi istifadə edirlər;
• mədəniyyətin paylaşılması: menecerlər və işəgötürənlər öz fəaliyyətlərini yaxşılaşdırmaq üçün məlumatdan istifadə etmək üçün bir-birlərinə etibar edirlər;
• sorğu mədəniyyəti: menecerlər və işçilər gələcəyi daha yaxşı başa düşmək və gələcək tendensiyalar/istiqamətlərə uyğunlaşmaq üçün etdiklərini dəyişdirmək yolları üçün məlumat axtarırlar;
• kəşf mədəniyyəti: menecerlər və işçilər böhran və köklü dəyişikliklərlə bağlı yeni anlayışlara açıqdırlar və rəqabətdə fasilələr yaratmaq yollarını axtarırlar.

Davenport informasiya mədəniyyətinin aşağıdakı növlərini fərqləndirir:

• açıq və ya qapalı;
• fakt yönümlü və ya şayiə və intuisiyaya əsaslanan;
• daxili və ya xaricə yönəlmiş;
• nəzarət etmək və ya səlahiyyət vermək;
• informasiya kanalları və ya media üçün üstünlüklərin olması.

Gillian Oliver Avstraliya, Honq-Konq və Almaniyada distant təhsil müəssisələrində informasiya mədəniyyəti ilə bağlı araşdırmasında, informasiyaya verilən dəyərlərin və ona münasibətin “informasiya mədəniyyəti”nin göstəriciləri olduğunu, və bu dəyərlərin təşkilat mədəniyyətinin müxtəlif təbəqələrində– milli, peşə, korporativ mədəniyyət daxilində qarşılıqlı təsirlər nəticəsində formalaşacağını iddia edirdi. Gillian Oliver hesab edirdi ki, informasiya mədəniyyəti müxtəlif səviyyələrdə baş verən təsirlərlə formalaşır– bəziləri digərlərinə nisbətən dəyişməyə daha açıqdır. O, aşağıdakı səviyyələri təklif edirdi:

Birinci səviyyə: təşkilatın informasiya mədəniyyətinin əsas və ya təməl təbəqəsi

• məlumata sübut kimi hörmət– hesabatlılıq məqsədi ilə məlumatın idarəedilməsi ehtiyacının tanınması və dərk edilməsi;
• informasiyaya bilik kimi hörmət– bilik və məlumatlılığın artırılması məqsədilə müəyyən məlumatların idarə edilməsi ehtiyacının tanınması və dərk edilməsi;
• məlumatı paylaşmağa hazır olma– təşkilat daxilində məlumat mübadiləsinin norma kimi qəbul edildiyi detallılıq səviyyəsi;

• məlumata güvən– bu məlumat üçün üstünlük verilən əsas mənbələrin, məsələn, fərdlərin və ya mətn resurslarının nəzərdən keçirilməsinə diqqət yetirəcək;
• dil tələbləri– istifadə olunan xüsusi simvollar ilə bağlı hər hansı məhdudiyyətlər, həmçinin məlumatın çoxdilli versiyaları üçün tələb olunur;
• regional texnoloji infrastruktur– xaricdə mövcud olan texnoloji infrastruktur təşkilat daxilində informasiya mədəniyyətinin ölçülərinə ciddi təsir edən amil olacaqdır.
İkinci səviyyə: iş yerində əldə edilə və ya genişləndirilə bilən məlumatların idarə edilməsi ilə bağlı işçilərin bacarıqları, bilikləri və təcrübəsi
• informasiya və kompüter savadlılığı da daxil olmaqla, informasiya ilə bağlı səlahiyyətlər;
• informasiya ilə bağlı ekoloji (ictimai və təşkilati) tələblər barədə məlumatlılıq.
Üçüncü Səviyyə:
• mövcud olan informasiya idarəçiliyi modeli (informasiya arxitekturası);
• məlumatı idarə etmək üçün yaradılmış təşkilati sistemlərə etibar etmək.

İnformasiya mədəniyyətinin formalaşmasında informasiyalaşma prosesinin mühüm rolu vardır. İnformasiyalaşma informasiyanın toplanmasının, işlənməsinin, axtarılmasının və yayılmasının mütəşəkkil, sosial-iqtisadi işlənməsinin və həyata keçirilməsi şəraitinin yaradılması prosesidir. İnformasiyalaşma prosesinin cəmiyyətdə prioritet yerlərdən birini tutmasına səbəb informasiya təlabatlarının artması, istehsalı və sosial idarəetmə sistemini informasiya ilə təmin etməklə yanaşı, həm də onun ictimai inkişafında mühüm rol oynaması ilə bağlıdır. İnformasiyalaşmanın başlıca vəzifəsi informasiya təlabatının ödənilməsi və vətəndaşların, dövlət hakimiyyəti orqanlarının, ictimai birliklərin hüquqlarını təmin etməkdir. Məqsəd isə zəruri infrastruktur yaramaqdır, çünki bunsuz heç bir səviyyədə və miqyasda mədəni, siyasi, iqtisadi sistemlərin fəaliyyəti mümkün deyildir. Burada söhbət, mədəni tərəqqi haqqında ənənəvi nəzəriyyələrdə informasiyanın rolunun dərk olunmasından gedir.

İnformasiya mədəniyyətinin formalaşmasının ilkin şərti kimi informasiya təlabatı götürülür. İnformasiyaya olan təlabat istehlakçı ilə informasiya sistemlərinin kompleks şəbəkələrinin yaradılmasını labüd edir. Hər bir fəaliyyət forması kimi, informasiya fəaliyyəti informasiya resurslarından yaradıcı və peşəkar istifadə tələb edir[2]. İnformasiya resursları deyilərkən, bir qayda olaraq, sosial əhəmiyyət kəsb edən və ictimai-siyasi praktikada istifadə olunan informasiya materiallarının, informasiya sənədlərinin, informasiya massivlərinin məcmusu başa düşülür. İnformasiya sistemlərində formal, yəni hüquqi mənada ayrıca sənədlər, yaxud sənədlər məcmusu informasiya resurslarıdır. Bütövlükdə informasiya resursları əmlakın tərkib elementi kimi vətəndaşların, dövlət hakimiyyəti orqanlarının, yerli idarəetmə strukturlarının, təşkilatların, müəssisə və ictimai birliklərin mükiyyətində yerləşə bilər. İnformasiya

resursları mülkiyyəti hüquqi və resursların sahibləri arasında münasibətlər mülki qanunvericiliklə tənzimlənir. İnformasiya resursları özündə informasiya və bilikləri, konkret sahənin linqivistik vasitələrlə təsviri, həmçinin informasiya və biliklər əldə etməyi təmin etmək üçün informasiya və bilikləri ehtiva edir. Hər bir informasiya resursundan o zaman effektiv istifadə olunur ki, ondan potensial istifadə edənlərə, istehlakçılara resursun mövcudluğu, məzmunu və əldə etmək qaydası haqqında məlumat çatdırılsın. İnformasiya resurslarının inkişafında mühüm perspektiv istiqamətlərdən biri onların formalaşması və istifadə olunması proseslərinin avtomatlaşdırılmasıdır. Bu prinsip milli resursların inkişafının mühüm sahəsidir. İnformasiya resurslarını qorumaq və ondan səmərəli istifadə xüsusi və spesifik fəaliyyət növüdür. İnformasiya mədəniyyəti məhz informasiya fəaliyyəti ilə sıx bağlıdır. İnformasiya fəaliyyəti– informasiyanın toplanması, işənməsi, mühafizə olunması, axtarılması və yayılması, informasiya resursunun formalaşdırılması və əldə olunması zamanı həyata keçirilən proseslər və prosedurаları nəzərdə tutur.

Elmi ədəbiyyata baxış zamanı informasiya mədəniyyəti ilə bağlı müxtəlif mütəxəssislər tərəfindən şərhlər və yanaşmalar mövcud olsa da, bu mövzunun hərtərəfli araşdırılması aktual əhəmiyyət kəsb edir. Çünki, yaşadığımız informasiya cəmiyyətinin reallıqları bunu tələb edir. Yazımızda mütəxəssislərin şərhləri və yanaşmaları əsasında informasiya mədəniyyətinin tərifi, informasya mədəniyyətinin elementləri, növləri, göstəriciləri, informasiya mədəniyyətinin formalaşması, informasiyalaşma, informasiya tələbatı, informasiya resursları və informasiya fəaliyyəti barədə yığcam məlumat verməyə çalışdıq.

## Ədəbiyyat


1. R.M.Əliquliyev, R.Ş.Mahmudova İnformasiya mədəniyyəti mahiyyəti və formalaşdırılması problemləri və həlli yolları. Bakı Universitetinin xəbərləri №1, 2008, 137-145 s.
2. В.Г.Кинелев Образование и цивилизация // Информатика и образование, 1996, № 5, 21–28 с.
3. M.Ginman Information culture and business performance. IATUL Quarterly: A Journal of Library Management and Technology, 2(2), 1988; 93-106 c.
4. T.H.Davenport Saving IT's Soul: Human-Centered Information Management. Harvard Business Review, 72(2), 1994; 119-131 s.
5. W.J. Mitchell E-topia: Urban Life, Jim—But Not as We Know It; MIT Press: Cambridge, MA, USA, 1999, 184 p.
6. D.Marchand, W.Kettinger, and Rollins J. Information orientation: The link to business performance. New York: Oxford University Press., 2001, 314 p.

7. A.Curry And C.Moore Assessing information culture: An exploratory model. International Journal of Information Management, 23 (2), 2003; 91-110 s.
8. G.Oliver Organizational Culture for Information Managers. Chandos Publishing., 2011, 178 p.
9. B.Stiegler The Age of Disruption: Technology and Madness in Computational Capitalism; Polity: Cambridge, UK, 2019, 380 p.
10. A.Acerbi Cultural Evolution in the Digital Age; Oxford University Press: Oxford, UK, 2020;
11.V.A.Kravets, V.N.Kuharenko Issues of formation of information culture, http://www.ifap.ru/eng/projects/infolit.htmm

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 3 (44), s.46-54

# MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ BAKI ŞƏHƏRİ ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ (1991-2009-CU İLLƏR)

**Elmira Əliyeva**
Milli Azərbaycan Tarixi Muzeyi
elmirakberova@mail.ru

***Açar sözlər: Bakı, demoqrafiya, siyahıyaalınma, miqrasiya, urbanizasiya.***

*Əhali demoqrafiyası müasir həyatımızda öyrənilməsi və araşdırılması ən zəruri sosial problemlərdən biridir. Azərbaycan Respublikası öz müstəqilliyini qazandığı 1991-ci ildən bu sahənin öyrənilməsinə böyük tələbat yaranmışdır. Müstəqillik dövründə Azərbaycanda gedən demoqrafik proseslər keçmiş SSRİ dövründəkindən xeyli fərqli istiqamətdə cərəyan etmişdir olmuşdur. Məhz buna görə də 90-cı illərdən başlayaraq Azərbaycanda, eləcə də, onun paytaxtı Bakı şəhərində gedən demoqrafik proseslərin, o cümlədən, əhalinin say dinamikası, tərkibi, yerləşməsi, etnik tərkibi, doğum-ölüm, təkrar istehsalı məsələlərinin araşdırılması, miqrasiya və urbanizasiya aid dəqiq statistikanın yazılması çox böyük əhəmiyyət daşıyır. Müstəqilliyin ilk illərində yaranmış ağır sosial-siyasi vəziyyət bu sahədə də ciddi çətinliklər yaradırdı. Statistikanın, qeydiyyatın düzgün aparılmaması həmin illər demoqrafik prosesləri öyrənməkdə çətinliklər yaradırdı.*

## ДЕМОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ НАСЕЛЕНИЯ БАКУ В ПЕРВЫЕ ГОДЫ НЕЗАВИСИМОСТИ (1991-2009)

**Эльмира Алиева**

***Ключевые слова: Баку, демография, перепись, миграция, урбанизация.***

*Демография населения является одной из самых необходимых социальных проблем для изучения и исследования в нашей современной жизни. С тех пор как Азербайджанская Республика обрела независимость в 1991 году, возникла большая потребность в изучении этой области. В период независимости процесс развития демографических процессов в Азербайджане шел в совершенно ином направлении, чем в бывшем СССР. Именно поэтому, начиная с 1990-х годов, большое значение имеют демографические процессы,*

*происходящие в Азербайджане и его столице Баку, а также динамика, состав, расположение, этническая принадлежность, рождаемость, воспроизводство, миграция, урбанизация населения. Тяжелая общественно-политическая обстановка в первые годы независимости также ставила серьезные вызовы. Отсутствие должной регистрации затрудняло изучение демографических процессов в те годы.*

## DEMOGRAPHİC SİTUATİON OF THE POPULATİON OF BAKU İN THE FİRST YEARS OF İNDEPENDENCE (1991-2009)

**Elmira Aliyeva**

***Key words: Baku, demography, census, migration, urbanization.***

*Population demography is one of the most necessary social problems to study and investigate in our modern life. Since the Republic of Azerbaijan gained its independence in 1991, there has been a great demand for the study of this field. During the period of independence, the development process of demographic processes in Azerbaijan was in a much different direction than during the former USSR. That is why starting from the 90s. it is very important to study the demographic processes in Azerbaijan, as well as in its capital Baku, including the number dynamics, composition, location, ethnic composition, birth-death, reproduction of the population, and writing accurate statistics about migration and urbanization. The heavy socio-political situation that emerged in the early years of independence also posed significant challenges in this field. The lack of accurate statistics and registration during those years made it difficult to study demographic processes.*

1990-cı illərin əvvəllərində ölkədə yaranmış ağır siyasi-iqtisadi vəziyyət sosial həyata da öz ciddi təsirini göstərmiş, torpaqlarımızda gedən ağır müharibə nəticəsində bir milyona yaxın əhalinin öz yurd-yuvalarından didərgin düşməsi demoqrafik vəziyyəti daha da ağırlaşdırmışdır. Bütün bunlar əhalinin paytaxt şəhəri olan Bakıya daha çox axını ilə nəticələnmişdir.

Müstəqilliyin ilk illərində Bakıda iki milyondan çox insan yaşayırdı [4, s.225]. Şəhər yaşayış məntəqələrində, əsasən paytaxtda əhalinin sayının kəskin surətdə artması xidmət, təminat, sanitariya işlərini xeyli çətinləşdirmişdi. Mənzil fondu təmir olunmur, köhnə binalar sökülüb dağılırdı. Bir neçə il davam edən müharibə genofondumuza ağız zərbə vurmuş, müharibə çoxsaylı insan itkiləri ilə nəticələnmişdir. Keçid dövrünün ağır şərtləri, müharibə vəziyyəti insanların sosial vəziyyətini daha da ağırlaşdırmış, doğum səviyyəsi və əhali artımı prosesi də xeyli zəifləmişdir

Əhali demoqrafiyası haqqında ən dolğun məlumat verən mənbə əhali siahıyaalmalarının nəticələridir. Siyahıyaalmalarda öz əksini tapan məlumatlar demoqrafik və statistik vəsaitlərin hazırlanmasında, elmi araşdırmaların aparılmasında mühüm əhəmiyyət daşıyır. Bu baxımdan siyahıyaalma materialları həm bütövlükdə ölkə, həm də respublikanın ayrı-ayrı regionları üçün mühüm informasiya mənbəyidir.

Sovetlər dönəmində Azərbaycan əhalisinin bir neçə dəfə siyahıyaalma prosesi  keçirilmiş, ən sonuncu siyahıyaalma isə 1989-cu ilin yanvar ayında olmuşdur. Həmin siyahıyaalmanın göstəricilərinə görə, o zamankı Azərbaycan SSR-də ümumilikdə 7037867 nəfər, o cümlədən, 3434869 nəfər kişi, 3602998 nəfər qadın əhali olmuşdur. Bakı şəhərinin göstəricilərinə gəldikdə isə, 1989-ci ildə Bakıda 1150055 nəfər, o cümlədən, 558604 nəfər kişi və 591451 nəfər qadın olmaqla qeydə alınmışdır [11]. 1989-cu il siyahıyaalmasının nəticələrinə görə əhalinin 54 faizini şəhər əhalisi təşkil etmişdir ki, bunun da əsas hissəsini Bakı şəhəri əhalisi təşkil etmişdir. Müasir dövlətçilik tariximizdə  ilk dəfə əhalinin siyahıyaalınması məhz ümummilli lider Heydər Əliyevin 1996-cı il 22 fevral tarixində imzaladığı "1999-cu ildə əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 442 nömrəli Fərmanı ilə baş tutmuşdur [7, s.3.].  Bu siyahıyaalmanın nəticələrinə görə Azərbaycan əhalisi 7 953 438 nəfər olmuş, onun isə 3 888 155 nəfərini kişilər, 4 070 283 nəfərini isa qadınlar təşkil etmişdir. 1999-cu il siyahıyaalamasının nəticələrinə görə Azərbaycanda şəhər əhalisinin sayı 51 fazi təşkil etmişdir. Bu göstəricinin 44,1 faizi isə Bakı şəhərinin payına düşmüşdür. Əhalinin ümumi sayının 2245,8 min nəfəri (təxminən 23%) Azərbaycanın paytaxtı Bakıda cəmləşmişdir [3, s.24].

Azərbaycan Respublikasının cəmi ərazisinin  86,6 min kv kilometr olduğunu, Bakı şəhərinin isə  2,13 min kv kilometr ərazidə yerləşdiyini nəzərə alsaq bu bütövlükdə ölkə ərazisinin 2,5%-i deməkdir. Buna baxmayaraq, paytaxtda respublikanın cəmi əhalisinin 22,9%-nin, bütövlükdə isə şəhər əhalisinin isə 43,2%-nin yaşadığını nəzərə alsaq ərazinin nə qədər sıx məskunlaşdığının şahidi oluruq. Üstəlik də bu illərdə Bakı və onun ətraf rayonlarının əhalisinin sayı qaçqın və məcburi köçkünlərin hesabına da xeyli artmışdır. Lakin onların bir hissəsi sonradan başqa rayonlarda yerləşdirildi və bu zaman da düzgün qeydiyyat aparılmadığından dəqiq rəqəmləri söyləmək çətindir.

Respublika əhalisinin ikinci siyahıyaalınması isə Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 2006-cı il 7 iyun tarixli 415 saylı Fərmanına əsasən 2009-cu ilin aprelin 13-dən 22-dək keçirilmişdir. Bu siyahıyaalmanın nəticələrinə görə Azərbaycanda 8 172 809 nəfər əhali qeydə alınmışdır. Ötən 10 il ərzində (1999-2009) əhalinin sayında 969 min nəfər (12,2 faiz) artım qeydə alınmışdır. Bu illərdə şəhər əhalisinin sayı 4739,1 min nəfər (53,1 %), kənd əhalisinin sayı isə 4183 min nəfər (46,89%) olmuşdur. 2009-cu il il

siyahıyaalmasının nəticələrinə görə cəmi əhalinin 4414398 nəfəri və ya 49,47 faizi kişilərdən, 50,53%-i isə qadınlardan ibarət olmuşdur [6, s.12].

2009-cu il nəticələrinə görə hər 1000 nəfər kişi əhalisinə 1012,2 nəfər qadın düşmüşdür. Bu göstərici nisbətində də ilbəil azalma müşahidə olunmaqdadır. Belə ki, 1989-cu ildə bu rəqəm 1050,7, 1999-cu ildə 1048,2 nəfər olmuşdur [8, s.103]. Ümumölkə səviyyəsində qadınların sayında müşahidə olunan azalma selektiv abortların sayında olan kəskin artımla əlaqədardır. Gələcəkdə bu problemin qarşısının alınmaması ciddi balans və tarazlıq pozulmasına səbəb olacaqdır.

1991-2009-cu illərdə Bakı şəhərinin əhalisi 1762,2 1 762 min nəfərdən 2 045 815 nəfərə çataraq, 13,86% və ya 283 615 nəfər artmışdır. Əhalinin 1999-cu il ümumi siyahıyaalmasının nəticələrinə görə respublika əhalisinin (7 953 438 nəfər) 1 788 854 nəfəri və ya 22,5%-i Bakıda yaşayırdı. 2009-cu ildə keçirilən ikinci siyahıya alma zamanı respublikanın 8 922 447 nəfər əhalisinin 2 045 815 nəfəri və ya 22,9%-i Bakıda məskunlaşmışdır. Bu illərdə orta illik artım 95,1 min nəfər və ya 1,2% təşkil etmişdir [9, s. 8].

Azərbaycan Respublikasında əhalinin sayı 1990-2002-ci illərdə 15 faiz artaraq 8202,5 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 8,0 faiz artaraq 4154,3 min nəfərə, kənd əhalisinin sayı isə 23,2 faiz artaraq 4048,2 min nəfərə çatmışdır. Paytaxt Bakıda əhalinin sayının azalması statistik rəqəmlərdən də aydın görünür. Belə ki 1990-cı ildə Bakıda əhalinin sayı 1,8 milyonu keçmişdisə, 1991-ci ildən başlayaraq bir neçə il ərzində əhali sayında azalma müşahidə olunmuşdur, yalnız, 2000-ci ildə yenidən Bakıda əhali sayı 1,8 milyonu keçmişdir. Bundan sonrakı dövrlərdə isə əhali artımı həm təbii artım, həm də, miqrasiya hesabına artmaqda davam etmişdir. Bakı şəhərində 2008-ci ildə artıq 2 milyon əhali qeydə alınmışdır, bu rəqəm 2011-ci ildə 2,1 milyon (2092400) nəfəri keçmişdir [5, s. 28].

2000-ci illərin əvvəlləri üçün ölkə əhalisinin 50,7 faizi şəhərlərdə, 49,3 faizi isə kənd yerlərində yaşayır. Qeyd olunan illər ərzində Azərbaycan Respublikasında əhalinin orta illik artım göstəricisində ümumilikdə azalma meylləri müşahidə olunur. Əgər 1991-ci ildə əhalinin orta illik artımı 1,5 faiz təşkil edirdisə, 2002-ci ildə bu göstərici 0,8 faizədək azalmışdır.

Qeyd etmək lazımdır ki, məhsuldar qüvvələrin ümumi inkişaf səviyyəsinə görə Abşeron iqtisadi regionu, eləcə də, Bakı ilə respublikanın digər iqtisadi regionları arasında uzun müddət yaranmış qeyri-mütənasiblik yenə də böyük miqyasda qalmaqdadır. Buna baxmayaraq Abşeron ərazisində bəzən əsassız olaraq hələ də sənaye və başqa istehsal sahələri artmaqda davam edir. Bu da Abşeronda əhalinin yüksək sıxlığına səbəb olur. Məsələn, 2008-ci ildə əhalinin orta sıxlığı regionda 376 nəfərə bərabər olmuşdur (respublikada 100 nəfər). Təəssüf ki, Abşeronda əhalinin sıxlığının artması prosesi davam etməkdədir. Məsələn, 2008-ci ildə 2000-ci ilə nisbətən burada əhalinin miqdarı

370 min nəfər artmışdır. Halbuki, ərazidə əhalinin təbii artımı ildə cəmi 20 min nəfər civarındadır [10, s.62]. Üstəlik, Bakıya bölgələrdən müvəqqəti işləməyə gələn işçi qüvvəsi və ali təhsil almaq üçün gələn tələbələr də nəzərə alınarsa, şəhərdə əhali sıxlığı həddindən artıqdır. 2008-ci ilin əvvəlinə Bakı şəhəri əhalisinin sayı 1 917 000 nəfər olmuş, il ərzində 23,4 min nəfər və yaxud 1,3 faiz artmışdır. 2007-ci il ərzində daimi yaşamaq üçün şəhərdən 3,8 min nəfər getmiş, 7,4 min nəfər gəlmişdir [5, s. 28].

Əhalinin əsas demoqrafik göstəricilərindən biri də əhalinin yaş strukturu və cins tərkibidir. Yaş strukturunun göstəricilərinin təhlili əhali artımının tədqiqatı və proqnozlaşdırılmasının, əhali sayının dəyişmə dinamikasının, xəstəliklər və ölüm səbəblərinin qanunauyğunluqlarını müəyyən etmək üçün çox əhəmiyyətlidir. Əhalinin say etibarilə yaşlı təbəqəsinin artması dünyada gedən ümumi prosesdir. Azərbaycanda 1989-cu ildə əhalinin 60 yaş və ondan yuxarı hissəsinin xüsusi çəkisi 7,8 faiz olmuşdusa, 1999-cu ildə bu göstərici 8,9 faiz olmuşdur. Cins tərkibinə gəldikdə isə, yeni doğulan uşaqlar arasında oğlanlar üstünlük təşkil etsə də, 0-14 yaş arası ölümlərdə oğlanlar üstünlük təşkil etdiyinə görə, növbəti illərdə qadınların sayında artım müşahidə olunur. 1980-ci ildə kişi və qadınların nisbəti müvafiq olaraq 48,8 faiz və 51,2 faiz, 1999-cu ildə isə 49,3 və 50,7 faiz olmuşdur [1.s. 9].

Bakı şəhəri üzrə doğulanların sayı 2001-ci ildə 20 480, 2004-cü ildə 25 143 nəfər olmuşdusa, 2007-ci ildə yeni doğulanların sayı 32 178 nəfər olmuşdur [5, s. 54]. 2000-ci illərdən başlayaraq Bakı şəhərində əhalinin cins tərkibində olan dəyişiklik aşağıdakı kimi qeydə alınmışdır:

*Cədvəl №1*

| | **2000** | **2001** | **2002** | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **əhalinin sayı - cəmi, nəfər** | **1806418** | **1827009** | **1847410** | **1868175** | **1888988** | **1914373** | **1942527** | **1972044** | **2005550** |
| *o cümlədən* | | | | | | | | | |
| kişilər | 880308 | 892056 | 903459 | 915070 | 926766 | 940794 | 955960 | 972405 | 990597 |
| qadınlar | 926110 | 934953 | 943951 | 953105 | 962222 | 973579 | 986567 | 999639 | 1014953 |

Əsas demoqrafik göstəricilərdən biri olan nikah və boşanmaların sayında olan dəyişikliklər də demoqrafik vəziyyət haqqında fikir formalaşdırır.

Bakı şəhəri üzrə 2000-2008-ci illərdə olan nikah və boşanmaların statistikası cədvəl №2-də öz əksini tapmışdır.

| **İllər** | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Nikahların sayı** | 39 611 | 41 861 | 41661 | 56 091 | 62 177 | 71 643 | 79 443 | 81 758 | 79 964 |
| **Boşanmaların sayı** | 5478 | 5382 | 5738 | 6671 | 6914 | 8895 | 7817 | 8340 | 7933 |

*Cədvəl №2*

Əhalinin demoqrafik göstəricilərindən biri də onun milli tərkibidir. Sovet imperiyası dağıldıqdan sonra Azərbaycan əhalisinin, eləcə də, paytaxt Bakı əhalisinin milli tərkibində ciddi dəyişikliklər baş vermişdir. Müstəqilliyin ilk illərində Bakı şəhərinin etnik tərkibində olan dəyişimlər də fərqlidir. Bəzi etnik azlıqların sayında ciddi dəyişiklər yoxdur, bəzilərində isə xüsusi azalmalar və artımlar diqqəti cəlb edir. SSRİ-dən ayrılaraq müstəqil dövlət olmağımız, həmçinin qonşu Ermənistanla yaranan gərgin münasibətlər etnik tərkibə də təsirsiz ötüşməmişdir. Bakı şəhərinin milli tərkibində gedən dəyişikliklər 3 №li cədvəldə öz əksini tapmışdır.

| Bakı şəhəri üzrə əhalinin milli tərkibi | 1989 | 1999 | 2009 |
|---|---|---|---|
| Cəmi əhali, nəfər | 1794,9 | 1788,9 | 2045,8 |
| o cümlədən: | | | |
| azərbaycanlılar | 1184,2 | 1574,3 | 1848,1 |
| ləzgilər | 38,1 | 26,1 | 24,9 |
| ruslar | 295,5 | 119,4 | 108,5 |
| ermənilər | 180,0 | 0,4 | 0,1 |
| talışlar | 0,3 | 0,9 | 1,0 |
| avarlar | 0,7 | 0,5 | 0,3 |
| türklər | 0,3 | 1,1 | 2,1 |
| tatlar | 8,4 | 0,8 | 0,3 |
| tatarlar | 24,3 | 27,7 | 25,2 |

| | | | |
|---|---|---|---|
| ukraynalılar | 18,3 | 24,9 | 21,1 |
| saxurlar | 0,1 | 0,1 | 0,03 |
| gürcülər | 2,9 | 2,3 | 2,2 |
| kürdlər | 0,3 | 0,8 | 0,2 |
| yəhudilər | 23,6 | 5,2 | 6,1 |
| udinlər | 0,3 | 0,1 | 0,04 |
| qrızlar | … | … | 0,001 |
| digər millətlər | 17,6 | 4,3 | 5,7 |

*Cədvəl №3*

Azərbaycanda gedən demoqrafik proseslərin spesifik cəhətlərindən biri də ölkə ərazisindəki miqrasiya və urbanizasiya prosesləridir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə miqrasiyanın idarə olunmasının zamanın tələblərinə, regional və qlobal reallığa uyğun siyasətin gerçəkləşdirilməsi istiqamətində işlərə yeni layihə və proqramlarla başlanğıc verildi. Dövlətin bu sahədə siyasətinin əsas məqsədi – miqrasiyaya nəzarət edməsi, yerli əhalinin qanuni hüquq və maraqlar balansının təmin edilməsi, qanuni miqrantların hüquqlarının müdafiəsi, yüksək ixtisaslı intellektual miqrantların Azərbaycana cəlb edilməsidir.

Sovet hakimiyyətinin son illərində Azərbaycanda urbanizasiya prosesi xeyli zəif gedirdi. Buna da əsas səbəb 1970-ci illərdə qəbul olunmuş "Yaşayış yeri və olduğu yer haqqında" qanun olmuşdur. Belə ki, Azərbaycanın digər şəhərlərində daimi qeydiyyata düşmək üçün işə təyinat almaq, evlənmək, həmin şəhərdə mənzil sahibi olmaq tələb olunurdusa, Bakıda bu şərtlərlə qeydiyyata düşmək mümkün deyildi. Bu prosesdə əsas hədəflərdən biri də bölgələrə resursları paylaşdırmaq, paytaxtla aralarındakı fərqi azaltmaq idi. Müstəqillik qazandıqdan sonra isə bölgələrdə iş yerlərinin azalması, sənaye müəssisələrinin əksəriyyətinin fəaliyyətini dayandırması, Bakının isə bunun əksinə olaraq neft-qaz sənayesi hesabına inkişaf etməsi urbanizasiya prosesini sürətləndirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixində təsdiqlədiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı"nın qəbul edilməsi bu baxımdan əvəzsiz rola malik idi. Proqramda regionlardan Bakıya və digər şəhərlərə yüksək axının-urbanizasiya prosesinin qarşısının alınmasını ilk gündən iqtisadi siyasətdə mühüm prioritetlərdən biri kimi müəyyənləşdirilmiş, sosial ədalət prinsipinin qorunması baxımından respublikanın hər bir bölgəsinin proporsional inkişafı vacib sayılmışdır. Problemin miqyasını və Azərbaycan üçün aktuallı ğını nəzərə alan cənab İlham Əliyev hələ hökümət üzvləri ilə 17 noyabr 2003-

cü ildə keçirdiyi ilk iclasda regionların balanslı və davamlı inkişafını iqtisadi siyasətdə vacib istiqamətlərdən biri kimi müəyyənləşdirmişdir [2, s. 203]. Dövlət Proqramı ölkədaxili miqrasiyanın tənzimlənməsi sahəsində mükəmməl konsepsiya olmaqla, sosial-iqtisadi səbəblərlə bağlı daxili miqrasiyanın fəsadlarının aradan qaldırılmasına yönəldilmişdir.

Bunlardan biri də Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)" adlı konseptual sənəd olmuşdur. Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"na uyğun olaraq hazırlanmışdır və ölkədə mövcud miqrasiya proseslərinin təhlili əsasında bu sahədə gələcək inkişaf istiqamətlərini və həyata keçirilməli olan zəruri tədbirləri özündə əks etdirirdi.

Proqramın əsas məqsədi miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qanunların tətbiqinin effektivliyinin təmin edilməsi, miqrasiya sahəsində vahid məlumat bankının, müasir avtomatlaşdırılmış nəzarət sisteminin yaradılması, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, miqrantlarla bağlı sosial müdafiə tədbirlərinin həyata keçirilməsindən ibarət idi. Sosial-iqtisadi miqrasiyanın subyektini isə iqtisadi islahatların həyata keçirilməsi, özəlləşdirilmə prosesi, vaxtilə bəzi yaşayış məntəqələrinin enerji ehtiyatları ilə təmin olunmasında yaranan problemlərlə bağlı və mövcud olmuş digər sosial-iqtisadi səbəblərdən rayonlardan iri şəhərlərə, xüsusilə Bakıya və Abşeron yarımadasına köçən əhali təşkil edir. Qeyd olunmalıdır ki, son illər regionların sosial-iqtisadi inkişafı proqramı çərçivəsində görülən tədbirlər daxili miqrantların öz yaşayış yerlərinə qayıtması üçün şərait yaratmışdır. Aparılan müşahidələr göstərir ki, bölgələrdə əhalinin qaz, su və s. kimi təchizatları yaxşılığa doğru getsə də, sərbəst və rahat həyat axtarışında olan insanlar yenə də Bakıya üz tutmaqdadırlar. Son illərdə Bakıda əhalinin artım tempində azalma müşahidə olunur. Artım tempinin azalmasına baxmayaraq şəhər əhalisinin sayının artması qaçılmazdır. 44 günlük müharibə nəticəsində Azərbaycan ordusunun işğal olunmuş torpaqlarımızı azad etməsi Bakıda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərin də öz torpaqlarına qayıtmasını şərtləndirmişdir.

Beləliklə, Bakının demoqrafik yükü nisbətən azalmasına baxmayaraq, Bakı paytaxt şəhər olaraq daim əhalinin yaşayış üçün daha çox üz tutduğu region olaraq qalmaqdadır. Azərbaycanda daxili miqrasiya prosesinin qeydiyyatı və statistikası sahəsində də müəyyən boşluqların olması urbanizasiya prosesinin dəqiq rəqəmlərlə ifadəsində çətinliklər yaradır. Regionlarda yaşayış

səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, kənd təsərrüfatı ilə məşğul olan insanların dövlət tərəfindən təşviq olunması, Azərbaycanda yeni formalaşmağa başlayan eko-turizmin inkişaf etdirilməsi və s. kimi tədbirlərlə urbanizasiya prosesini zəiflətmək mümkündür. Çünki əhalinin artması mənzil təminatı, nəqliyyat infrastrukturu, kommunal xidmətlərə çıxış kimi məsələlərin müəyyən edilməsinə birbaşa təsir göstərir. Bakı şəhərinin 2040-cı ilə olan əhali proqnozunda isə şəhər əhalisinin 2,88 – 3,17 milyon nəfər arasında dəyişəcəyi müəyyən edilmişdir.

## Ədəbiyyat

**1**.Abbasova S. Azərbaycan Respublikası əhalisinin inkişafı və demoqrafik proseslərin modelləşdirilməsi, iqtisadiyyat üzrə fəlsəfə doktoru adı almaq üçün dis. / -Bakı, 2007. -200 səh.
**2.**Abdullayev F. Müasir Azərbaycan dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı-Nurlan-2009, 328 səh.
**3.**Abdullayeva S.İ. Azərbaycan Respublikasında demoqrafik vəziyyətin statistik qiymətləndirilməsi və proqnozlaşdırılması. İqtisadiyyat üzrə fəlsəfə doktoru adı almaq üçün dis.avtoreferatı. / -Bakı, 2018. – 26 səh.
**4.**Azərbaycan tarixi 7 cilddə. VII cild (1941-2002-ci illər). Bakı, Elm, 2008. 608 səh.
**5.**Bakı şəhərinin statistik göstəriciləri 2008. BSİ-nin rəsmi nəşri. Bakı, 2009. 285 səh.
**6.**Əhalinin siyahıyaalması 2009, 2 cilddə, I c., Bakı: 2011, 563 səh.
**7.**Əhalinin siyahıyaalınması mühüm dövlət tədbiridir. Respublika qəzeti, 26.09.2019, №211, 16 səh.
**8.**Həsənova L. 2009-cu ildə Əhalinin siyahıyaalması Azərbaycan Respublikasının demoqrafik durumu haqqında. Tarix və onun problemlari, №3 2014, 101-104 səh.
**9.**Muradov Ş., Ç.Baxış, Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar, Bakı, 2013, 135 səh.
**10.**Nadirov A. Akademiyada regionların sosial-iqtisadi inkişafı problemləri üzrə tədqiqatların ümumi qısa tarixi salnaməsi. Bakı-Elm-2010. 127 səh.
**11**.http://demoscope.ru/weekly/ssp/sng89_reg1.php

# ТЕРРИТОРИЯ АЗЕРБАЙДЖАНА В ПЕРИОД ГОСПОДСТВА САСАНИДОВ

**Эльмира Мамедова**
Азербайджанский Государственный Педагогический Университет
suleymanova.elmira1954@mail.ru

***Ключевые слова:*** *историческая территория, административно-территориальная система, Адурбайган, зороастризм, храм Адургушнасп, гавар, епископство*

*Историческая территория Азербайджана, занимавшая значительную часть Южного Кавказа с III по VII века находилась в составе государственной системы Сасанидской империи. Территория Албании и Атропатены, составляющая историческую территорию Азербайджана, в административно-территориальной системе Сасанидов называлась Адурбайганом. По развитию экономики территория Азербайджана была более развита, чем другие области Южного Кавказа. Наличие больших запасов различных полезных ископаемых, высокое ремесленное производство и большое количество городов делали территорию Азербайджана центром международных торговых путей и важным источником доходов государственной казны. Выгодное стратегическое, политическое и экономическое положение исторической территории Азербайджана в этом регионе являлись необходимым условием для Сасанидов чтобы утвердить свое господство на Южном Кавказе. Поэтому для утверждения своего господства на Южном Кавказе Сасанидам необходимо было подчинить историческую территорию Азербайджана, охватывающая Атропатену и Албанию.*

# SASANİLƏRİN HÖKMRANLIĞI DÖVRÜNDƏ AZƏRBAYCAN ƏRAZİSİ

**Elmira Məmmədova**

***Açar sözlər:*** *tarixi ərazi, inzibati-ərazi quruluşu, Adurbayqan, Zərdüştlük, Adurguşnasp məbədi havar, yepiskopluq*

*III-VII əsrlərdə Cənubi Qafqazın əhəmiyyətli hissəsini təşkil edən Azərbaycanın tarixi ərazisi Sasani imperiyasının dövlət quruluşunun bir hissəsi idi. Azərbaycanın tarixi ərazisini təşkil edən Albaniya və Atropatenanın ərazisi*

*Sasanilərin inzibati-ərazi sistemində Adurbayqan vahid ad ilə adlandırıldı. İqtisadi inkişaf baxımından Azərbaycan ərazisi Cənubi Qafqazın digər bölgələri ilə müqayisədə daha inkişaf etmişdi. Müxtəlif faydalı qazıntıların böyük ehtiyatlarının olması, yüksək sənətkarlıq istehsalı və çoxlu sayda şəhərlərin olması Azərbaycan ərazisini beynəlxalq ticarət yollarının mərkəzinə və dövlət xəzinəsinin mühüm gəlir mənbəyinə çevirmişdir. Azərbaycanın tarixi ərazisinin bu bölgədəki əlverişli strateji, siyasi və iqtisadi mövqeyi Sasanilərin Cənubi Qafqazda öz hökmranlıqlarını təmin etmək üçün zəruri şərt idi. Odur ki, Sasanilər Cənubi Qafqazda öz hökmranlıqlarını qurmaq üçün Atropatena və Albaniyanı əhatə edən tarixi Azərbaycan ərazisini özünə tabe etməli idilər.*

## THE TERRITORY OF AZERBAIJAN DURING THE PERIOD OF SASSANID DOMINATION

**Elmira Mammadova**

**Keywords:** *historical territory, administrative-territorial system, Adurbaigan, Zoroastrianism, Adurgushnasp temple, gavar, bishopric*

*The historical territory of Azerbaijan, which occupied a significant part of the South Caucasus from the 3rd to the 7th centuries, was part of the state system of the Sasanian Empire. The territory of Albania and Atropatene, constituting the historical territory of Azerbaijan, was called Adurbaigan in the administrative-territorial system of the Sassanids. In terms of economic development, the territory of Azerbaijan was more developed than other regions of the South Caucasus. The presence of large reserves of various minerals, high handicraft production and a large number of cities made the territory of Azerbaijan the center of international trade routes and an important source of income for the state treasury. The favorable strategic, political and economic position of the historical territory of Azerbaijan in this region was a necessary condition for the Sassanids to assert their dominance in the South Caucasus. Therefore, in order to establish their dominance in the South Caucasus, the Sassanids needed to subjugate the historical territory of Azerbaijan, covering Atropatena and Albania.*






Фрагмент пехлевийской надписи на Дербентской стене, свидетельствующей, что в VI веке Албания и Адорбайган входили в Западный административно-территориальный куст Сасанидской империи, именуемым Адорбадаган.

Сасанидская империя образовалась в III веке нашей эры. Основателем этого государства был представитель династии из персидского рода Сасана Ардешир Бабакан [8]. В 224 году Ардешир Бабакан, возглавив персидскую армию, разгромил армию парфян в битве у озера Сузиан. Захватив столицу Парфянского царства город Ктесифон положил конец правлению парфянской династии Аршакидов. В 226 году Ардешир Бабакан короновался на трон и стал основателем нового государства под именем Ардешир I с титулом шахиншах. Парфянское

царство Аршакидов перестало существовать и на ее территории возникло новое государство – Сасанидская империя. С падением Парфянской империи и возникновением Сасанидского государства борьба за гегемонию в Передней Азии и Южном Кавказе сменяется римско-сасанидским соперничеством. Новому государству предстояло очень скоро стать одной из «мировых держав» и включиться в борьбу за новые земли. В III-IV веках в основной период усиления и территориального роста молодого государства. складываются и укрепляются гражданские и экономические институты, создаётся сложная и централизованная система административного управления, организуется государственная религия и её клир. Историческая территория Азербайджана, занимавшая значительную часть Южного Кавказа, в то же время обладала выгодным стратегическим, политическим и экономическим положением в этом регионе [1, с18-19].

По развитию экономики территория Азербайджана была более развита, чем другие территории Южного Кавказа. Наличие больших запасов различных полезных ископаемых, высокое ремесленное производство и большое количество городов делали территорию Азербайджана центром международных торговых путей. Поэтому для утверждения своего господства на Южном Кавказе Сасанидам необходимо было подчинить территорию Азербайджана, охватывающая территории Атропатены и Албании.

После Сузианского сражения в 224 году, когда парфянский из династии Аршакидов Артабаном V (*Ardavan*). потерпел поражение от Ардашира Бабакана из рода Сасана, Парфянское царство пало и территория Атропатены, находящаяся в вассальной зависимости от парфянских аршакидов с 20-х года I века до н.э., вновь обрела независимость. Тогда как территория Албании несмотря на римско-парфянское соперничество в каспийском регионе, вплоть до образования Сасанидского государства оставалась полностью независимой. Здесь со II века до н.э. правила династия Аранидов, которую ко времени образования Сасанидского государства в III веке сменила династия албанских Аршакидов. Одним из средств для усиления политического контроля над Албанией, можно считать стремление Сасанидов утвердить брачный союз албанской царской династии с царской династией Сасанидов.

Заявив о себе как о наследнице Мидии и Ахеменидов, сасанидская династия объявила зороастризм официальной религией. Территория Атропатены, которая в составе древних империй играла роль религиозно-политического центра, стала первым и важным объектом подчинения Сасанидами. В 227 году Атропатена была включена в состав государства Сасанидов и стала одной из важнейших областей новой империи. Для

Сасанидов подчинение Атропатены - священного центра зороастризма на Востоке означало окончательное утверждение власти сасанидской династии на обширной территории, где зороастризм являлся официальной религией. Включив в состав Сасанидского государства территорию Атропатены, Сасаниды окончательно ликвидировали сохранившуюся при Аршакидах номинальную царскую власть и превратили ее территорию в религиозно-идеологический центр. Главный Зороастрийский Храм Адургушнасп в городе Газаке, где короновались мидийские и ахеменидские цари, при Сасанидах был избран для коронации на трон сасанидских властителей, а Верховные жрецы - маги священного Храма были объявлены вторым лицом после сасанидских правителей - шахиншахов.

Священная книга зороастрийцев «Авеста», сгоревшая в огне пожара дворца ахеменидских царей при взятии столицы ахеменидов Персеполя Александром Македонским, была собрана частями и переведена сасанидами на пехлевийский язык с написанными к ней комментариями. Перевод и комментарии назывались «Зенд Авеста».

Важным объектом римско-сасанидского соперничества в борьбе за господство на Южном Кавказе была Албания, в силу своего географически стратегического положения, множества плодородных областей, обилия скотоводческих районов, сказочно богатых торговых городов, известных ветвей транзитных международных торговых путей постоянно находящаяся в центре политических, экономических, культурных, религиозных процессов мировой цивилизации. На севере ее границы проходили по горным хребтам Большого Кавказского хребта, включая Южный Дагестан, на юге границы Албании охватывали междуречье рек Куры и Араза, вплоть до устья реки Куры, впадающей в Каспийское море, на востоке ее границы омывали берега Каспийского моря, на западе она граничала с Иберией. Ее судоходные реки Кура и Араз еще с античности являлись импульсом для морской торговли. С античности по реке Окс (Аму Дарья) через Каспийское море (Гирканское) по реке Куре индийские товары попадая в Черное море являлись важным источником дохода.

Являясь постоянным объектом территориальных претензий своих близких и дальних соседей, Албания к периоду образования Сасанидского государства сохраняла свою независимость. В Ш веке н.э., когда шла упорная борьба за первенство в Передней Азии между Римом и Сасанидами, представитель династии албанских Аршакидов Вачаган 1 Смелый сумел положить конец своеволию правителей албанских областей и, объединив области Албании, создал централизованное государство. Его наследник Ваче I (255-262) с целью сохранить независимость Албании сблизился с Римом. Однако, римская ориентация Ваче I не смогла предотвратить оккупацию Албании Сасанидами. В 260 году сасанидский

шахиншах Шапур I победил римского императора Валериана и взял его в плен. По римско-сасанидской договоренности 262 года Южный Кавказ остался в сфере влияния Сасанидов. Об этой победе сасанидского шахиншаха Шапура I свидетельствует надпись на стене храма в Нагши Рустам, сделанная по его велению. Таким образом, в 262 году Албания попала в зависимость от Сасанидов, но в отличие от Атропатены Албания в составе Сасанидской империи сумела сохранить внутреннюю самостоятельность. В период господства Сасанидов Албанией управляла династия албанских Аршакидов, связанная с ней брачными узами. Американский албановед Р.Хьюсен, исходя из сведений античных и раннесредневековых авторов, считает, что территория Албании в античный период не была идентичной с ее раннесредневековым периодом. Согласно античным источникам, в античный период территория Албании охватывала около 23 тыс кв км, тогда как по раннесредневековым источникам она превышала 72 тыс кв км [7, p. 143].

То есть была достаточно обширной. Такую разницу можно объяснить тем, что в античный период на исторической территории Албании среди многочисленных племен продолжался процесс этнической идентификации, связанный с слиянием и размежеванием. Поэтому многие племена и их территории оказались вне поля внимания античных авторов.

В III-VII веках территория Албании распространялось от северной части Большого Кавказа до нижнего течения и слияния рек Араза и Куры, включая сюда Мугань и Мильскую степь, провинции Пайтакаран, Ути, Арсак, области Гардман, Шакашена, Чола, Лпина и др. На этой обширной территории в раннее средневековье проживали племена, полностью и окончательно именовавшиеся собирательным этническим именем албаны, имевшие единый гаргарейско-кыпчакский язык межобщения, единую письменность, основанную на гаргарейском языке, самобытную культуру, выраженную в общих обрядах и традициях.

Однако в плане общей религии эта обширная албанская территория все еще была расщеплена на язычников, поклонников каменным статуям - идолам, небесным силам – Танры, зороастрийцев и христиан. Реформы албанского правителя конца V- начала VI веков Вачагана III Благочестивого, направленные на укрепление позиций албанского христианской церкви, на борьбу с язычниками, идолопоклонниками, танрычеством, зороастризмом прямо противоречили сасанидской политике насаждения зороастризма, поэтому после смерти Вачагана III сасаниды вновь ликвидировали царскую власть, установив в Албании правление марзбанов-наместников.

В III-VII веках исторически сложившаяся административно-территориальная система Албании делилась на 12 нахангов (провинций) и

гаваров (округов): Чола, Шеки, Лпина, Камбисена, Хеджери, Кабалака, Пайтакаран - Каспиана, Ути, Арсак, Гирдыман, Сакасена, Сюник. В научной литературе эти административно-территориальные области условно делятся на две части, из которых 6 областей – Чола, Шеки, Лпина, Камбисена, Хеджери, Кабалака, располагались на левобережье реки Куры, остальные 6 областей – Пайтакаран - Каспиана, Ути, Арсак, Гирдыман, Сакасена, Сюник на правобережье реки Куры [6, с.38].

Достаточно значимой и древней из областей была Чола, название которой в источниках встречается и как Чора,Джора или Чога. К примеру, античному автору Птолемею была известна как «Албанские ворота». Она составляла прикаспийскую полосу, начиная от Дербендского прохода к югу, до того места, где восточные отроги Главного Кавказского хребта вплотную подходят к Каспийскому морю - до реки Сумгаит. Население этой области было смешанным. Здесь обитали тюркоязычные и кавказоязычные этносы: албаны, хазары, гунны, маскуты, табасараны, леги, чилбы, шичбы. По источникам известны города Чола (Чора, Чога) , Цри и Дербент. Город Дербент основан сасанидами [6, с.38].

На северо–западе Албании в предгорной зоне Кавказа и северо-западной части Кабалы располагась, известная еще с античности албанская провинция-наханг Шаки [6, с.39]. Она граничала на западе и юго-западе с Камбисеной, северо-западе с Лпиной, юго-востоке – с Кабалой.Население области было смешанным. Вместе с тюркоязычными проживали и кавказоязычные племена – албаны, утии, скифы, саки, закены (тсеканы), хенуки (гениохи).

Одной из нахангов-провинций была область Лпина, расположенная к северо-западу между Чолой и Шеки [6, с.38]. Название области происходит от названия обитавшего здесь этноса лупенов. В античных греческих источниках дано как Лупен. Область занимала территорию от впадения реки Акстафачай в реку Куру, включая и нынешний Закатальский район до Андийского хребта, ухватывая также побережье среднего и нижнего течения реки Ганых (Алазань). В этой области обитали сами лупены, а также албаны, саки. Известным городом области был Хунаракерт, название которого связано с тюркскими племенами гуннов.

Одной из крупных областей страны была Сакасена-Камбечан [6, с.38]. Больше чем вероятно, что название связано с этнонимом «сак». По мнению большинства исследователей, этноним сак - это общее название тюркских племенных союзов в регионе Южного Кавказа, в том числе на территории Азербайджана. Действительно, начиная со времен Мидии в VI веке до н.э., топоним Сакасена в значении «жилое поселение саков» дано всему центральному ареалу расселения тюркских племен, так как северная

граница Мидийской империи проходила территории бывшего скифского царства севернее реки Араз. Обнаруженные в Гейче, Зангезуре, Карабахе, Борчалы, Шеки, Мингечевире, Гянджа-Газахе большого количества материально-культурных артефактов, относящихся к скифо-сакским племенным союзам, свидетельствует об их сильном военно-политическом влиянии в регионе. В античных источниках местность между реками Кура и Араз именуется как Сакасена. Греческий географ Страбон отмечает, что возникновение Сакасены связано с названием племенного союза сак. Римский историк Плиний Старший отмечал, что Сакасена занимала обширную территорию к югу от Куры. Греческий историк Арриан указывает на существование в I-II веках «страны Сак», отмечает, что она занимала большую территорию и локализует ее между реками Кура и Араз.

В пехлевийских текстах Сасанидов среди стран Южного Кавказа указаны страны Сакан и Баласакан. Топонимы Сакасена, Баласакан (Сакская равнина), Маскут (Массагет), которые упоминаются в древних письменных источниках, а нынешние названия города Шеки, Закатальского района, Сисаканского (Сисианского) района Зангезура и селения Шеки связаны именно с названием тюрков-саков. Одно из тюркских племенных союзов села Гёзельдерена территории Лори-Пембека было известно под названием «эрсаклылар». Здесь в северной части обитали хечматаки, ижмахи, глуары, гугары, егерсваны, гаты и др., а на юге, главным образом на равнинах, жили гунны, албаны. В этой области были такие известные города, как Кабала, Сирхарын и др.

Erməni keşişləri və tacirləri Qərbi Avropa səlibçilərinin və monqol hökmdarlarının timsalında özlərinə havadarlar axtarır, təbəəsi olduqları dövlətlərə qarşı düşmən güclərlə əməkdaşlığa can atırdılar. Türk tarixçisi Mehlika Kaşqarlı yazır ki, birinci xaç yürüşü zamanı (1096-1099) ermənilər İstanbuldan Qüdsə qədər bütün yol boyu xaçlıları lazım olan və olmayan hər şeylə təmin edir, qalaları təslim edir, türklərin arxasında təxribat və qətillər törətməklə xristian ordularının hərəkətlərini asanlalaşdırırdılar. Erməni keşikçisi

Nerses dindaşlarını xaçlı yürüşləri münasibətilə təbrik edir və onların Tanrı (Həzrəti İsa) tərəfindən göndərildiyini deyirdi [4, s.29-36]. Tanınmış erməni yazıçısı Yegişe Çarents nahaq deməyib ki,bizdə xəyanət ana bətnində olanda yaranır.

Kilikiyanın erməni hakimi II Levon (1187-1219) müsəlmanlara qarşı mübarizədə xaçlılara yardım edirdi və Qərbdən lazımi yardım almaq üçün hətta, katolik kilsəsinin himayəsinə daxil olmuşdur. Yalnız Avropadan lazımi yardım almadığı üçün Kilikiya erməni kilsəsi yenidən müstəqilləşdi [4, s.82-83].1253-cü ildə isə Kilikiya erməni çarı I Hetum Ali Monqol xaqanı Menku Qaanın (1251-1260) yanına gedib onunla Misir məmlüklərinə və islama qarşı mübarizədə ittifaq bağlayır.Qərbin dövlət başçıları da dəfələrlə Hülakü və Abaqa xanı xristianlığı qəbul etməyə və Misirə qarşı səlib yürüşündə iştirak etməyə dəvət edirdilər [2].

Malazgird qələbəsindən sonra böyük fəthlər nəticəsində Səlcuq dövlətinin torpaqları şərqdə Qaşqardan tutmuş, qərbdə Aralıq dənizinədək, şimalda Qafqaz dağlarından cənubda Yəmənədək böyük bir ərazini əhatə edirdi. Ayrı-ayrı əyalətlərdə öz müstəqilliyini qoruyub saxlamağa çalışan yerli hakimlər-canişinlər, o cümlədən əvvəllər müstəqil olan sülalələrin xəlifləri, həmçinin Azərbaycandakı Rəvvadilər, Şəddadilər, Şirvanşahlar dövlətləri Böyük Səlcuqların vassalına çevrildilər.

Böyük Səlcuq dövləti (1038-1157) möhkəm deyildi, işğallar yolu ilə yaradılmış hərbi-siyasi qurum idi. Siyasi hakimiyyətin daxilində çəkişmələr, feodalizm quruluşunun mahiyyətindən doğan qüsurlar onu zəiflədirdi. Səlcuq sultanları - Alp Arslan (1063-1072) və Məlikşah (1072-1092) dövləti möhkəmləndirsələr də, sonuncunun ölümündən sonra dövlət daha da zəiflədi. Sonrakı sultanların hakimiyyət dövrü Səlcuq dövlətinin çökməsi, müstəqil sultanlıqlara parçalanması dövrü (1092-1157) oldu. Bu parçalanmanın nəticəsi olaraq Suriya Səlcuqiləri (1078-1117), Kirman Səlcuqiləri (1041-1187) və Anadolu Səlcuqiləri (1077-1307) dövlətləri yarandı.Anadolu Səlcuqiləri dövləti nisbətən güclü idi. Pataxtı İznik olan bu dövləti Süleyman şah yaratmışdır.Yeni yaranmış bu dövlətlər Böyük Sultanın mərkəzi hakimiyyətindən asılı olmayaraq davranmağa başlamışlar.Onların arasında imperiyanın əsas hissələri olan İraq, Xorasan və Cənubi Qafqaz uğrunda ali sultanın taxtı uğrunda mübarizə gedirdi [1, s.15]. Azərbaycan ərazisi İraq Səlcuq sultanlığına daxil idi. Lakin sultanlıqlar özləri də məlum olduğu kimi atabəyliklər adlanan daha xırda dövlətlərə parçalanmışdır. XII əsrdə Orta Şərqdə bir neçə belə feodal dövlətlər mövcud idi. Azərbaycan Atabəyləri (Eldənizlər), Fars Atabəyləri(Salqurilər), Kirman Atabəyləri (Qutluq xanlar), Luristan Atabəyləri (Xəzərspilər), Mosul Atabəyləri (Zəngilər 1127-1159) və s. İraq sultanı Mahmud (1117-1131) I İmaməddin Zəngini öz kiçik oğlanları Alp Arslan və Fərrux şahın atabəyi və

Mosulun canişini təyin etmişdir.Şəmsəddin Eldəniz Fars hakimi Zəngi ibn Mədudu (1162-1175)İraq sultanına tabe etdi [2, s.48-49].

XII əsrdə Rum Səlcuqları, Xarəzmşahlar, Buveyhilər və başqaları da qüvvətlənib müstəqil dövlətə çevrildilər. Böyük Səlcuq imperiyası daxilində və digər müsəlman dövlətləri arasında möhkəm birliyin olmaması xaçlıların ilk yürüşlərinin müsəlman xalqlarına dəhşətli fəlakətlər gətirməsinə səbəb oldu. Bu, elə bir dövrə təsadüf edirdi ki, qüdrətli Bizansı baş əydirən, Anadolunu özünə yurd edən türklər Qərb dünyasını qorxutmuşdu. Xristian kilsəsi türklərin Avropaya soxulacağından, islam dinini Qərbdə də yayacağından narahatlıq duyurdu. Bir yandan da müqəddəs şəhər Qüdsü(Yerusəlim) müsəlmanlardan almağa, İsa peyğəmbərin məzarını "kafir" müsəlmanların əlindən qurtarmağa çalışırdılar. Əslində bu məsələ xristianların dini duyğularını coşduraraq, onları müsəlman ölkələrinin işğalına cəlb etmək idi. Roma papasının təşkil etdiyi, Avropa krallarının başçılıq etdiyi xaç yürüşlərinin əsas məqsədi Şərq ölkələrinin (Fələstin, Suriya və s.) münbit torpaqlarını ələ keçirmək, zəngin şəhərlərini qarət etmək,müsəlmanları məhv etmək və ya xristianlaşdırmaq idi.1095-ci ildə papa II Urban Fransada Klermon şəhərində bir konfrans keçirərək xristianları Qüdsü qurtarmaq üçün yürüşə çağırdı. Fransada toplanan xaçlılara (səlibçilərə) Almaniyadan, Macarıstandan, Balkanlardan da qoşuldular. Müxtəlif sosial ünsürlərdən toplanmış bu kütlə iki keşişin başçılığı ilə Konstantinopola (Bizans), oradan da, Kiçik Asiyaya (Anadolu) daxil oldu.Şərqəki müsəlman xalqları xaçlıların dəhşətli hücümü, kütləvi şəkildə məhv olmaq və əsarət altına düşmək təhlükəsi ilə üz-üzə qaldılar.Xaçlıların ilk dəstələrini İzmit dolaylarında Anadolu Səlcuq hökmdarı Süleyman şahın qardaşı qarşıladı və onları məhv etdi.Lakin az keçməmiş xaçlıların yeni daha mütəşşəkkil, döyüşkən, sayı yüz minləri aşan dəstələri Anadoluya soxuldu. Süleymanın varisi Qılıc Arslan onların qarşısını ala bilmədi, düşmən İzniki tutdu(1097).Qılıc Arslan çoxsaylı düşmən ordusuna ciddi müqavimət göstərərək türk əhalisini təhlükəsiz yerlərə köçürürdü.O,Şərqə yönəlmiş düşmən qüvvələrin bir qolunu Ereqli,digər bir qolunu Amasiya yaxınlığında darmadağın etdi [7, s.92].

20 oktyabr 1097-ci ildə xaçlı orduları Səlcuqluların əlində olan Kiçik Asiyadakı Antakyanı mühasirə etməyə başladılar. Ancaq Səlcuqlu ordularının və Mosul əmiri Gur Boğanın komandanlığı altındakı türkmən bəyləri və hakimləri ilə yaxşı davranmaması və ləng hərəkət etməsi türk ordusunun parçalanmasına səbəb oldu. Xaçlılar Gür Boğaya elçi göndərib xristianlığı qəbul etməsini və xristian ölkələrini tərk etməsini istəmişdilər. Gur Boğa isə bu təklifi rədd etmişdi [3, s.186].

Gur Boğanın səhvi nəticəsində Antakya ələ keçdi və burada Antakya Krallığı (şahzadəliyi) adlı ilk xristian feodal dövləti quruldu.Xaçlılar Urfanı da ələ keçirdilər. Bundan sonra xaçlılar Qüdsə doğru hərəkət etdilər. 3 iyun 1099-

cu ildə Qüds yaxınlığındakı Rəmlə məntəqəsini ələ keçirdilər. Qüds isə bu zaman Fatimilər dövlətinə tabe idi. O, Fatimilərin valisi İftiharüdüddevlenin idarəçiliyi altında idi. 13 iyul 1099-cu ildə xaçlı qüvvələri Qüdsə hücuma keçdilər. İki günlük mühasirəyə Fatimilər davam gətirməyib iyulun 15-də şəhəri xaçlılara təslim etdillər [9, s.9].

Xaçlılar Həzrəti Ömərin “Heç bir xristianı öldürməyin” tövsiyəsinə qarşılıq olaraq, hətta xristian dini inanclarına görə dinc, günahsız adamları öldürməmək prinsipinə zidd olaraq müdafiəsiz qalmış 40 min müsəlmanı - kişi, qadın və uşaqları qılıncdan keçirdilər [3, s.186]. Səlibçilər (xaçlılar) sadəcə, müsəlmanlara deyil, Qüdsdəki xristian və yəhudi camaatına da zülm etdilər. Evlərə girib, onların qadınlarına və qızlarına təcavüz edərək öldürdülər.

Beləliklə, Qüdsdə Latın dövlətinin - səlibçilərin ilk krallığı qurulmuş oldu. Hakimiyyətə gətirilən Qodefroi kral titulunu götürməyərək Həzrəti İsanın hamisi sifəti ilə krallığın naibi olaraq fəaliyyətə başladı [9, s.9]. Beləliklə, səlcuqluların müqavimət göstərmədiyi ikinci səlib ordusu Urfa, Antakya və Qüdsdə üç xaçlı dövləti yaratdılar [3, s.186]. R.Özdək Şərqdə yaranan xaçlı dövlətlər haqqında yazır ki,birinci xaçlı səfərləri zamanı əldə etdikləri bu uğur ilə avropalılar bəzi türk islam ölkələrində kiçik Frank dövlətləri qurmağa nail oldular:Urfa qraflığı (1098-1114), Antakya knyazlığı (1098-1268), Trablis qraflığı (1109-1289) və Qüds krallığı (1100-1268) [7, s.92].

İlk yürüş nəticəsində xaçlılar Orta Şərqdə üç dövlət qurduqdan sonra islam dünyasına qarşı hücumlarını arasıkəsilmədən genişləndirməkdə davam etdilər. Çünki islam aləminin maddi gücü və qüdrətinə yiyələnən səlcuqlular Böyük sultan Məlikşahın ölümündən sonra (1092) taxt-tac uğrunda mübarizəyə girişmişdilər. Səlcuq imperiyasının hər bir bölgəsi taxt iddiasında olan şahzadələrin idarəçiliyi altında idi. Buna baxmayaraq Səlcuq əhalisində “kafir xaçlılarla mübarizə əzmi” zəifləmədi.

Tarixi ədəbiyyatda göstərilir ki, səlcuqlular-Anadolu Səlcuqlu dövləti və Artuklu Bəyliyi xaçlı dövlətləri:Antakya şahzadəiliyi və Urfa kontluğunu Harran savaşında (7may 1104-cü il indiki Türkiyə ərazisi) darmadağın etdilər. Urfanı qoruyan səlib ordusunun komandanları Bandouin ilə Joselin (Yoslen) əsir düşdü, qaynaqların ifadəsinə görə 12 min xaçlı öldürüldü [3, s.186].

Səlcuq sultanlarının (Məhəmməd Təpər, Börgüyarıq) buyuruğuyla xaçlılara qarşı düzənlənən səfərlərə türklərdən təşkil edilmiş qüvvələr də qoşuldu. Bu mənada xaçlılara ilk ağır və kəskin zərbəni Böyük Səlcuq dövlətinə tabe olan İraq və Suriya Türk Atabəylər dövlətinin güclü hökmdarı İmadəddin Zəngi endirmiş oldu. 1144-cü ildə Zəngi arasında türkmən hərbi qüvvələrinin də yer aldığı ordusuyla Urfa üzərinə sürətlə yürüş etdi, şəhəri mühasirəyə aldı və onu fəth etdi. Urfa Xaçlı krallığını aradan qaldırdı [9, s.9].

XII əsrin ikinci yarısında Misirdəki fatimilər xaçlılarla sünni türklərə qarşı ittifaq yaratdılar. Ancaq Mosul atabəyi Nurəddin Mahmud Zəngi 1164-cü ildə Qüds Kralı III Bohemondu da məğlub etdi. Bundan sonra Mahmud sərkərdələrindən Şirkuh və Səlahəddin Əyyubi qardaşlarını Fatimilər üzərinə göndərdi. Bu sərkərdələr Fatimiləri məğlub etdilər və Səlahəddin Əyyubi Mahmudun təmsilçisi kimi Misirdə hakimiyyəti ələ aldı (1171-ci il). Nurəddin Mahmud 1174-cü ildə öldükdə, Şam və Hələb atabəylikləri də Əyyubi sülaləsinin əlinə keçdi.Mosulun idarəsi Seyfəddin Qazinin qardaşı Mövluda, Sincarın idarəsi II Zəngiyə verildi. [7, s. 147].

1171-ci ildə Fatimilər dövlətində hərbi rəis Səlahəddin Əyyubi çevriliş etdi, hakimiyyəti ələ keçirdi, özünü sultan elan etdi. Əyyubilər sülaləsinin (1171-1250) hakimiyyəti başlandı. Səlahəddin Əyyubi mənşəcə müxtəlif xalqlara aid edilir. Lakin onun Azərbaycan türkü olduğunu təsdiq edən mənbələr vardır.

Azərbaycan Respublikasının sabiq prezidenti, mərhum Əbülfəz Elçibəy yazır ki, “Bir gün Qahirə Universitetində Tarix fakültəsinin bir tələbəsi ilə tanış oldum. Tələbə hansı ölkədənsiniz soruşdu. “Azərbaycandanam”,-dedim. Tələbə mənə “Siz Səlahəddin Əyyubinin vətənindənsiniz?”,- dedi. Mən ona “haradan bilirsiniz?” sualını verdim.“Səhər mən sizə mənbə gətirərəm”,- dedi və gətirdi. Mənbənin üzərində Səlahəddinin cəngavər geyimində rəsmi var idi. Mənbə görkəmli şəxslər haqqında ensiklopedik əsər idi. Əsərdə avropada Səlahəddin adı ilə tanınan, yanlız Qüdsdə deyil, bütün Fələstin və Suriyada xaçlıları darmadağın edib bu yerləri onlardan təmizləyən, bütün avropanın qürur duyduğu İngiltərə kralı Riçard(1157-1199) Akka qalasında diz çökdürərək əsir alan, “bütün Avropanın” qəzəbinə gəlmiş və hətta A. Dantenin “İlahi komediyası” əsərində cəhənnəmdə təsvir edilən sərkərdə və hökmdar Sultan Səlahəddin (1138-1193) haqqında məlumatlar var idi. Əsərdə mənim üçün ən maraqlı yer bu idi ki, Səlahəddindən soruşmuşlar: Deyirlər ki, siz kürdsünüz. Bu doğrudurmu? Sultan: - Xeyir! Biz Azərbaycandanıq: Əmim Şirkuh deyirdi ki, biz Ez-zib tayfasındanıq”[13].

Elçibəy yazır ki, görkəmli alim İbn Hellikanın “Görkəmli adamların ölüm tarixi (revayat əl-ayan) əsərində yazır ki, Şirkuh demişdir ki, bizim nəslimiz Göy Börüdur (boz qurd,göy qurd). Səlahəddinin atası Eyyub Urmiya, Xoy, Zəngəzur, İrəvan, Naxçıvan, Göyçə, Kərkükdə yayılmış Göy börü, Qara börü, Boz börü - bir sözlə, Qurdlar tayfasındandır. Məsələ bundadır ki, orta əsrlərdə qurd sözü ərəb əlifbası ilə yazılışından doğan qarşılıqdan qurd sözü kürd sözü kimi yazılmışdır. Böyük Nizami Gəncəvinin “mənim qurd tinətli anam” yazdığı misrasında qurd sözü kürd kimi ifadə edilmişdir. Nəticədə cümlə mənasını dəyişmişdir [12].

Səlahəddin Əyyubi xaçlılarla müvəffəqiyyətlə mübarizə apardı. Bütün Fələstini, o cümlədən 1187-ci ildə Yerusəlimi (Qüdsi) xaçlılardan geri aldı,

Suriyanın böyük bir hissəsinə yiyələndi. Xaçlıların Misirə soxulmaq cəhdini dəf etdi.

Rəfik Özdək yazır:"Səlahəddin Əyyubi Misirdə öz adı ilə tanınacaq sünni dövlətini qurdu. Qısa zamanda bu dövləti gücləndirdi. 5 iyul 1187-ci ildə məhşur Xittin səfəri ilə xaçlıları böyük məğlubiyyətə uğratdı və Qüdsdən çıxartdı. Bu qələbədən sonra dövlətin sərhədlərini Yəməndən Əl-Cəzirəyə qədər genişləndirdi. Bölgədə sünniliyi yaydı. Səlahəddinin yaratdığı dövlətdə xalqın əksəriyyətini türklər təşkil edirdi. Ordu türklərdən ibarət idi və rəsmi dil türk dili idi [7, s.146].

Mosul-Hələb (Suriya) atabəyliyini İraq Səlcuqlu hökmdarı Mahmud tərəfindən Mosul valisi təyin edilən İmadəddin Zəngi qurdu. İmadəddin Zənginin atası Ağsunqur da Məliksahın Mosul valisi idi. Xaçlılardan qoruduğu Hələbi özünə tabe etdi və Ağdənizə (Aralıq) qədər uzanan geniş bir bölgənin hakimi oldu. Antakya xaçlı knyazını, Qüds Kralı Folk ilə Trablis qrafı II Paymondu məğlub etdi. Daha sonra Urfanı zəbt edərək Frank qraflığını aradan qaldırdı. Onun bu qələbələri avropalıların ikinci xaçlı səfərini(1147-1149) başlamalarına səbəb oldu [7, s.147].

Zənginin Nurəddin Mahmud adlı oğlu Hələbdə, I Seyfəddin Qazi isə Mosulda otururdu. 1146-cı ildə İmadəddin Zəngi öldü, atabəylik iki qardaş arasında bölündü.1147-ci ildə Antakya xaçlı knyazı Raymondu məğlub edən Nurəddin Mahmud Şam Atabəyliyini də özünə tabe etdi(1154).

Səlahəddin Əyyubinin xaçlıları Qüdsdən çıxarması III xaçlı yürüşünün başlanmasına səbəb oldu. Bu səfərə Almaniya imperatoru Fridrix Barbarossa, Fransa kralı Filipp Avqust və İngiltərə kralı "Şir ürəkli Riçard" başçılıq edirdilər. Onlar strateji əhəmiyyətə malik Akkanı mühasirəyə aldılar (1189-cu il). Quruda və dənizdə şiddətli döyüşlər gedirdi. Xaçlılar sayca üstün olsa da, qələbə çala bilmədilər, Qüdsü ala bilmədilər. Yanlız Riçard Anadoluda Kayserini ələ keçirmişdi. On minlərlə xaçlı məhv olduqdan sonra onlar barışmaq məcburiyyətində qaldılar. Səlahəddin onlara Qüdsü silahsız ziyarət etməyə icazə verdi.

Müsəlman, türk dünyasının xilaskarı olan Səlahəddin 1193-cü ildə oldü. Türbəsi Şamdadır, müsəlmanların məhşur ziyarət yerlərindədir. O, tarixdə səxavətli, mərd insan, bacarıqlı, cəsur sərkərdə, hökmdar kimi qaldı. Qərbin ən böyük hökmdarları ona hörmət bəsləyiridlər.Əyyubilər dövlətinin zərbə qüvvəsini Şimali Qafqazdan kölə və könüllü kimi gətirilmiş qıpçaq türkləri təşkil edirdi, ikinci qüvvə isə çərkəzlər idi. Əyyubilərin son hokmdarı Turanşah öldükdən sonra onun dul qadını qıpçaq türkü olan baş sərkərdə İzəddin Aybəklə evləndi. Aybək yaratdığı dövləti"Əd-dövlətit-Türkiyə", yəni Türkiyə dövləti adlandırdı. O, yeddi il (1250-1257) sultanlıq etdi və xaçlıları məşhur Mənsuriyyə döyüşündə məğlub etdi. Misirə yönəlmiş yeddinci xac yürüşünü zərərsizləşdirdi. Aybəkin varislərindən Seyfəddin Kutuz Misirə soxulan

monqol-erməni xaçlı ittifaq ordusunu 1260-cı ilin sentyabrında Ayn-Calud döyüşündə ağır məğlubiyyətə uğratdı.Ondan sonra qıpçaq türkü I Baybars (1260-1277) hökmdar oldu.O, franklara, ermənilərə, monqollara qalib gəldi.Yaxın Şərqdən xaçlıları tamam qovdu.Onun ölümündən sonra dövlətin ərazisi müxtəlif hissələrə parçalandı, onların bəzi əraziləri Hülakilərin (Elxanilər) işğalı altına düşdü.

Beləliklə, Səlcuqi əmirlərindən Mosul hakimi İmadəddin Zəngi ibn Sonqur (Sunqur) ilə başlanan (1127) Zəngi soyunun hökmranlığı Mahmudun ölümü ilə bitdi. Zəngi soyu Mosuldan başqa Hələb və Dəməşqdə (Şamda) də hakimiyyətdə idi. Bu isə onu göstərir ki, Ak-Sonqurun oğlu Zənginin mənsub olduğu Zəngi soyu əhali arasında möhkəm dayağı olan tirələrdən imiş [11].

Deməli, bəhs olunan dövrdə Azərbaycan kökənli,türk mənşəli Zəngilər sülaləsi və onların siyasi varisi Səlahəddin Əyyubi Yaxın və orta Şərqin xaçlılardan qorunmasında müstəsna xidmət göstərmişdir.Adları qədim assur mənbələrində "sanqi" şəklində qeyd edilmiş zəngilər Araz çayının aşağı axarı, Urmiya gölünün quzey sahillərində yaşamış, həmin mənbələrdə onların yaşadığı ərazi sanqibut ölkəsi (sanqi-tayfanın adı; but, bud isə türkcə - boy, tayfa kimi izah edilir). Həmin bölgədə, Maku şəhərinin güneyində axan Zəngimar çayının adı sanqi(zəngi) boyunun nişanəsidir. Assur mənbələri Urmiya gölünün aşağılarında da zəngilərin yaşadığı haqqında məlumat verir. Buradakı Zəngi ölkəsinin adına Bit-Sanqi və Bit-Sanqibut şəklində rast gəlinir. Bəzi tədqiqatçıların mülahizəsinə görə, Sanqi tayfanın adı, bit sözü isə Assur dilində ev, yurd anlamında işlənir, yəni Assur dilindəki Sanqibit-"sanqi boyu"nun yurdu mənasında işlənilir. E.ə VIII əsrdə assurların Suriyaya deportasiya etdikləri boylar arasında sanqilli (zəngili) tayfasının olması e.ə.738-ci ilə aid Tiqlatpalasarın salnamələrində də qeyd olunur.

Zəngilərin böyük hissəsi əsasən Qərbi Azərbaycanda İrəvan mahalında yaşamışlar. Zəngəzur bölgəsinin adının ortaya çıxmasına səbəb olan Zəngi çayı da vaxtı ilə öz adını bu çayın sahilində yaşamış Zəngi boyundan almışdır. Zəngilər təkcə Ağrı (Ararat) vadisində deyil, həm də Zəngi (Zəngəzur) bölgəsində yaşamışlar. Sonralar zəngi tayfası daha geniş əraziyə yayılmış, hətta Türküstan çöllərinə qədər köç etmişlər. Qırğız əfsanələrində ilxını qoruyan hamini Kambar-Ata,qaramalın hamisi isə Zəngi-Ata adlandırılırmış [11]. Hal-hazırda zəngi tayfasının adı toponimlərdə qalmışdır: Zəngi çayı, Zəngibasar, Zəngəzur, Zəngilan, Zəncan və s.

Yeri gəlmişkən, bu gün də müsəlmanlara qarşı yönələn səlib yürüşləri siyasi, ideoloji, hərbi və digər formalarda həyata keçrilir. Qarabağın 30 ilə yaxın işğal altında qalması, Suriyada, Fələstində və digər müsəlman ölkələrində tökülən qanlar, islamafobiya, türkəfobiya onun təzahürləridir. 44 günlük müharibədə erməni əsgərlərinin geyimindəki və hərbi texnikası üzərindəki xaç işarələri, erməni keşişlərinin müharibədə iştirakı bunun parlaq nümunəsidir. Bu

yaxınlarda keçrilən Paris olimpiadasında xristian avropalılar ingilislərə və yaponlara iltifat göstərdikləri halda, Azərbaycan idmançısı, Olimpiya çempionu Hidayət Heydərov və Qazaxıstan idmançısına müsəlman və türk olduqları üçün milli bayraqlarını qaldırmağa icazə verilmədi.

## Ədəbiyyat


1. Bünyadov Z.M Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər), Bakı: Elm; 1984. 312 s.
2. Bünyadov Z.M. Yusifov Y.B. Azərbaycan tarixi. Bakı: 1994. 339 s.
3. Ələkbər N. Nəcəf. Səlcuqlu dövlətləri və Atabəylərin tarixi (Oğuzların ortaya çıxmasından -XIV əsrə qədər). Bakı: Qanun;2010. 756 s.
4. Kaşkarlı M. Haçlı seferleri ve ermeniler (Türk-ermeni ilişkileri 21. Yüz yıla girerken tarihe dostca bakış). Ankara: AAM; 2000. 315 s.
5. Koçbaş S. Ermeni meselesi nedir, ne degildir? Veteran yayınları İstanbul-1988.186 s.
6. Mustafazadə T. ``Erməni məsələsi``ndən erməni terrorizminə. Bakı: Turxan NRB; -2016. 140 s.
7. Özdək. R. Türkün Qızıl kitabı. Basın yazıçısı, 1993. 424 s.
8. Süslü A. Kırğızoğlu F. Kınanc R. Kallaç Y. Türk tarihinde ermeniler (temel kitap). Levent ofset matbaaçılık ve yayınçılık LTD.ŞA, Ankara,1995. 344 s.
9. Yücel Y. Sevim A. Türkiye tarihi 9 s.
10. Борьяк Б.А. Армения, международная дипломатия и СССР, г1. М-Л; Госиздам,1928. 884 с.
11. https: //az.wikipedia/orq>wiki
12. https://www.teleqraf.az>tehlil39...
13. https://vvv.facebook.com >permal...

# ƏBÜLFƏZL MƏHƏMMƏD İBN HÜSEYN BEYHƏQİNİN "TARİXİ-BEYHƏQİ" ƏSƏRİ ƏSASINDA DÖVLƏT TƏŞKİLATI

**Nigar Həmidova**
Bakı Dövlət Universiteti
**nigaribrahimova555@gmail.com**

**Açar sözler:** *Divan, vəzir, sahib divani-risalət, mustoufi, arız, müşrif*

*Məqalədə Qəznəli dövlətinin tarixçisi və dövlət xadimi olan Əbül Fəzl Beyhəqinin "Tarixi Beyhəqi" əsəri əsasında dövlət təşkilatı haqqında məlumat verilmişdir. Araşdırma zamanı tarixi obyektivlik, müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Divan təşkilatı, daha dəqiq desək, Divan-i Əlanın ("Böyük Divan"ın) ayrı-ayrı hissələri tədqiqatın əsasını təşkil etmişdir. Divan-i Əla müasir dillə baş nazirlik olan və bütün divanlardan yüksək olan vəzirlik divanı hökumətin maliyyə məsələlərinə cavabdeh olan divani-istifa, daxili və xarici yazışmaları idarə edən divani-risalət, xüsusilə, maliyyə idarələrini yoxlayan divani-işraf və hərbi divan olan divani-arızdan təşkil olunmuşdur. Məqalə dövrün ilkin qaynaqları, Vətən, Türk və Avropa tarixçilərinin əsərləri əsasında yazılmışdır.*

# ГОСУДАРСТВЕННАЯ ОРГАНИЗАЦИЯ НА ОСНОВЕ "ТАРИХ-И БАЙХАГИ" АБУ'Л-ФАЗЛА МУХАММЕДА ИБН ГУСЕЙНА БАЙХАГИ

***Нигяр Гамидова***

***Ключевые слова**: Диван, визир, сахиб дивани-рисалет, мустоуфи, арыз, мушриф*

*В статье рассматривается правительственная организация на основе книги Тарих- и Байхаги историка и секретаря Газневидов Абуль-Фазла Байхаги. В исслодовании использовались историческая объективность и сравнительный анализ. Организация Дивана, точнее части Диван- и Аля (Большого Дивана), являются основной частью нашего исслодования. Диван-и Аля состоит из Диван-и Везарета, который можно считать премьер- министром в современном смысле и является высшим из всех других диванов, Диван-и Истифа, который отвечает за финансовые вопросы правительства, Диван-и Рисалет который*

*отвечает за многие внутренние и внешние дела, Диван- и Ишрафа, который отвечает за проверку,особенно финансовых подразделений и Диван-и Арз, который занимается военными вопросами. Статья основана на ранних источниках и трудах Азербайджанских, Тюркских и Европейских историков.*

## STATE ORGANIZATION ON THE BASIS OF "TARIKH-I BAYHAQI" BY ABU'L-FAZL MUHAMMED IBN HUSEYN BAYHAQI

**Nigar Hamidova**

***Key words:*** *Divan, vizier, sahib divani-risalet, mustoufi, arz, mushrif*

*The article discusses a government organization based on the book "Tarikh-i Bayhaqi" by Abu'l-Fazl Bayhaqi, a historian and secretary of Ghaznavids. In the research was used historical objectivity and comparative analysis. Divan organization, more precisely the parts of Divan-ı A'la (Great Divan) is the main part of our research. Divan-ı A'la is composed of Divan-ı Vezaret which can be considered as the prime minister in modern sense and is the highest of all other divans, Divan-ı Istifa which is responsible for the government's financial issues, Divan-ı Risalet which is responsible for many internal and external affairs, Divan-ı İshraf which is responsible for inspection of especially financial units and Divan-ı Arz which takes care of military issues. The article was based on the early sources and works of Azerbaijan, Turkic and Eurapean historians.*

Məqalə Əbülfəzl Beyhəqinin "Tarixi Beyhəqi" adlı əsərində dövlət təşkilatının struktur bölmələri, dövlət təşkilatında çalışanlar, onların vəzifə və səlahiyyətləri haqqındadır. Mənbədə Qəznəli dövlətinin dövlət təşkilatı və saray təşkilatı haqqında ətraflı məlumat verilmişdir. Məqalədə əsasən, hökumət təşkilatı və onun hissələri tədqiq olunmuşdur. Beyhəqi tarixinin ətraflı şəkildə təhlil olunması sübut edir ki, Qəznəlilər Türk-Müsəlman dövlət təşkilatı sistemini müəyyən dəyişikliklərlə qoruyub saxlamışdılar. Çağdaş türk dövlətləri ilə Qəznəlilərin dövlət təşkilatı oxşar xüsusiyyətlərə sahib idi. Qəznəli dövlətinin dövlət təşkilatı daha sonra Səlcuqlu dövləti və digər türk dövlətlərinin dövlət təşkilatının əsasını təşkil etmişdir. Bu cəhətdən "Tarixi Beyhəqi"nin araşdırılması böyük və əhəmiyyətli məsələdir. Digər tərəfdən, Beyhəqi Qəznəli dövlət təşkilatında dəbir (katib) vəzifəsində çalışdığından mövzu ilə bağlı müfəssəl məlumat vermişdir. XI-XIII əsr mənbələrini təhlil edərkən aydın olur ki, mənbələrdə hadisələr demək olar ki, oxşarlıq təşkil edir. Bunun səbəbi, müəlliflərin bir-birinin əsərini mənbə olaraq istifadə etməsindən irəli gəlir.

Ravəndi öz əsərində ilkin mənbə olaraq Zahirəddin Nişapuridən istifadə etdiyini yazır [11, s. 20]. Eynilə, Sədrəddin əl-Hüseyninin əsərini də təhlil edərkən, dövrün digər mənbələri ilə bənzərlik olduğu görünür. XI əsrdə yazılmış "Tarixi-Beyhəqi" isə bu cəhətdən orijinallıq təşkil edir. Əbülfəzl Beyhəqi gördüyü və şahidi olduğu hadisələri qələmə almışdır. Bununla yanaşı, onun dəbir vəzifəsini icra etməsi mənbənin dəyərini daha da artırır. Çünki, tarixçi olmaqla yanaşı, dəbir olaraq divanda çalışan Beyhəqi Qəznəli sarayında və divanda cərəyan edən hadisələri yaxından müşahidə etmək imkanına sahib olmuşdur. Zənnimizcə, bu fakt həm Qəznəli dövlət təşkilatının, həm də Səlcuqlu dövlət təşkilatının öyrənilməsində əvəzsiz rol oynamışdır.

Tədqiqatda Beyhəqi ilə bərabər, Əl-Bundari İsfahaninin "Zübdət ün-nüsrə və nüxbət-ül-üsrə" [1], Zahirəddin Nişapurinin "Səlcuqnamə" [19], Məhəmməd b. Əli b. Süleyman ər-Ravəndinin "Rahət əs-südur və ayət əs-sürur" ("Könüllərin rahatı və sevinc əlaməti") [11], Nizamülmülk tərəfindən farsca yazılmış "Siyasətnamə" [4; 13] əsərlərindən istifadə olunmuşdur. Mənbələrlə yanaşı, tarixi məqalə və monoqrafiyalar də tədqiqata cəlb olunmuşdur. İ.H.Uzunçarşılı [18], Ə. Mərçil [10], M.A.Köymən [8], R.Turan [17], G.Nuhoğlu [14], K.Klausner [7] mövzunun ayrı-ayrı məsələlərini işıqlandırmışlar. Z.Bayramlı və B.Quliyev "Azərbaycan tarixinin farsdilli qaynaqları" adlı monoqrafiyalarında "Tarixi-Beyhəqi"nin bir hissəsini Azərbaycan dilinə tərcümə etmiş və tənqidi mətnini hazırlamışlar [2].

Əbülfəzl Beyhəqi Qəznəli dövlətinin tarixini başlanğıcdan təxmini h.421 (1030) - h.432 (1040-1041)-ci illərə qədər əhatə edən "Tarixi Beyhəqi" adlı qiymətli mənbənin müəllifidir. Əsər müəllifi Sultan Mahmudun dəbiri, Əbu Nəsr Mişkaninin naibi, Sultan Məsud, Sultan Məvdud və Sultan Fərruxzadın da katibi olmuşdur [2, s. 66]. Əbülfəzl Beyhəqinin katib vəzifəsində çalışması əsərin elmi-tarixi dəyərini artırmışdır. Belə ki, Beyhəqi təkcə dövrün siyasi-tarixi hadisələrini əks etdirməmiş, eyni zamanda dövlət təşkilatı, saray həyatı, mədəniyyət və ədəbiyyat haqqında da dolğun məlumat vermişdir. 30 cilddə yazılan "Tarixi Beyhəqi"nin V-X cildləri dövrümüzə qədər gəlib çatmışdır. Kitabın ilk dörd cildi Qəznəli xanədanının qurucusu Səbuktəkin (977-997) ilə Mahmud Qəznəvinin (998-1030) dövrünü əhatə etmişdir. Məqalədə istifadə etdiyimiz V-X cildlərdə Əbülfəzl Beyhəqi Sultan Mahmudun ölümündən (1030) Sultan Məsudun hakimiyyətinin sonuna, 1041-ci ilə qədər tarixi hadisələri qələmə almışdır. Əsərin XI-XXX cildlərində 1059-cu ilə qədər cərəyan edən hadisələr əks olunmuşdur. Tarixi ədəbiyyatlarda mənbə, bəzən "Tarixi Məsudi" deyə adlandırılmaqdadır. Şübhəsiz, bu mənbənin dövrümüzə qədər gəlib çatan əsas hissəsinin Sultan Məsudun hakimiyyəti dövrünü əhatə etməsi ilə əlaqədardır.

Əbül Fəzl Beyhəqinin uşaqlıq və gənclik illəri haqqında mənbələrdə çox məlumat verilməmişdir. "Tarixi Beyhəqi" də müəllif özü haqqında qısa

məlumat vermişdir. Beyhəqi çox kiçik yaşlarından ustadım deyə bəhs etdiyi Əbu Nəsr Mişkanın[1] dövründə divan-i risalətdə katib vəzifəsində çalışmışdır. Ustadının ölümündən sonra Sultan Məsud onu sahib divani-risalət vəzifəsinə təyin etmək istəsə də, yaşının az olduğunu əsas gətirərərək bu vəzifəyə Əbu Səhl Züzanı təyin etmişdir. Əbu Səhlin dövründə Beyhəqi onun naibi vəzifəsini icra etmişdir [5, s. 616]. Beyhəqi sahib divani-risalət vəzifəsinə Sultan Əbdürrəşid zamanında təyin olunmuşdur [14, s. 250].

"Tarixi Beyhəqi" sadə, səlis bir dillə yazılmışdır. Beyhəqinin özünün də qeyd etdiyi kimi, müəllifin əsas məqsədi qaliblərin və məğlubların tarixini yazmaq deyil, gördüyü və eşitdiyi hadisələri incə detallarına qədər qələmə almaqdır. Beyhəqinin "Mənim məqsədim Sultan Məsudun halını bu zamanın, bu əsrin adamlarına göstərmək deyildir. Çünki, onlar öz gözləri ilə onun böyüklüyünü, siyasət və rəyasətin hər qismindəki təkliyini gördülər, anladılar. Mənim məqsədim öz kitabımın dərəcəsini yüksəltmək və elə bir bina meydana gətirməkdir ki, onun zikri dünyanın sonuna qədər var olsun" fikri bunu təsdiqləyir [5, s. 82]. Beyhəqinin Samanlılar, Qaraxanlılar, Xarəzmşahlar, Sultan Məsudun Hindistana getməsinə qədər olan Qəznəli tarixi və Səlcuqluların ilk dövrləri haqqında verdiyi məlumatlar böyük tarixi əhəmiyyətə malikdir.

***Vəzarət divanın təşkili:*** İslam dövlətlərində olduğu kimi, Qəznəli dövlətində də mərkəzi təşkilat vəzirin başçılıq etdiyi bir neçə divanlardan təşkil olunmuşdur. Qəznəli dövlətində bu divan divani- vəzarət, divani-vəzir və divani-xacə adlanmaqdadır. Böyük Səlcuqlu imperatorluğu dövründə Divani-Əla ("Böyük Divan"), Divanül-vəzarə şəklində qeyd olunmuşdur. Böyük Divanın başçıları sultan tərəfindən vəzifəyə təyin olunurdular. Vəzirlər və digər divan üzvləri əksər hallarda təhsilli şəxslər arasından seçilirdi. Bəzi hallarda, onların vəzifəyə təyini atadan-oğula keçirdi, yəni burada ailə ənənəsi önəmli rol oynayırdı. Bu mövzuda ən böyük örnək təbii ki, Nizamülmülk ailəsidir. Karla Klausnerin fikrinə görə, vəzirlərin, xəzinədarların və qazıların ailələri bilinməyən ailələr deyillərdi və əgər vəzirlik məqamına gələnlər arasında bəlli bir ailənin birdən çox üzvü gözə çarpırsa, bunun səbəbi bu məmuriyyətin təyin olunmasında ailə adının önəminin gözlənilməsi idi [7, s. 82]. İzzülmülk ibn Nizamülmülkün vəzirliyə təyininin tək səbəbi, Nizamülmülklə olan quhumluğu idi. Bundari yazır ki, Nizamülmülkün oğlu İzzülmülk Əbu Abdullah əl-Hüseyni içkiyə mübtəla olub daim içər, doğru düşünməz, tədbirsiz, iqtidardan uzaq, aciz və tənbəl idi. Nizamülmülkün oğullarından birini iş başına gətirməklə dövlət işinin düzələcəyini zənn edərək, onu vəzir təyin etdilər [1, s. 84-85].

Sultanın fərmanı üzrə vəzifəyə təyin olunan vəzir onun vəkili olmaqla, dövlət təşkilatında bütün işləri idarə edən ən yüksək məmur idi. "Tarixi

[1] *Əbu Nəsr Mişkani Sultan Mahmud (998-1030), Sultan Məhəmməd (1030-1031) və Sultan Məsud (103101041) dövründə sahib divani-risalət vəzifəsində çalışmışdır.*

Beyhəqi"də vəzirin vəzifəyə təyini mərasimi ətraflı şəkildə əks olunmuşdur. "Möhtəşəm bir xalat hazırlayıb 9 aprel 1033-cü ildə Bazarertəsi günü Xacə Əhmədə geydirdilər. Bu xalata məxsus olan kəmər minlik (həzərgani) idi. Hacib Bilgə Təkin Xacənin qolundan tutaraq taxtın yanına gətirdi. Əmir, "Bu xalat, biz, Xacə, ordu və millət haqqında mübarək olsun!" – deyərək vəziri təbrik etdi. Xacə ayağa qalxaraq hörmətinini bildirdikdən sonra, beş min dinar dəyərində qızılları Əmirin önünə qoydu. Əmir də üzərində özünün adı yazılı olan firuzə bir üzüyü Xacənin əlinə verdikdən sonra, "Xacəyə verdiyim bu üzük səltənət üzüyüdür. O bizim xəlifəmizdir. Tam bir qəlb gücü və həvəsi ilə işləri əlinə almalıdır. Dövlət və məmləkətin mənfəətinə bağlı hər işdə bizim fərmanımızdan sonra onun fərmanı caridir." – buyurdu. Xacə də, "Qulunuz fərmana bağlıdır. Əmirin lütf və nemətlərinin haqqını tanıdığını göstərmək üçün qulluq etməkdə əlindən gəldiyi qədər çalışmağa məcburdur." – yeri öpdükdən sonra hüzurdan ayrıldı [5, s. 342-343]".

Sultandan sonra ən böyük vəzifə vəzirlik idi. Ona görə də vəzirlərin təyini ən çətin və məsuliyyətli iş hesab oluna bilərdi. Səlcuqlu vəziri Nizamülmülk "Siyasətnamə" əsərində vəzirlərin dövlət təşkilatında rolunu bu sözlərlə bəyan etmişdir: "Vəzirlərin də işini nəzarət altında saxlamaq lazımdır ki, vəzifələrini layiqincə yerinə yetirmədikləri aydın olsun. Şahın və ölkənin yaxşı-pisliyi onlara bağlıdır: vəzir xeyirxah, düz işləyən olsa, ölkə abad, xalq şad, asudə, yeməkləri bol, şahın isə ürəyi sakit olar; pis işləyən bədxasiyyət olsa, ölkədə təsəvvür edilməz pozğunluqlar əmələ gələr, şah isə həmişə sərgərdan, narahat, məmləkət isə təşviş içərisində olar [4, s. 36; 13, s. 20]". Dövlət təşkilatının düzgün və ədalətli idarə olunması birbaşa vəzirin fəaliyyətindən asılı idi.

Vəzirin sultandan sonra dövlət təşkilatında ikinci şəxs olması ona qarşı qısqanclığın yaranmasına səbəb olur, məmurlar onu sultanının gözündən salmaq üçün heç bir fürsəti qaçırmırdılar. Bu səbəbə görə Xacə Əhmədi Həsən Sultan Məsudun təklifini yaşlı olduğuna görə qəbul etmək istəməmiş, Sultan Mahmud zamanında vəzir olarkən başına gələnləri bir daha yaşamaq istəmədiyini bildirmişdir. Mənbədə yazılır: "Xacə Əhmədi Həsən vəzarətə dair ona təbliğ edilən xəbərlər haqqında Əbu Səhlə fikrini bildirmişdi: "Mən qocalmışam, artıq belə çətin vəzifənin öhdəsindən gələ bilmərəm. Əbu Səhli Həmdavi ağıllı və gözüaçıq adamdır. Onu arız (ordu başçısı), səni isə vəzir təyin etmək lazımdır. Mən də uzaqdan izləyib, lazım olanda sizə fikirlərimlə kömək edə bilərəm" – dedi [5, s. 132, 133]". Ancaq Xacə Sultanın təkidi qarşısında vəzarəti qəbul etməyə məcbur olmuşdur: "O halda mən də qəbul etdim. Fəqət bu vəzifəni icra edə bilmək üçün bəzi şərtlərim var. Əgər bu şərtlər yerinə yetirilməsə, bütün məmurlar mənim əleyhimə hərəkət edərlər, mənə düşmən olarlar. Mərhum sultan zamanında (Qəznəli Sultan Mahmud nəzərdə tutulur – N.H.) olduğu kimi hiylələr, oyunlar düşünərlər, mən də böyük

bəlaya düşərəm. Bu gün bir düşmənim yoxdur, könül rahatlığı ilə yaşayıram [5, s. 134]". Beyhəqinin verdiyi məlumatlardan aydın olur ki, vəzir bacarığı, təcrübəsi və sultana bağlılığı ilə vəzifəsini qoruya bilərdi. Əgər vəzir bu sadaladığımız keyfiyyətlərə malik idisə, əcəli ilə və ya öldürülmə xaricində yenidən bu vəzifəni icra edə bilərdi. Sultan Mahmudun ölümündən sonra Sultan Məsudun onun vəzirlərini bu vəzifəyə təyin etməsi bunu sübut edir. Şübhəsiz, Sultan Məsudun məqsədi taxt dəyişikliyi səbəbi ilə yaranan yeni dövlət təşkilatının formalaşmasında onların təcrübəsindən faydalanmaq idi.

Sultanın fərmanı üzrə işə başlayan vəzir hökmdarın vəkili ünvanı ilə bütün işləri idarə edən ən yüksək məmur idi. Vəzirin ən böyük vəzifəsi xəzinəyə gəlir, qazanc gətirmək idi. Buna görə də, vəzir idxal və ixrac prosesində yaxından iştirak edir və yığılan verginin xəzinəyə daxil olmasını təmin edirdi. Vəzirlər eyni zamanda, maaşın miqdarını və ödəmə şəklini də təyin edirdilər. Bu nöqteyi nəzərdən, Beyhəqinin də mustoufi vəzifəsi haqqında çox az məlumat verdiyini nəzərə alsaq, deyə bilərik ki, Qəznəlilər dövlətində bu vəzifəni vəzir icra edirdi. Qəznəli vəzirləri şübhəsiz ki, əsgəri bacarıqlara sahib idilər. Ancaq, onların savaşa qatılmalarına dair mənbədə məlumat verilmir. Vəzirin əsgəri vəzifəsi ordunu savaşa bölgəsinə təyin etmək, ehtiyaclarını təmin etmək və bölgənin təhlükəsizliyinə nəzarət etmək idi [14, s. 236]. Qəznəli vəzirləri mənbədə xacə, xaceyi-buzurq və vəzir xaricində başqa adlarla zikr olunmur. Səlcuqlular dövründə də vəzirlər bu ünvanlardan əlavə sədr, dəstur, vəziri-salar kimi müxtəlif ünvan və ləqəblər alırdılar. Fəzlullah Rəşidəddin "Cami ət-Təvari"əsərində Səlcuqlu vəziri Əbül Qasım Buzqanini zikr edərkən onu vəziri-salar adlandırmışdır. Müəllif yazır: "O zaman Səlcuqluların pişkarı (böyük bir şəxsin yaxınında və xidmətində olan, onun işlərini idarə edən şəxs – N.Həmidova) və vəziri-saları Əbül Qasım Buzqani idi [15, s. 68]". Vəzirlərin də sultan kimi müxtəlif simvolları var idi. Yuxarıda vəzirin vəzifəyə təyin olunması haqqında məlumat verərkən yazdığımız kimi, vəzirlik simvolları, xalat, üzük (möhür), dəvat[2], sarığ idi. "Tarixi-Beyhəqi"də qeyd olunan bu simvollardan əlavə Səlcuqlu dövründə mindər (döşəkçə), qılınc, noubət (sarayın qarşısında çalınan zəng), çadır da vəzirlik simvolları hesab olunurdu [17, s. 32].

Mənbələrdə Qəznəli, Səlcuqlu dövrü vəzirləri ilə sultan arasında mənfi yöndə cərəyan edən münasibətlərə dair bir neçə misal çəkmək olar. Fikrimizi aydınlaşdırmaq üçün Beyhəqinin əsərində bəhs olunan bir hadisəni qələmə almaq istərdik: "Ustadım Əbu Nəsr Mişkani mərhum anası haqqında mənə bu hadisəni söyləmişdi: "Sultan Mahmud, Həsənəkə vəzarət verdiyi zaman onunla bu qədər dostluğu olduğu halda ona düşmən olmuşdu. Anam mənə, "Ey oğul, əgər padşah bir kimsəyə vəzarət versə, birinci həftə ona dost olsa belə, sonra

[2]*İ.H.Uzunçarşılı yazır ki, dəvatı vəzarət deyilən vəzirlik əlamətini vəzirin önünə qoyan və onu mühafizə edən məmura dəvatdar deyilirdi (İ.H.Uzunçarşılı, Osmanlı devleti teşkilâtına medhal. Ankara: Türk Tarih Kurumu, 1988, s.46).*

ona düşmən olar. Çünki, mülki idarədə ona şərik olar, halbuki padşahlıq ortaqlıq qəbul etməz” – dedi [5, s. 310]”. Göründüyü kimi, mülki idarədə vəzirlərin sultana şərik olması onların münasibətlərinin hər zaman müsbət olmadığını təsdiq edir.

***Böyük Divanı təşkil edən digər divanlar:*** Divani-risalət[3] dövlətə dair yazıların, sənədlərin, fərmanların saxlandığı və mühafizə olunduğu divan idi. Bu divana sahib divani-risalət başçılıq edirdi. Xilafət zamanında divan ül-rəsail adlanan bu divan birbaşa vəzirin və ya bir katibin idarəsi altında idi. Məktublar, rəsmi sənədlər, Xəlifənin və ya vəzirin verdiyi əmrlər baş katib tərəfindən hazırlanıb Xəlifə və ya vəzir tərəfindən təsdiq olunduqdan sonra nüsxəsi çıxarılırdı. Böyük Səlcuqlu İmperatorluğu dövründə bu divan divan-i inşa və ya divan-i tuğra adlandırılmışdır. Mənbələrdə fərqli adlarla zikr olunmasına baxmayaraq, icra etdikləri vəzifələr eyni idi. Maraqlı cəhət ondan ibarətdir ki, Abbasi Xilafəti, Səlcuqlular dövründə bu divan başçısının səlahiyyətləri Qəznəli dövləti ilə müqayisədə az idi. Belə ki, Beyhəqi bütün əsər boyu Sultanın mühüm məsələləri vəzirlə bərabər sahib divani-risalətlə də gizli müşavirə etdiyini yazmışdır [5, s. 133, 134, 135]. Eyni zamanda, müəllif sultanın vəzir, arız, mustoufi və ya digər önəmli vəzifələrə təyində sahib divan-i risalətin fikirlərinə önəm verdiyini qeyd etmişdir. Göründüyü kimi, sahib divani-risalətməqam etibarilə sultana yaxınlığı səbəbindən ona nəsihətlər verə, bəzi məsələlərdə onu xəbərdar edə bilərdi. Elə burdan da görünür ki, bu vəzifə üçün təcrübə böyük önəm kəsb etmişdir. Beyhəqi yazır: “Əmir gizli müşavirədə ustadım Əbu Nəsr Mişkani divani-risalət işlərini məni naibi və vəkili seçməklə, Əbu Səhli Züzəniyə verdi. Əmir bu müşavirədə: “Əgər Əbül Fəzl çox gənc olmasaydı, mən bu işləri ona verərdim” – demişdir [5, s. 568]”. Təcrübə ilə yanaşı, sahib divani-risalətşeir, ədəbiyyat, dəbirlik (katiblik) kimi bacarıqlara da sahib olmalı idi.

Sahib divani-risalətin ən önəmli vəzifəsi sultanın xəlifə, müstəqil və ya yarımmüstəqil hökmdarlar və ya digər dövlət adamları ilə yazışmalarını idarə etmək idi. Dərgaha gələn xəbərlər öncə bu divana gəlir və vacib xəbərlər sahib divani-risalətin əli ilə sultana təqdim olunurdu. Əgər xəbərlər sözlü olaraq gəlmişsə, bunlar onun tərəfindən yazıya köçürüldükdən sonra sultana ərz olunurdu. Yeni xəlifənin Qəznəli sultanının özünə biat etməsi üçün göndərdiyi biatnamə[4] və səvgəndnamə[5] və taxta yeni oturan Qəznəli sultanı tərəfindən

---

*[3] Risalət – lüğətdə “göndərmək, elçilik, məktub, ismarıc” mənalarını ehtiva edən fiqh termini olaraq bir kimsənin iradə bəyanını digər bir kimsəyə təbliğ etməyi ifadə edir (Nasi Aslan, İslam Ansiklopedisi, 35. Cild, 2008, 125-126 s., s. 125).*

*[4] Biatnamə - bir hökmdarın hökümətini qəbul və təsdiq edilməsini ifadə edən termindir (Güller Nuhoğlu,Beyhaki tarihi ne göre Gaznelilerde devlet teşkilatı ve kültür, dok. tez., İstanbul, 1985, s. 258).*

Xəlifə tərəfindən göndərilən mənşur və məktubların əvvəlcədən farscaya tərcümə olunub, Qəznəli sarayında Xəlifə elçisinin qəbulu məqsədilə təşkil olunmuş mərasimdə yüksək səslə oxunması da sahib divan-i risalətin vəzifəsi idi. Beyhəqi yazır: "Biatnamə və səvgəndnaməni ustadım fars dilinə tərcümə etmişdi. Bütün şərtləri olduğu kimi yazmış, tərcümədə ehmal etməmişdi. Bu yazını elçiyə göstərdi və ərəbcəsini ona verdi. Elçi yazını incələdi. Əbu Nəsr Muşşqan ərəbcəsini yüksək və hazır olanları eşidəcəyi bir səslə oxudu. Elçi dinləyərək, "Əbu Nəsr Mişkani haqqı ilə tərcümə etmiş, heç bir şeyi buraxmamışdır. Möminlərin əmirinə bunu olduğu kimi deyəcəyəm" – dedi. Əbu Nəsr ərəbcə tərcüməsini tamamilə oxudu. Əmir, "Bəli, dinlədim və bütün maddələr mənə məlum oldu. Farsca nüsxəsini mənə ver" – dedi. Əbu Nəsr farsca nüsxəni Əmirə verdi. Əmir, yazını elə səlis oxumağa başladı ki, mən bu xanədan içində Əmir Məsud qədər gözəl farsca yazan və oxuyan görmədim. Müqavilə yazısını yuxarıdan aşağıya heç fasilə vermədən oxudu. Sonra yazı ləvazimatlarını (dəvat-i xassə) gətirdilər. Əmir bunun və Bağdaddan gələn ustadımın farscaya tərcümə etdiyi sənədi sonuna qədər öz yazısı ilə ərəbcə və farsca yazıb imza etdi [5, s. 275]".

Sahib divani-risalət sultanın başçılığı ilə toplanan bütün müşavirə məclislərində iştirak etdiyi kimi sultan və vəzirin yanında məzalim məclislərinə qatılırdı. Sahib divani-risalətin olmadığı zamanlarda onun əvəzinə divanın təyin etdiyi və ya köməkçisi olan dəbir məzalim məclisinə qatılırdı. Mənbədə sahib divan-i risalətin bu məclislərdə hansı vəzifəni icra etdiyi haqqında məlumat verilmir. Sahib divani risalətin məzalim məclislərinə dəvat və qələmlə qatılması sübut edir ki, onun vəzifəsi şikayətçilərin şikayətlərini yazıya almaq idi [14, s. 254]. Beyhəqi yazır ki, Xacə Əhmədi Həsən və Xacə Əbu Nəsr Mişkani məzalim məclisi qurdular, haqsızlıq görənlərin davalarını dinlədilər, ifadələrini alıb, geri göndərdilər [5, s. 264]. Müəllifin yazdıqlarından aydın olur ki, sahib divani-risalət bir növ vəzirlə sultan arasında vasitəçi rolunu oynayır: "Xacə quşluq vaxtında Əbu Nəsr Mişkanini divana çağırdı. Əbu Nəsr divana gəldi. Xacə onunla gizlincə, Əmirə "Ərz etdiyim kimi, ordunun işləri yaxşı deyil. Əbu Səhl Zүzani hörmət qazanmış, mövqe tutmuş bir adamdır. Əgər yüksək rəyiniz müvafiq bilərsə, saraya çağırılsın, ona bi məqamın (arız vəzifəsi nəzərdə tutulur – N.H) xalatı verilsin, o da bu işə başlasın. Çünki düzəldilməsi lazım olan ən əsas iş budur. Mən qulunuz ordunun işinin yoluna girməsi üçün bildiyim qədər

[5] *Səvgəndnamə - vəzirik, əmirlik kimi yüksək vəzifəyə təyin olunan şəxsin sultana xəyanət etməyəcəklərinə dair imzaladıqları vəsiqədir. Taxta yeni çıxan Xəlifə tərəfindən Qəznəli sultanına səvgəndnamə göndərilir, əvvəlcədən sahib divani-risaləttərəfinsən farscaya tərcümə olunan bu sənəd elçinin qəbul mərasimində sahib divani-risaləttərəfindən oxunur, sultan tərəfindən imzalanırdı (Güller Nuhoğlu,Beyhaki tarihi ne göre Gaznelilerde devlet teşkilatı ve kültür, dok. tez., İstanbul, 1985, s. 257).*

ona yardın etməyə hazırım" – deyə xəbər göndərdi. Əbu Nəsr gedib bunu Əmirə ərz etdi [5, s. 141, 142]".

Sahib divani risalətdən sonra divanda işləyən dəbirlər önəmli mövqeyə sahib idilər. Dəbirlər gözəl əxlaqlı, fəzilətli olmalı, şeir, ədəbiyyat bilməli, xəttatlıq sənətinin incəliklərinə bələd olmalı idilər. 1031-ci ildə Sultan Məsud Qəzninə getdiyi vaxt Bəlxdə qalaraq işləri yoluna qoymalı olan Xacə Əhməd-i Həsənin sultandan katib və xəzinədar istəmişdir: "Baş üstə, ancaq bir əmriniz olarsa, onun haqqında lazım olan sənədləri yazmaq üçün yanımda divan-ı risalətdən bir katibin olması lazımdır. Bir də layiq olana xalat vermək üçün bir xəzinədar olmalıdır" – dedi. Əmir, "Əbu Nəsri Mişkaniyə söylə, sənə bir katib versin, xəzinədarlardan birini təyin etsin və onun yanında dirhəm, dinar və paltarlar olsun" – deyə buyurdu [5, s. 228]. Bu fakt katiblərin dövlət təşkilatında oynadığı rolu aydınlaşdırır.

Divan-i risalətdə dəbirlərdən başqa divanban, mühərrir, mütərcimlər də çalışırdılar. Divanban divanı qorumalı, divanda mühafizə olunan sənədləri mühafizə etməli idi [14, s. 267]. Mühərrirlər yazışmalarla məşğul olan dəbirlərdən daha aşağı dərəcələrdəki məmurlar idilər. Mütərcim divan-i risalətdə hind əsillə hindcə yazışmaları idarə edən məmur idi [14, s. 268].

Güllər Nuhoğlu hesab edir ki, divani-istifa Qəznəli dövlətində müstəqil bir divan olmayıb, divan-i vəzarətin maliyyə sənədlərinin dəftərlərə yazıldığı yer idi. Səlcuqlular dövründə bu divan divani-istifa və ya divani zimam vəl-istifa adlanmışdır [16, s. 66]. Divanın başçısı dövlətin bütün maliyyə məmurlarının başı olan mustoufi idi. Mustoufi gördüyü işlər, yəni divan daxil olan və divandan çıxan xərclər barədə vəzirə hesabat verməli idi. Vergilər vergi məmurları tərəfindən toplanılır, xəzinəyə göndərilirdi. Horsta görə, vergilər miqdarı qədimdən təyin edilmiş qanunlar və dəftərlərdəki köhnə nümunələrə görə təyin edilirdi [9, s. 326]. Beyhəqi Sultan Məsudun hakimiyyətinin ilk illərində Əbül Fəth Razini və Tahiri mustoufi olaraq zikr etməkdədir. Mənbənin təhlili göstərir ki, Sultan Məsud hakimiyyətə gələrkən Razini mustoufi təyin etmiş, Sultan Məhəmmədin mustoufisi olan Tahir isə, Məsudun hakimiyyətini qəbul edən zaman elə bu vəzifəni icra etməyə davam etmişdir. Əbu Səhl Həmdavinin vəzirliyindən bəhs edən Beyhəqi "Tahir, Əbül Fəth Razi kimi sarayın xacə və mustoufiləri Əbu Səhlin hökumətində idilər" – deyə yazır [5, s. 81]. Bu vəziyyət uzun müddət davam etməmiş, Sultan Məsud Əbül Fəthi arız təyin etdiyi vaxt Tahir bu vəzifəni təkbaşına icra etməyə davam etmişdir. Mustoufilərin vəzifəyə təyin olunma qaydası haqqında Beyhəqi məlumat vermir. Ancaq belə hesab etmək olar ki, mustouifələr də digər divan üzvləri kimi vəzirin məsləhəti ilə sultan tərəfindən vəzifəyə gətirilmişdir.

Divani işraf "Tarixi Beyhəqi" də dörd böyük divan arasında zikr olunmur. Beyhəqi işraf sözü ilə divan sözünü bərabər istifadə etməyərək, bu divanın müstəqil bir divan olmadığını ortaya qoymaqdadır. Dövlətin maliyyə

idarəsini təftiş edən işraf dairəsinin başçısı müşrif bu vəzifəni əmrindəki eyni adı daşıyan şəxslərlə birgə idarə edirdi [14, s. 272]. Beyhəqinin işrafi məmləkət adlandırdığı divanın başçısı müşrif və ya müşrifi məmləkət idi. “Növbəti gün, bir zamanlar vəzarətdən çıxarılmış olan Əbu Səhl Həmdaviyə möhtəşəm bir xalat verilərək onu təftiş (işraf-i məmləkət) vəzifəsinə təyin etdilər və bundan əvvəl bu vəzifə üçün təyin edilən dörd nəfəri müavin olaraq verdilər. Əbu Səhl Həmdavi bütün saray müfəttişləri ilə (müşrif) bərabər gələrək saraya gəldi və hörmətini ərz etdi. Əmir, ona “Sənin xidmət haqqın qədimdir, bizə qarşı çox dostluqlar və ... göstərdin. Bu vəzifəni layiqi ilə yerinə yetirməlisən” - dedi. O, da “Baş üstə!” – deyə cavab verib çıxdı və divana getdi. Xacə onu rəsmi surətdə sol tərəfində oturtdu və çoxlu iltifatlardan sonra evinə göndərdi [5, s. 142].

Divani arız ordunun idarə olunması, ümumiyyətlə orduya dair məsələlərin həll olunduğu divan idi. Bu divanın başında arız və ya sahib divan-i arz dayanırdı. Vəzifələri əsgəri xidmətlə bağlı arızlar qələm əhli arasından müxtəlif məmuriyyətlərdən bu vəzifəyə təyin olunurdular. Bu divanın əsas vəzifəsi əsgərlərin adları, vəzifələri, xidmətləri və maaşlarını dəftərlərə qeyd edib mühafizə etmək idi. Ravəndinin hər zaman Məlikşahın yanında divan dəftərlərində adları qeyd olunan qırx beş min süvaridən bəhs etməsi orduda xidmət edən əsgərlərin divan dəftərlərində qeydiyyatda olmasını sübut edir [11, s. 128]. Arz və ya arız termin olaraq lüğətdə bəzən əsgər və sipah mənalarını daşıyan ceyş və ləşkər sözləri ilə birlikdə istifadə olunmuşdur [16, s. 69]. Buna görə də, Səlcuqlu imperatorluğu zamanında bu divan divani arz əl-ceyş, divan başçısına isə arızı-ləşkər adı verilmişdir.

Beyhəqi Əbu Səhlin arız vəzifəsinə təyin olunmasını belə təsvir edir: “Əmir Əbu Səhlə işarə etdi. Bunun qarşılığında o yerindən qalxıb Əmirə yaxınlaşdı. Əmir ona bir neçə söz söylədi. O həmən yeri öpüb məclisdən çıxdı. Biri saray içi, bir saray xarici hacib olmaqla, iki hacib onu camexanaya apardılar. Ona möhtəşəm xalat geydirdilər və belinə yeddi yüzlük qızıl bir kəmər bağladılar. Əbu Səhl geyindikdən sonra Əmirin hüzuruna gəlib məmnuniyyət ərz etdi. Əmir “Mübarək olsun! Xacənin yanına get, ordunun işlərini yerinə yetirməyə başla. Çünki, bu işlərin ən mühümüdür” – dedi. Əbu Səhl “Baş üstə!” – deyib yeri öpdükdən sonra məclisdən çıxdı, divana gəldi. Xacə onu bir dərəcə aşağısına oturtdu və ona iltifatlar etdi [5, s. 142]”. Verdiyimiz məlumata əsasən deyə bilərik ki, vəzifəyə sultan tərəfindən gətirilən arız da vəzir və divani-risalət kimi bir neçə simvollara sahib idi.

Vəzirlər və sahib divani-risalət kimi arızlar da xacə ünvanına sahib olub, sultanın bütün rəsmi və özəl mərasimlərinə qatılma haqqına sahib idilər. Arız vəzirlə birlikdə hərbi məsələlərdə sultanın müşavirə idi. Arızın əsas vəzifəsi ordunun yüksək iş bacarağını təmin etmək idi. Arız tez-tez ordunu yoxlayar və ordunun vəziyyəti barədə sultana məlumat verərdi. Bəzi hallarda sultan da arızla birgə bu yoxlamalarda iştirak edərdi. Orduda işləyən hər rütbədən əsgərin

maaşının təyin edilməsi və verilməsi də arızın vəzifəsi idi. Beyhəqinin verdiyi məlumatlardan aydın olur ki, sultan mühüm məsələlərin həlli zamanı dövlət təşkilatının bir neçə üzvü ilə bərabər məclis təşkil edərdi. Bu məclislərdə divani-arız da iştirak edirdi [5, s. 335].

Divan təşkilatı Hz.Ömər (634-644) dövründə İslam dünyasına daxil olmuşdur. Bəzi tarixçilər bu təşkilatın ərəblərdən öncə, Sasani və Roma imperatorluqları zamanında yarandığını və daha sonra İslam dövlətlərinin dövlət təşkilatına daxil olduğunu irəli sürürlər. Ancaq, qədim türk dövlətlərində bu təşkilatın mövcud olduğunu qəbul etmək istəmirlər. Hər nə qədər bu təşkilat Ərəb Xilafəti zamanında hökumət təşkilatı kimi formalaşıb Müsəlman-Türk dövlət təşkilatına daxil olsa da, biz qədim türk dövlətlərində eyni adla olmasa belə, bu təşkilatın mövcudluğunu görürük. Qədim türk dövlərində türklər mühüm məsələləri qurultaylar və məclislər təşkil edərək həll edirdilər. Hətta ayğuçilərin (vəzirlərin -N.H) başçılıq etdiyi buyruq, iltəbər və başqa adla adlanan əmirlərin daxil olduğu hökumət təşkilatları var idi. Bunu nəzərə alaraq, qeyd edə bilərik ki, divan təşkilatı Müsəlman-Türk dövlətlərinə yad bir məfhum deyildi. Qəznəlilər dövründə formalaşan, daha sonra Böyük Səlcuqlu imperatorluğunun da mərkəzi idarəetməsini tənzimləyən divanlar əslində, onlara hələ dövləti yaratmamışdan əvvəl məlum idi.

## Ədəbiyyat


1. Al-Bondârî. Zubdat al-nusra va nuhbat al-usra / türkce terc. Kıvameddin Burslan. İstanbul: Maarif Matbaası, 1943. 272 s.
2. Bayramlı, Z.H. Azərbaycan tarixinin farsdilli qaynaqları. I cild, Bakı: Füyuzat, 2024. 272 s.
3. Devellioğlu, F. Osmanlıca-Türkçe ansiklopedik Lûgat. İstanbul: Türkiye iş bankası kültür yayınları, 2023. 1393 s.
4. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: Çıraq, 2007. 273 s.
5. Hüseyin-i Beyhaki. Târîh-i Beyhakî / Tercüme: N.Lügal. Ankara: Türk Tarih Kurumu, 2019. 690 s.
6. İbnü’l Esîr. El-Kâmil`de Selçuklular / Çeviri, notlar ve açıklamalar: Ö.Abdülkerim. İstanbul : Bilge Kültür Sanat, 2022. 545 s.
7. Klausner, C. Selçuklularda vezirlik. Sivil idare üzerine bir araştırma (1055-1194) / Çeviri: Mehmet Fatih Baş, Sinan Tarifçi. İstanbul: Kronik kitab, 2019. 174 s.
8. Köymen, M.A. Büyük Selçuklu imperatorluğu tarihi. Alp Arslan və zamanı. c. 3, Ankara: Türk Tarih Kurumu, 2016. 532 s.

9. Köymen, M.A. Selçuklu devri devlet teşkilatına dair yazılmış bir eser münasebetiyle // Selçuklu devri Türk tarihi araştırmaları. Ankara: 1963, I Belleten, XVII/68, 303-380 s.
10. Merçil, E. Selçuklular zamanında dîvân teşkilâtı (Merkez ve Eyalet divanları). İstanbul: Bilge Kültür Sanat, 2015. 232 s.
11. Muhammed b. Ali b. Süleyman er-Râvendi. Râhat-üs-sudûr ve Âyet-üs-sürûr (Gönüllerin Rahatı ve sevinç alameti) / Çeviri: Ahmed Ateş. Ankara: Türk Tarih Kurumu, -2020. 1,2 c. 470 s.
12. Nasi Aslan, Risalət, İslam Ansiklopedisi. 35. Cilt, Türkiye Diyanet Vakfı, 2008. 125-126 s.
13. Nizâmü'lmülk. Siyâset-nâme / tercüme: Köymen M.A. Ankara: Türk Tarih Kurumu: 2016. 226 s.
14. Nuhoğlu, G. Beyhaki tarihine göre Gaznelilerde devlet teşkilatı ve kültür / Doktora tezi / İstanbul: İstanbul Üniversitesi Sosyal bilimler Enstitüsü, 1995. 406 s.
15. Reşîdü'd-dîn Fazlullâh. Câmi'ü't-Tevârîh (Zikr-i Târîh-i Âl-i Selçûk) / Çev., Erkan Göksu, H.Hüseyin Güneş. İstanbul: Bilge Kültür Sanat: 2014. 208 s.
16. Tokan, Ö. Büyük Selçuklular ve İrak Selçuklularında Divan-ı Ala / Doktora tezi / Erzurum: Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2015. 260 s.
17. Turan R. Türkiye Selçuklularında hükumet mekanizması (Vezir ve divan) / R. Turan. İstanbul: Milli Eğitim Basımevi, 1995. 211 s.
18. Uzunçarşılı, İ. H. Osmanlı devleti teşkilâtına medhal. Ankara: Türk Tarih Kurumu, 1988. 520 s.
19. Zahîru'd-dîn Nîşâbûrî. Selçuknâme / çev. A. Fidan. İstanbul: Kopernik Kitab, 2018. 174 s.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 3 (44), s.101-111

# AĞABALA QULİYEVİN "QAFQAZ UNÜYÜTMƏ VƏ ÇƏLTİKTƏMİZLƏMƏ DƏYİRMANLARI SƏHMDAR CƏMİYYƏTİ"NİN YARADILMASI BARƏDƏ

**Vəfa Əliyeva**
AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
vfa.aliyeva85@mail.com

***Açar sözlər:*** *Ağabala Quliyev, unüyütmə dəyirmanı, Qafqaz, səhmdar cəmiyyəti, sənaye,*

*XX əsrin əvvəllərindən imperializm dövrünə xas olan müəssisələrin təmərküzləşməsi və iri səhmdar cəmiyyətlərinin yaradılması prosesinin gedişində imperiyanın müxtəlif yerlərində ümumrusiya əhəmiyyətli inhisarçı birliklər yaranmağa başladı. Təqdim olunan məqalədə ilkin mənbələrə əsaslanaraq, belə birliklərdən birinin - 1910-cu illərin ortalarında yaradılmış "Ağabala Quliyevin Qafqaz Unüyütmə və Çəltiktəmizləmə Dəyirmanları Səhmdar Cəmiyyəti"nin yaranma prosesi araşdırılır. Bakı, Stavropol, Georgiyevsk və Beslan kimi şəhərlərdə filialları olan bu cəmiyyətin fəaliyyətinin öyrənilməsi belə qənaətə gəlməyə imkan verir ki, sözügedən fəaliyyət faktiki olaraq bütün Qafqazı əhatə edirdi. Quliyevin müəssisəsi Şimali Qafqazın analoji yeyinti sənayesi müəssisələri arasında lider mövqe tutaraq, əhalinin taxıl məhsulları ilə təminatında mühüm paya malik idi.*

# О СОЗДАНИИ «КАВКАЗСКОГО АКЦИОНЕРНОГО ОБЩЕСТВА МУКОМОЛЬНЫХ И РИСООЧИСТИТЕЛЬНЫХ МЕЛЬНИЦ А.Б.ГУЛИЕВА»

**Вафа Алиева**

***Ключевые слова:*** *Агабала Гулиев, мукомольная мельница, Кавказ, акционерное общество, промышленность*

*С начала 20 века в ходе характерного для эпохи империализма процесса концентрации предприятий и создания крупных акционерных обществ в самых разных уголках империи стали учреждаться монополистические объединения общероссийского значения. В представленной статье на основе данных первоисточников рассматривается процесс возникновения одного из таких объединений – «Кавказского акционерного общества мукомольных и рисоочистительных мельниц*

*А.Б.Гулиева», учрежденного к середине 1910-х годов. Изучение функционирования данного общества позволяет нам заключить, что оно, имея филиалы в таких городах, как Баку, Ставрополь, Георгиевск и Беслан, своей деятельностью фактически охватывало весь Кавказ. Предприятие Гулиева занимало ведущие позиции среди аналогичных предприятий пищевой промышленности Северного Кавказа, обладая, таким образом, значительной долей в сфере обеспечения населения хлебной продукцией.*

## ON THE CREATİON OF THE "CAUCASİAN JOİNT-STOCK COMPANY OF FLOUR AND RİCE MİLLS BY A.B. GULİYEV"

**Vafa Aliyeva**

***Key words:*** *Agabala Guliyev, flour mill, Caucasus, joint-stock company, industry*

*Since the beginning of the 20th century, during the process of concentration of enterprises and the creation of large joint-stock companies characteristic of the era of imperialism, monopolistic associations of all-Russian significance began to be established in various parts of the empire. The presented article, based on primary sources, examines the process of the emergence of one of these associations - the "Caucasian Joint-Stock Company of Flour Grinding and Rice Mills by A.B. Guliev," established in the mid-1910s. Studying the functioning of this society allows us to conclude that, having branches in cities such as Baku, Stavropol, Georgievsk and Beslan, its activities actually covered the entire Caucasus. Guliyev's enterprise occupied a leading position among similar enterprises in the food industry of the North Caucasus, thus possessing a significant share in the provision of bread products to the population.*

XX əsrin əvvəllərindən imperializm dövrünə xas olan müəssisələrin təmərküzləşməsi, iri səhmdar cəmiyyətlərin yaranması prosesi daha da geniş vüsət aldı. Bu zaman fəaliyyəti Ümumrusiya və hətta beynəlxalq səviyyəyə çatan ilk inhisarçı birliklər yaranmağa başlamışdı. Səhmdar cəmiyyət, bərabər paylara bölünmüş kapitalın köməyi ilə hər bir iştirakçının məsuliyyətinin məhdudlaşdırıldığı, kommersiya məhsulunun birgə istehsalı məqsədilə şəxslərin müqaviləyə əsaslanan birliyidir. Səhmdar cəmiyyətinin nizamnaməsi səhmlərə abunə olan bütün şəxsləri ona əməl etməyə məcbur edən müqavilə qüvvəsinə malik idi [11, s. 31].

**Səhmdar cəmiyyətinin yaradılmasına kimi Ağabala Quliyevin sahibkarlıq fəaliyyəti:** Həmin vaxtlarda meydana gələn səhmdar cəmiyyətlərdən biri də "Ağabala Quliyevin Qafqaz Unüyütmə və Çəltiktəmizləmə Dəyirmanları Cəmiyyəti" idi ki, təqdim olunan məqalədə bu cəmiyyətin yaranması problemi araşdırılır.

Azərbaycan mlli burjuaziyasının tarixini araşdıran tədqiqatçılardan M.Ə. İsmayılov [6], Ə.S. Sumbatzadə [24], D.B. Seyidzadə [19], Z.N. Nuriyeva [3], R.İ. Nəbiyev [2], X.T. Vəliyeva [4] və başqaları öz əsərlərində Ağabala Quliyevin sahibkarlıq fəaliyyətinə toxunsalar da, bilavasitə onun adıçəkilən "Cəmiyyəti"nin yaranması və fəaliyyətini araşdırmamışlar. Bu səbəbdən də sözügedən cəmiyyətin meydana gəlməsinin ətraflı şəkildə araşdırılması böyük elmi əhəmiyyət kəsb edir.

Öncə qeyd etməyi vacib bilirik ki, XIX əsrin ikinci yarısından etibarən imperiya ərazisində ayrı-ayrı sənaye sahələrində yeni texnologiyanın tətbiqinin genişlənməsi unüyütmə sənayesinə də öz təsirini göstərmişdi. Un dəyirmanlarında inkişafı səciyyələndirən çarxlı üyüdülmə, taxılın təmizlənməsi, dənli bitkilərin və unun süzülməsi üçün bütün təkmilləşdirilmiş avadanlıqların tətbiqinə XIX əsrin 80-ci illərindən etibarən başlanılsa da, XX əsrin əvvəllərində texnoloji yenidənqurma daha da geniş vüsət alır. Un istehsalı texnologiyasının inkişafı ilə paralel olaraq dəmir yolu şəbəkəsinin də sürətlə genişlənməsi baş verdi. Əvvəllər rahat kommunikasiya vasitələri olmadığı üçün dəyirmanlar lazım olduğundan kiçik idi, onlar əsasən yerli istehlak üçün işləyirdi. Yalnız böyük su yollarında taxılın ucuz çatdırılmasının geniş yayıldığı bölgələrdə iri unüyütmə dəyirman sənayesi mövcud idi.

Rusiyada unüyütmə sənayesini tədqiq edən P.İ.Lyaşenko Qafqazda bu sənaye sahəsinin XX əsrin əvvəllərindən baş vermiş coşqun inkişafı ilə bağlı qeyd edir ki, bəzi dəyirman binaları texniki cəhətdən hələ tam mükəmməl olmasa da, onların hamısının avadanlıqlarla təchizatı demək olar ki, yüksək səviyyədə idi. Hər bir stanitsa və ya kənd dəyirmanı Byüler, Zek, Vetsiq və başqalarının zavodlarından gətirilmə əla xarici qurğulara və onlarla birlikdə hər növ avadanlığa malik idi. Bu dövrün təkmil avadanlıqları sırasına buğdanın tozdan və digər qarışıqlardan təmizlənməsi üçün istifadə olunan qurğu – tarar, yalnız buğda və çovdar taxılının hazırlanmasında istifadə olunan aşındırıcı səthə malik qazıma maşınları – sumbata dəntəmizləyiciləri, dəyirmanlarda arpadan yulafı ayırmaq üçün istifadə olunan qurğu – qaramuq ələyicisi, habelə xüsusi olaraq kəpəyi üyütmək üçün o dövrdə qabaqcıl sayılan fransız dəyirman daşları, elevatorlar və s. aid idi. P.İ.Lyaşenkonun sözlərinə görə, belə dəyirmanlarda demək olar ki, rus maşınları gözə dəymirdi [7, s. 79].

Bu dəyirmanlarda üyütmə bir az baha başa gəlsə də, ən yaxşı üyüdülmə üsulu ilə əldə edilirdi. Müəllifin yazdığına görə, bu baxımdan yerli istehlakçı çox tələbkar və seçici idi. O, pis üyüdülmüş unu qəbul etmirdi və yaxşı un

istehsal edən dəyirmana üstünlük verirdi. Ona görə də elə bir orta ölçülü stanitsa və ya kənd yox idi ki, orada 2-3, hətta 5 dəyirman olmasın [7, s. 79].

P.İ. Lyaşenko XX əsrin əvvəllərində Qafqazda bu sahənin inkişafından bəhs edərkən qeyd edir ki, burada kənd dəyirmanlarının əksəriyyəti əvvəllər çox gəlir gətirdiyi üçün yalnız kənardan gətirilən taxılı üyüdürdülər. Gündə 1500 pud taxıl üyüdən dəyirmançı öz xeyrinə 150 pud alırdı ki, bu da ona orta hesabla bir çətvəri (çərəyi – dörddə biri) 9 rubl hesabı ilə gündəlik təxminən 135 rubl gəlir gətirirdi. Dəyirmanın gündəlik qırx rubla kimi olan (dəyirman işçilərinin maaşı, sürtkü və yanacaq xərcləri və s.) xərclərini çıxdıqda, dəyirmançı gündə orta hesabla 90 rubl qazanırdı. Təəccüblü deyil ki, çox az vəsaitlə tikilən dəyirmanlar (dəyirmanın tikintisinə nadir hallarda 10.000 rubldan çox vəsait qoyulurdu. Tikinti üçün lazım olan vəsait isə 2 illiyə qədər hissə-hissə götürülürdü) tezliklə ödənilir və sahibkar başqa kənddə daha bir dəyirman tikməyə tələsirdi. Digər tərəfdən, sürətli zənginləşmə faktı digər sahibkarları da bu işə cəlb edirdi və dəyirmanlar sözün əsl mənasında göbələk kimi artırdı [7, s. 79]. Bəhs olunan dövrdə unüyütmə sənayesinə üz tutan milli burjuaziyamızın nümayəndələrindən biri də Ağabala Quliyev olmuşdur.

Qeyd etmək lazımdır ki, 1862-ci ildə Keşlədə yoxsul sənətkar ailəsində dünyaya gələn, 1885-ci ildə Bakıda ilk buxarla işləyən dəyirmanda işə düzələn və qabiliyyəti nəticəsində burada sex müdiri vəzifəsinə kimi yüksələn Ağabala Quliyev 1896-cı ildə Bakı şəhərində özünün ilk unüyütmə və çəltiktəmizləmə dəyirmanını açmışdı [6, s. 85-86]. Qafqaz unüyütmə və çəltiktəmizləmə Səhmdar Cəmiyyətinin yaranması probleminə bilavasitə keçməzdən öncə XX əsrin əvvəllərindən Cənubi Qafqazla yanaşı Peterburq, Moskva, Varşava, Riqa, Həştərxan, Rostov və imperiyanın başqa şəhərlərini unla təmin edən, buğdanı birinci əldən almaq üçün Vladiqafqaz dəmiryoly stansiyasında və Stavropol quberniyasında tədarük məntəqələri açan [2, s. 32] Ağabala Quliyevin Şimali Azərbaycanın unüyütmə və çəltiktəmizləmə sənayesindəki roluna qısaca nəzər salmaq istərdik.

A. Quliyevin unüyütmə və çəltiktəmizləmə dəyirmanı artıq XX əsrin əvvəllərinə doğru iri kapitalist müəssisələrindən idi. 1900-cü il üçün onun buxarla işləyən çarxlı unüyütmə və çəltiktəmizləmə dəyirmanının illik məhsul istehsalı 268 min 250 rubl olmuşdu [22, v. 5 arxa, 8 arxa, 13 arxa] A. Quliyevin dəyirmanında 1902-ci ildə 2 buxar qazanı var idi və 20 nəfər işçi çalışırdı. Dəyirmanda üç növbəli iş rejimi əsasında 24 saat işləyirdi və müəssisənin illik istehsalı 260 min rubla bərabər idi. Dəyirmanın illik orta iş müddəti 300 günə bərabər idi ki, bu da sözügedən dəyirmanı o dövrdə mövcud müəssisələr arasında ilboyu fəaliyyət göstərən müəssisə hesab etməyə imkan verirdi. Belə ki, həmin ildə Bakı şəhərində mövcud olan 8 unüyüdən dəyirmandan yalnız cəmi ikisində illik orta iş müddəti 360 günə bərabər idi [20, v. 1-2]. Başqa sözlə, sadəcə iki müəssisə ilboyu işləyirdi.

1904-cü ildə Ağabala Quliyevin dəyirmanında artıq 50 işçi çalışırdı; həmin ildə dəyirmanın istehsal gücü 725649 rubl, işçilərin əmək haqqının illik məbləği isə 25467 rubla bərabər olmuşdu [23, v. 5]. Ağabala Quliyev tərəfindən icarəyə götürülmüş Zülfüqarovun dəyirmanında isə həmin il 8 işçi çalışmış, bu dəyirmanın illik gəliri isə 90 min rubl olmuşdu [25, v. 5 arxa].

1905-ci ildə Ağabala Quliyevin buxar mühərriki olan unüyüdən dəyirmanında 38 işçi çalışırdı və onun illik dövriyyəsi 500 min rubla çatırdı. Azərbaycanlı sahibkarın buxar mühərriki olan, 37 işçinin çalışdığı çəltiktəmizləyən dəyirmanının isə illik dövriyyəsi 300 min rubl təşkil edirdi. Qeyd edək ki, həmin il üçün Bakıda fəaliyyətdə olan 16 unüyüdən və çəltiktəmizləyən dəyirmandan 7-si milli burjuaziyanın nümayəndələrinə məxsus idi və Ağabala Quliyevin müəssisələri onların arasında ən irilərindən hesab olunurdu. İşçilərin sayına və istehsal gücünə görə yalnız M. və A. Rəsulov qardaşlarının (40 işçisi və illik dövriyyəsi 690 min rubla bərabər idi) analoji müəssisələri Quliyevlə rəqabət aparacaq səviyyədə idi [10, s.44-45].

1908-ci ildə Ağabala Quliyevin 30 işçisi olan unüyüdən dəyirmanında 1266900 rublluq 651440 pud buğda unu, çəltiktəmizləyən dəyirmanında isə 2083625 rublluq 1208750 pud düyü istehsal olunmuşdu. Həmin ildə Bakıda fəaliyyət göstərən 13 unüyüdən və çəltiktəmizləyən dəyirmandan 4-ü milli burjuaziyanın nümayəndələrinə məxsus idi. Ağabala Quliyevin müəssisələri işçilərin sayı və istehsal gücünə görə S. Və İ. Skobelev qardaşları (125 işçi, illik dövriyyəsi 3141600 rubl), T. Və Q. Qlaz qardaşları və Ş. Kretinqen (həmin ildə onun 50 işçisi olan un üyüdən dəyirmanında 1250 min rublluq 1300 min pud buğda unu, 87 min rublluq 100 min pud çovdar unu, 50 min rublluq 150 min pud kəpək, 33 min rublluq 17 min pud tullantı, 45 işçisi olan çəltiktəmizləyən dəyirmanında 1283675 rublluq 900 min pud çəltik istehsal olunmuşdu) müəssislərindən geri qalırdı [9, s. 187-188].

1912-ci ildə Ağabala Quliyevin 30 nəfər işçisi olan unüyüdən və çəltiktəmizləyən dəyirmanında 1500 min rublluq buğda unu, 2475 min rublluq yarma və digər məhsullar istehsal olunumuş, onun müəssisələrinin illik dövriyyəsi 4156990 rubl təşkil etmişdi. Artıq həmin vaxt Ağabala Quliyevin dəyirmanı istehsal dövriyyəsinə və gücünə görə Bakıda ən böyüyü idi. O dövrdə Skobelevin dəyirmanında 124 işçinin çalışmasına baxmayaraq, dəyirmanın illik istehsal dövriyyəsi 3141609 rubl idi [21, s. 40]. Ağabala Quliyevin dəyirmanının 1900-1912-ci illərdəki fəaliyyətinə dair göstəriciləri ehtiva edən cədvəl aşağıda verilmişdir.

**Cədvəl. Ağabala Quliyevin dəyirmanının 1900-1912-ci illərdəki fəaliyyəti** [22, v. 5 arxa, 8 arxa, 13 arxa; 20, v. 1-2; 23, v. 5; 10, s.44-45; 9, s. 187-188; 21, s. 40]**.**

| İllər | 1900 | 1902 | 1904 | 1905 | 1908 | 1912 |
|---|---|---|---|---|---|---|
| Buxar qazanlarının sayı | - | 2 | - | - | | |
| İllik istehsal gücü | 268250 | 260000 | 725649 | 800000 | 3350525 | 4156990 |
| orada çalışan işçilərin sayı | - | 20 | 50 | 75 | 30 | 30 |

Gətirilən faktlardan maraqlı mənzərə ortaya çıxır. A. Quliyev öz fitri qabiliyyətləri sayəsində çox qısa müddətdə lazımi təcrübəyə yiyələnərək, öz rəqiblərini sürətlə arxada qoymağı və sənayedə aparıcı un istehsalçısına çevrilməyi bacarmışdı. O, öz işində elə müvəffəq olmuşdu ki, tezliklə bütövlükdə Qafqazın sözügedən sahədə əsas iş adamlarından biri olmuşdu.

Müəssisələrinin illik məhsuldarlığının və gəlirlərin sürətlə atması A. Quliyevi biznesini genişləndirməyə sövq edirdi. Bu, “Qafqaz unüyütmə və çəltiktəmizləmə dəyirmanları cəmiyyəti”nin təsisində özünü dolğun göstərmişdi.

Ağabala Quliyev 1913-cü ilin yayında sözügedən cəmiyyətin layhəsini, təsdiq olunması məqsədilə Ticarət və Sənaye Nazirliyinə təqdim etdi. Nəticədə Ticarət və Sənaye Nazirliyi, Qafqaz Canişininin Dəftərxanası və Bakı Xəzinə Palatası arasında 1916-cı ilə kimi davam etmiş uzunsürən yazışmalar getmişdir.

Beləki, Ticarət və Sənaye Nazirliyindən Bakı şəhər rəisinə göndərilmiş 14 avqust 1913-cü il tarixli məktubda qeyd olunurdu ki, Bakı Vağzal küçəsində yaşayan Ağabala Quliyev “Qafqaz Unüyütmə və Çəltiktəmizləmə Dəyirmanları Səhmdar Cəmiyyəti”nin layihəsini təsdiq üçün Ticarət və Sənaye Nazirliyinə təqdim etmişdir. Ona görə də nazirliyin ticarət şöbəsindən Bakı şəhər rəisliyinə göndərilmiş məktubda Ağabala Quliyevin şəxsiyyəti, vəzifəsi və mülkiyyət vəziyyəti barədə müfəssəl məlumat verməyi xahiş edirdi [16, v. 1].

Bu məktuba uyğun olaraq Bakı şəhər rəisi 24 avqust 1913-cü il tarixli məktubla Bakı polis şöbəsinə müraciət edərək Ağabala Quliyev barədə yuxarıda qeyd olunan məlumatları, eləcə də onun ümumi mülkiyyətinin dəyəri barədə ən qısa zamanda məlumat verməyi tələb edirdi [12, v. 2-2 arxa].

Qafqaz Canişininin dəftərxanasından Bakı şəhər rəisinə göndərilmiş məktubda, işin təcili xarakteri nəzərə alınmaqla həmin ilin sentyabrın 15-dən gec olmamaq şərti ilə Ağabala Quliyevin yuxarıda qeyd olunan cəmiyyətinin təsdiqi ilə bağlı fikir və mülahizələrini bildirməyi xahiş edilirdi [13, v. 3].

Bu məktubda qeyd olunurdu ki, onun tərəfindən toplanmış materiallara əsasən Bakı 1-ci gildiya taciri Ağabala Quliyev nəinki Bakıda, bütövlükdə

Qafqazda məhşur olan şəxsiyyətdir. Davranışı yaxşıdır, məhkum olunmayıb və hal-hazırda da istintaq altında deyil. Ağabala Quliyevin Bakı şəhərində olan əmlakı: unüyüdən dəyirman və çəltik təmizləyən zavod; Bakıda 3 ədəd daş evi; Binəqədi, Ramana, Bülbülə, Zığ və Qalada neftli sahələri; Şüvəlanda bağ evi; Stavropol və Georgiyevskdə dəyirmanı var və hal-hazırda Vladiqafqaz dəmir yolunun Beslan stansiyasında böyük nişasta zavodu tikir. Yuxarıda qeyd olunan neftli sahələrdən əldə olunacaq gəliri hesaba almadan hazırda Ağabala Quliyevin sərvəti 5,5 milyon rubldur [18, v. 7-7 arxa].

Bakı Xəzinə Palatasından şəhər rəisinə göndərilmiş 8 sentyabr 1913-cü il tarixli məktubda göstərilirdi ki, Ağabala Quliyevlə bağlı aparılmış təhqiqatın nəticəsində "Qafqaz Unüyütmə və Çəltiktəmizləmə Cəmiyyəti"nin qeydiyyata alınması üçün heç bir maneə görülmür. "Ancaq bu zaman bir şey nəzərə alınmalıdır ki, dövlət mədən vergisi haqqında hazırda qüvvədə olan mövcud əsasnamənin qaydalarına baxılır və gələcəkdə bu qaydalar dəyişə bilər. Ona görə də mən düşünürəm ki, nizamnamənin 43-cü bəndi aşağıdakı şəkildə redaktə olunaraq göstərilsin ki, cəmiyyətin idarəçiliyi fəaliyyətində mövcud qanunvericiliyin tələblərini rəhbər tutur" [15, v. 11-11 arxa].

**Ağabala Quliyevin səhmdar cəmiyyətinin təsis edilməsi:** "Ağabala Quliyevin Qafqaz Unüyütmə və Çəltiktəmizləmə Dəyirmanları Səhmdar Cəmiyyəti"nin təsis iclası 1915-ci ilin mayın 1-də Y.M.Merkelin sədrliyi ilə Ağabala Quliyevin Torqovı küçəsində yerləşən evində baş tutur. Ümumi iclasda cəmiyyətin təsisçisi Ağabala Quliyev, Məliknisa Quliyeva (80 səhm), Molla Ağa Bağırov (40 səhm), Mirzə Ağa Hüseynov (40 səhm), Xristian Ditsel (40 səhm), Y.L.Merkel (5 səhm), Əlimərdan bəy Topçubaşov (5 səhm), Məmmədxan Təkinski (5 səhm), Aleksandr Dammer (5 səhm), Aleksandr Mendeleyev (5 səhm) iştirak edirdi [17, v. 102].

İclası açan Ağabala Quliyev məlumat verir ki, cəmiyyətin 10 may 1914-cü il tarixdə qəbul olunmuş nizamnaməsi Senatın 1914-cü il 5 iyun tarixli qərarı ilə təsdiqlənmişdir. Cəmiyyətin ilk iclasının gündəliyinə aşağıdakı məsələlər salınmışdı:

1) "Cəmiyyət"in Nizamnaməsinin I bəndində göstərilən müəssisələrin Ağabala Quliyevdən alınması və bu müəssisələrin cəmiyyətə təhvil verilməsi şərtlərinin müəyyən edilməsi haqqında;

2) əmlakın təhvil verilməsindən əvvəl yaranan bütün borc və öhdəliklərə görə "Cəmiyyət"in məsuliyyəti haqqında;

3) "Cəmiyyət"in İdarə Heyətinə üzvlərin və namizədlərin seçilməsi və onların mükafatlandırılmasının məbləğinin müəyyən edilməsi haqqında;

4) təftiş komissiyasının üzvlərinin seçilməsi və onların əmək haqqlarının məbləğinin müəyyən edilməsi haqqında;

5) idarə heyətinə borc pul almaq hüququnun verilməsi və bu kreditin məbləği haqqında;

6) idarə heyətinə hər cür daşınan və daşınmaz əmlakı əldə etmək və icarəyə götürmək hüququnun verilməsi haqqında;

7) İdarə heyətinə səhmlərə görə Dövlət Bankından pul almaq hüququnun verilməsi haqqında;

8) iclasın gedişi zamanı meydana çıxacaq məsələlər haqqında [17, v. 102-102 arxa].

İclasda yekdilliklə aşağıdakılar qərara alınmışdı:

Cəmiyyətin Nizamnaməsinə uyğun olaraq təsisçilər tərəfindən müəyyən edilmiş xüsusi komissiyanın qərarına əsasən Ağabala Quliyevin bütün müəssisələrinin əmlakı, xammalları(tullantıları ilə birlikdə), bütün müqavilələri, borc öhdəlikləri ilə ondan alınsın. Ağabala Quliyevin müəssisəyə olan 80 min rubl, A.K.Anpetkov tərəfindən onun Stavropoldakı dəyirmanı üçün verilmiş ipoteka və A.İ.Qarabəyov tərəfindən ona Bakıdakı ev üçün verilmiş 3 milyon rubl miqdarında ipoteka borcu istisna olmaqla, Cəmiyyət Quliyevin qeydiyyat kitablarında göstərilmiş, üçüncü şəxslərə olan borc öhdəlikləri ilə birlikdə onun əmlakına və müəssisələrinə olan borc və öhdəlikləri öz üzərinə götürürdü. İclasın qərarı ilə Şuraya, bankdan borc almaq, istənilən növ daşınan və daşınmaz əmlakı almaq və icarəyə götürmək, öz mülahizəsinə uyğun olaraq müəyyən məbləğə kredit vermək və veksellər buraxmaq hüququ verilirdi. Bircə məsələnin yeniliyi ilə əlaqədar Şura qarşıdan gələn əməliyyat ili üçün büdcələrin tərtibi məsələsindən azad olunurdu [17, v. 103].

İclasda Cəmiyyətin üç nəfərdən ibarət idarə heyəti seçilirdi: Ağabala Quliyev cəmiyyətin sərəncamçı direktoru, Molla Ağa Bağırov və Mirzə Ağa Hüseynov isə cəmiyyətin direktorları seçildilər. Cəmiyyətin idarə heyətinin üzvlüyünə Məliknisa Quliyeva, Ələkbər Məmmədov və Xristian Ditsel seçildi. Təftiş komissiyasının üzlüyünə Y.L.Merkel, Əlimərdan bəy Topçubaşov, Məmməd xan Təkinski, Aleksandr Dammer və Aleksandr Mendeleyev seçildi. Cəmiyyətin bütün müəssisələrinin idarəçiliyi Ağabala Quliyevə, Stavropoldakı dəyirmanın idarəsi Molla Ağa Bağırova, Georgiyevskidəki dəyirmanın idarəsi isə Ələkbər Məmmədova həvalə olundu. Ağabala Quliyevə ildə 10 min rubl mükafat və səfərlər üçün ayda 500 rubl pul müəyyən olunur. Molla Ağa Bağırova ildə 6 min rubl və Stavropol dəyirmanının xalis gəlirindən 5 faizi ayrıldı. Mirzə Ağa Hüseynova ildə 3 min rubl, Məliknisa Quliyevaya ildə 10 min rubl, Ələkbər Məmmədova ildə 3 min rubl və Georgiyevsk dəyirmanının xalis gəlirindən 5 faizi, Xristian Ditselə ildə 4500 rubl, təftiş komissiyasının üzvləri Merkel, Dammer və Mendeleyevin hər birinə ildə 300 rubl əmək haqqı müəyyən olundu. Bu zaman Ə. Topçubaşov və M. Təkinski mükafatdan imtina etdilər [17, v. 102-103].

"Ağabala Quliyevin Qafqaz Unüyütmə və Çəltiktəmizləmə Dəyirmanları Səhmdar Cəmiyyəti"ndən Bakı 2-ci sahə fabrik müfəttişinə göndərilmiş 6 may 1915-ci il tarixli məktubda göstərilirdi ki, həmin ilin mayın 1-dən etibarən Bakı

1-ci gildiya taciri Ağabala Quliyevin Bakı, Stavropol və Georgiyevskdəki dəyirmanları bu cəmiyyətin mülkiyyətinə keçmişdir. Bundan sonra bu müəssisələrlə bağlı bütün əməliyyatlar həmin cəmiyyət tərəfindən və onun adından aparılacaqdır [14, v. 101].

Ağabala Quliyevin Unüyüdən və Düyütəmizləyən Səhmdar Cəmiyyəti 1915-ci ilin mayın 1-dən 1916-cı ilin yanvarın 1-dək 388271 rubl 5 qəpik gəlir əldə etmişdi; Cəmiyyətin 1916-cı ilin yanvarın 1-i üçün 6732246 rubl vəsaiti var idi. Əldə olunan mənfəətdən 135000 rubl səhmdarlara verilmiş, yerdə qalan 253276 rubl cəmiyyətin sərmayəsinə əlavə edilmişdi [1].

Cəmiyyətin fəaliyyətinin çevrəsinə Bakı, Stavropol, Georgiyevsk daxil idi. Un Qafqazda, Sankt-Peterburqda və İranda satılırdı [5, s. 45]. Cəmiyyətin Bakı, Stavropol, Georgiyevsk və Beslanda şöbələri fəaliyyət göstərirdi [8, v. 12].

Beləliklə, XX əsrin ikinci onilliyinin ortalarında o dönəmdə bütövlükdə yeyinti sənayesində baş verən istehsalın təmərküzləşməsi və inhisarlaşması prosesləri gedişində "Ağabala Quliyevin Qafqaz Unüyüdən və Çəltiktəmizləyən Dəyirmanları Səhmdar Cəmiyyəti" yarandı. Araşdırmalarımız göstərir ki, ən qısa müddət ərzində sözügedən cəmiyyət təkcə Bakı quberniyasının deyil, ümumən Qafqazın un məmulatları ilə təminatında aparıcı mövqe tutmuşdu. Bu cəmiyyət Bakıdan başqa, Stavropolda, Beslanda, Georgiyevskdə öz filiallarını açmışdı. Təsadüfi deyildir ki, Birinci Dünya Müharibəsinin əvvəllərində Stavropol unüyütmə sənayesinin 70%-ə qədəri cəmiyyətin əlində idi.

## Ədəbiyyat


1. Dəyirmançılar arasında. // "Açıq söz" qəzeti. 14 iyun, 1916, №211, 2 s.
2. Nəbiyev R.İ. XX əsrin əvvəllərində Bakı şəhərinin ərzaq təchizatı. Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2011,158 s.
3. Nuriyeva Z.N. Azərbaycan sənayesində milli burjuaziya. Bakı: Altay nəşriyyatı, 1999. 108 s.
4. Vəliyeva X.T XIX əsrin axırları – XX əsrin əvvəllərində Şimali Azərbaycanın yueyinti sənayesinin tarixi. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. AMEA, A.A. Bakıxanov ad. Tarix İn-tu.-B., 2013. 198 s.
5. Качанов А.А. Социально-экономическое развитие Ставрополья в годы первой Мировой войны (1914-1918 гг.). Ставропол, 2018, 265 с.
6. Исмаилов М.А. Промышленность Баку в начале XX века. Баку: Элм, 1976,152 с.

7. Лященко П.И. Мукомольная промышленность России и иностранные потребительские рынки. 2-е изд., испр. и доп. Санкт-Петербург : тип. Ред. пер. изд. М-ва фин., 1910. 131 с.
8. Мельница Гулиева. 1917-1920 гг. //ARDTA, f. 575, siy. 1 iş 1, 1-171 v.
9. Обработка пищевых и вкусных веществ // Ежегодник. Баку и его районы. Адресная и справочная книга. 1909 год. Издание М.С. Шапсовича. отдель 2-й, 187-188 s.
10. Обработка предметов потребления. Баку. //Промышленность и торговля г. Баку и его района. Ежегодник с адрес-календарем//. 1907 год. Часть 2-я, отдел 1-й, 44-45 с.
11. Оленева А.Н. Этапы развития акционерных обществ в России // Труды Института государства и права Российской академии наук. 2015, № 6, 29-38 с.
12. Отношение Бакинского градоначальника Бакинскому полицмейстеру, от 24-го августа 1913 года. //ARDTA, f. 46, siy. 4, iş 406, v. 2-2 arxa.
13. Отношение директора канцелярии кавказского наместника Бакинскому градоначальнику, от 28-го августа 1913 года. //ARDTA, f. 46, siy. 4, iş 406, v. 3
14. Отношение директора распорядителя «Кавказского акционерного общество мукомольных и рисоочистительных мельниц «Ага Бала Гулиев» фабричному инспектору 2-го участка г. Баку, от 6-го мая 1915 г., //ARDTA, f. 509, siy. 1, iş 105, v. 101
15. Отношение управляющего Бакинскою казенною палатою Бакинскому градоначальнику, от 8-го сентября 1913 года. //ARDTA, f. 46, siy. 4, iş 406, v. 11-11 arxa.
16. Отношение управляющего отделом торговли министерство торговли и промышленности Бакинскому градоначальнику, от 14-го августа 1913 года. //ARDTA, f. 46, siy. 4, iş 406, v. 1
17. Протокол учредительного собрания «Кавказского акционерного общество мукомольных и рисоочистительных мельниц «Ага Бала Гулиев». 1-е мая 1915 г. //ARDTA, f. 509, siy. 1 iş 105, v. 102-103
18. Секретное отношение пристава 7-го участка Бакинского полицмейстерства Бакинскому полицмейстеру, от 26-го августа 1913 года. // ARDTA, f. 46, siy. 4, iş 406, v. 7-7 arxa.
19. Сеидзаде, Д.Б. Из истории Азербайджанской буржуазии начала XX века. // Баку: Элм, 1991. 138 с.
20. Список промышленных заведений Бакинской губернии. 1902 год. //ARDTA, f. 509, siy. 1 iş 16, л. 1-2

21. Список фабрик и заводов всей России. Под ред. Варзара В.Е. 1912 год, часть 2-я, s. 40
22. Список фабрично-заводских предприятий, которым разрешено установка паровых котлов. 1902 год. // ARDTA, f. 509, siy. 1 iş 65, v. 5 arxa, 8 arxa, 13 arxa
23. Статистические сведения к отчету инспекции за 1904 год с указанием количеств рабочих, производительности рабочих, заработной платы и жалоб рабочих. 1904 год. //ARDTA, f. 509, siy. 1, iş 115, v. 5
24. Сумбатзаде, А.С. Промышленность Азербайджана в XIX в. Баку: изд-во АН Аз.ССР, 1964. 501 с.
25. Фабричная инспекция Бакинской губернии. 1903-1904 гг. //ARDTA, f. 509, siy. 1 iş 106, л. 4 arxa-5 arxa

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 3 (44), s.112-118

# AZƏRBAYCAN MÜHACİRLƏRİNİN ALMANİYADA FƏALİYYƏTİ

**Vüqar Abdullayev**
*Milli Azərbaycan Tarixi Muzeyi*
raguv@mail.ru

***Açar sözləri:*** *Azərbaycanlı mühacirlər, M.Ə.Rəsulzadə, Almaniyada mühacirlərin fəaliyyəti*

*Məqalə M.Ə.Rəsulzadənin 140 illik yubileyinə həsr olunmuşdur. M. Rəsulzadənin Almaniyada mühacirlik fəaliyyəti müəllif tərəfindən araşdırılaraq məqalədə əks olunmuşdur. İyirmi iki ildən artıq bir müddətdə mühacir həyatı yaşayan M.Ə.Rəsulzadə öz xalqının, millətinin azadlığını, dövlətinin müstəqilliyini uca tutmuşdur. O, Azərbaycanın müstəqilliyini hər şeydən üstün tutduğunu deməkdən çəkinməmişdir. Mühacir həyatı yaşadığı bütün ölkələrdə M.Ə.Rəsulzadənin bir məqsədi, bir qayəsi olmuşdur: - Azərbaycanın müstəqilliyi! Almaniyada mühacir həyatı yaşayan M.Ə. Rəsulzadə bu ölkədə "Qurtuluş", "Azərbaycan" və digər jurnallar yaradaraq mühacir həyatı yaşayan azərbaycanlıların öz azadlıqları uğrunda apardıqları mübarizəni dəstəkləmişdir. Onun Berlində "Çağdaş Azərbaycan ədəbiyyatı" kitabını türk dilində çap etdirməsi mühacir həyatı yaşayan azərbaycanlılara dayaq olmuşdur. "Azərbaycan problemi" mövzusunda Almaniyanın müxtəlif şəhərlərində keçirdiyi konfranslarda çıxış etməklə azərbaycanlı mühacirlərin bir amal uğrunda birləşməsinə nail olmuşdur.*

## ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКИХ МИГРАНТОВ В ГЕРМАНИИ

**Вугар Абдуллаев**

***Ключевые слова:*** *Азербайджанские иммигранты, М.А. Расулзаде, деятельность иммигрантов в Германии*

*Статья посвящена 140-летию М.А. Расулзаде. Эмиграционная деятельность М. Расулзаде в Германии исследована автором и отражена в статье. М.А.Расулзаде, проживший в эмиграции более двадцати двух лет, ценил свободу своего народа, своей нации, независимость своего государства. Он, не колеблясь, заявил, что ставит независимость Азербайджана превыше всего. Во всех странах, где он жил как эмигрант, М.А.Расулзаде преследовал одну цель: - Независимость Азербайджана!*

*M.A. Расулзаде поддержал борьбу азербайджанцев, проживавщих в эмиграции, за свою свободу, создав в этой стране журналы «Куртулуш», «Азербайджан» и другие. Изданная им книга «Современная азербайджанская литература» на турецком языке в Берлине стала поддержкой азербайджанцев, живущих в эмиграции. Выступая на конференциях, проводимых в различных городах Германии на тему «Азербайджанская проблема», ему удалось объединить азербайджанских иммигрантов ради общего дела.*

## ACTIVITIES OF AZERBAIJANI MIGRANTS IN GERMANY

**Vugar Abdullayev**

***Key words:*** *Azerbaijani immigrants, M.A. Rasulzade, immigrant activities in Germany*

*The article is dedicated to the 140th anniversary of M.A. Rasulzade. The emigration activities of M. Rasulzade in Germany are studied by the author and reflected in the article. M.A. Rasulzade, who lived in emigration for more than twenty-two years, valued the freedom of his people, his nation, the independence of his state. He did not hesitate to declare that he puts the independence of Azerbaijan above all else. In all the countries where he lived as an emigrant, M.A. Rasulzade pursued one goal: - Independence of Azerbaijan! M.A. Rasulzade supported the struggle of Azerbaijanis living in exile for their freedom by creating the magazines "Kurtulush", "Azerbaijan" and others in this country. His publication of the book "Modern Azerbaijani Literature" in Turkish in Berlin became a support for Azerbaijanis living in exile. He managed to unite Azerbaijani immigrants for a common cause.*

Almaniyada mühacir həyatı yaşayan həmyerlilərimiz haqqında mətbuatda müxtəlif illərdə məqalələr, kitablar yazılmışdır. Xüsusən belə yazılara müstəqillik dövrümüzdə daha çox təsadüf olunur [1,2,3,4]. Məlum olduğu kimi, azərbaycanlıların Almaniyaya mühacirət tarixi çox-çox qədimlərə gedir. Hələ Çar Rusiyası dövründə, bəlkə də ondan da əvvəlki dövrlərdə Almaniyada mühacir həyatı yaşayan ziyalılarımız olmuşdur [2]. Azərbaycanın neftindən, bu diyarın sərvətlərindən geninə-boluna istifadə edən Çar Rusiyası vətənimizin düşünən başlarından, ziyalılarından həmişə ehtiyat etmiş, bu diyarı daim nəzarətdə saxlamışdır. Elə həmin dövrlərdən başlayaraq, "islamafobiya" xəstəliyinə düçar olanlar, xüsusilə Azərbaycanın Türkiyə ilə əlaqələrini həmişə diqqətlə izləmişdir. Lakin bununla belə, hətta Çar Rusiyası dövründə də Almaniyaya mühacirət etmiş ziyalılarımız olmuşdur [2]. Bu dövrdə

Almaniyada yaşayan həmyerlilərimizdən olan Əsəd bəy (Lev Nissenbaum) alman xalqının mədəni həyatına böyük töhvələr vermişdir. Onun "Əli və Nino" əsəri Çar Rusiyasının iflasa uğradığı Azərbaycanda azadlıq mücadiləsi apardığı bir dövrü əhatə etmiş, Almaniyalı oxuculara Azərbaycan mədəniyyətini, onun əxlaqi dəyərlərini çatdıra bilmişdir. Qurban Səid təxəllüsü ilə yazdığı əsər Almaniyada 1933 – cü ildə, alman dilində çap edilmişdir. O dövrdə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məmmədəmin Rəsulzadə, Ceyhun Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Hadi, Banin, Almaz İldırım kimi azərbaycanlı ziyalılar Almaniyada bu xalqı Azərbaycan adlı bir dövlətin mövcudluğu, onun zəkalı və mədəni xalq olması haqqında məlumatlandırmışlar.

Azərbaycan xalqı Çar Rusiyası dövründə və sonrakı dövrlərdə də öz mübarizlik ruhunu itirməmişdir. Bu dövrlərdə keçirilən həbslər, məhrumiyyətlər xalqın döyüşkən ruhunu sarsıda bilməmişdir.

Azərbaycanda azadlıq hərəkatının təşəkkül tapması, xüsusi ilə Rusiya İmperiyasının süqutundan sonra daha da geniş vüsət almışdır. Bu dövrdə xalqın düşünən başları, görkəmli ziyalıları birləşərək Azərbaycanda cümhuriyyətin qələbəsinə nail olmuşdur. 1918-ci il, 28 mayda Məmmədəmin Rəsulzadənin sədri olduğu Azərbaycan Milli Şurası Azərbaycanın istiqlalını bəyan etmiş və 6 maddədən ibarət olan "Azərbaycan İstiqlal Bəyamnaməsi" ni qəbul etmişdir. Həmin gün Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökümət kabinəsi təşkil edilmiş və Fətəli Xan Xoyski bu kabinetin sədri elan olunmuşdur. Mövcud olduğu dövrdə bir çox ölkələrə, o cümlədən Almaniyaya nümayəndə heyəti ilə səfər edən ziyalılarımız Qafqaz dövlətləri əməkdaşlığı çərçivəsində konfrans və yığıncaqlarda iştirak etmişlər [4]. Lakin Azərbaycanın müstəqil olması dünya ölkələrinə, əsasəndə Türkiyəyə yaxınlaşması Çar Rusiyasından miras qalmış ideologiyanı əks etmiş Rus inqilabi dövlətinə heç cür rahatlıq verməmişdir. Azərbaycanda Cümhuriyyətin qələbəsidən sonra digər Qafqaz ölkələrində yaradılan müstəqil dövlətlər, M.Ə.Rəsulzadənin məşhur "Bir kərə yüksələn bayraq bir daha enməz!" kəlamı Rus imperiyalı düşüncəlilərin yuxusuna haram qatmışdır. Apardıqları "anti-azərbaycan" siyasəti, "islamafobiya" ideologiyası nəhayət bolşeviklərin məkirliyi ilə Cümhuriyyətin süqutuna və Cümhuriyyət fədailərinin, rəhbərlərinin təqibinə gətirib çıxarmışdır. Cümhuriyyətin rəhbəri, Azərbaycan Milli Şurasının sədri, M.Ə. Rəsulzadə həbs edilmişdir. Vaxtı ilə (1906-cı ildə) Stalinin Bakıda həbsdən qaçmasına kömək etdiyi üçün İ.V. Stalin 1920 – ci ilin noyabr ayında Bakıya gəlmiş və M.Ə.Rəsulzadəni həbsdən azad edərək Moskvaya aparmışdır. Rəsulzadəyə müxtəlif vəzifələr təklif olunsa da o, bunların heç birini qəbul etməmiş, ezamiyyət adı ilə Sankt-Peterburqa gəlmiş, ordan Finlandiyaya, buradan isə Fransaya, sonra Almaniyanın Berlin şəhərinə və nəhayət qərara aldığı kimi Türkiyəyə gəlmişdir. 1922 – ci ilin oktyabr və noyabr ayında artıq Türkiyədə - İstanbul qərar tutmuş [4], və fəaliyyətə başlamışdır. Burada yaratdığı dərnəklər, mətbuat nümunələri ilə yanaşı onun

1923 – cü il, 26 sentyabrda "Yeni Qafqaziya" jurnalını xüsusilə qeyd etmək lazımdır. Bu Azərbaycan mühacirət mətbuatının ilk qaranquşu idi. Bu jurnalda çap olunan məqalələrdə Qafqaz xalqlarının əməkdaşlılğı, erməni millətçilərinin, rus bolşeviklərinin törətdiyi vəhşiliklərdən, həmyerlilərimizin çəkdiyi əzab-əziyyətdən, Azərbaycanlıların yaşadığı mühacir həyatından bəhs edilirdi. Cümhuriyyət dövründə Avropanın müxtəlif ölkələrinə, o cümlədən Almaniyaya göndərilmiş Azərbaycanlı tələbələrin Cümhuriyyətin süqutundan sonra keçirtdikləri sarsıntılar, təhsillərini başa vura bilməmələri, geri dönən tələbələrin üzləşdikləri çətinliklər, onların bolşevik dövləti agentləri tərəfindən təqibləri və digər üzləşdikləri məhrumiyyətlər haqqında olan yazılar bu jurnalda ürək ağrısı ilə çap olunmuşdur.

Lakin M.Rəsulzdənin və ətrafında olan müsavat missionerlərinin Türkiyədəki fəaliyyəti SSRİ dövlətinə heç cür rahatlıq vermirdi. Stalinin göstərişi ilə 1931 – ci ildə Ankarada Türkiyə Xarici İşlər naziri T. Rüşdü ilə SSRİ Xarici İşlər naziri Livinov arasında imzalanan müqaviləyə əsasən Türkiyə dövləti fəal mühacirləri ölkəsindən getməyə məcbur edir və SSRİ əleyhinə təbliğata imkan vermir. Avropaya getməzdən əvvəl, M.Ə. Rəsulzadə Atatürkün iqamətgahında onunla görüşür, görüşdə Atatürk Məmməd Əmin Rəsulzadəyə müraciət edərək deyir: "Əmin bəy, mən səndən bir neçə yaş böyük olsam da, ancaq bayrağı, türk xalqının azadlıq bayrağını sən qaldırdın və dedin: "Bir kərə qalxan bayraq, bir daha enməz!" Ancaq mən bu bayrağı tutdum və öz türk xalqımın üzərində dalğalandırdım!" Sən dedin: "Bu bayraq enməyəcək". Belə də olacaq!"[1]. M.Ə.Rəsulzadə isə bunun cavabında bildirir ki, türk dünyasının azadlıq bayrağı ikidir. Biri Atatürkün əlindədir, ikincisinə isə o, Məmmədəmin Rəsulzadə söykənmişdir.

M.Ə.Rəsulzadə və onun məsləkdaşları Türkiyəni tərk edərək Almaniyaya, sonra Polşaya gəlmişlər. Polşada yaşasa da Almaniyanın mətbuat orqanlarından fəal istifadə etmiş və 1932 – ci ildə, 10 yanvarda Almaniyada, Berlin şəhərində "İstiqlal" qəzetini nəşr etdirmişdir. 1934 – cü ilin noyabr ayında isə Almaniyada onun redaktorluğu ilə "Qurtuluş" jurnalı işıq üzü görmüşdür, 1936-cı ildə yenə həmin Berlin şəhərində "Çağdaş Azərbaycan ədəbiyyatı" kitabını Türkiyə türkcəsində, Parisdə isə rusca çap etdirmiş, 1937-ci il 21 mayda "Azərbaycan problemi" mövzusunda 200-ə qədər şəxsin iştirak etdiyi Berlinin Humbold ali məktəbinin klubunda maraqlı çıxış etmişdir. Tədbirdə müxtəlif nazirliklərin, müəssisə, elm və mətbuat sahəsinin təmsilçiləri iştirak etmişdir [4]. 1937-ci ildə Almaniyada alman dilində "Azərbaycan problemi" kitabını çap etdirmişdir. 1937-ci il 2-22 may tarixlərində Almaniyanın Berlin şəhərində olan M.Ə.Rəsulzadə "Almaniyanın Nasional Sosialist Fəhlə Partiyası"nın xarici siyasət idarəsinin, Almaniya Təbliğat Nazirliyinin yüksək vəzifəli məmurları ilə görüşmüşdür. Görüşlərdə M.Ə.Rə-

sulzadə müəyyən etmişdir ki, bu dairələr Sovetlər Birliyinin milli problemləri ilə çox ciddi maraqlanır [4].

Yuxarıda yazdığımız kimi Azərbaycanlı mühacirlərin Almaniyaya üz tutması müxtəlif dövrləri əhatə etmişdir. Bu dövrlərdən xüsusilə 1941-1945 ci illərdə keçmiş Sovetlər Birliyi ilə Almaniya arasında baş verən İkinici Dünya müharibəsini qeyd etməliyik. Hələ müharibənin ilk illlərində çoxsaylı Azərbaycanlı əsirlər Almaniyaya aparılmışdır. Əsirlərin milli mənsubiyyətinə görə ayrılması, onlara işgəncə verilməsi, SSRİ yə qarşı vuruşmağa məcbur edilməsi, casusluq və digər təkliflər olmuşdur. O zaman Almaniya tərəfinə keçən Azərbaycanlı əsirlərin sayı 150 minə yaxın olmuşdur [1].

Həmin illər M.Ə.Rəsulzadə Buxarestdə yaşasa da Azərbaycanlı əsirlərin xilasına çalışırdı. Almaniya hakimiyyət dairələri ilə danışıqlar aparır, "Azərbaycan Milli Komitəsi" ni yaradaraq, Azərbaycanın Milli haqqlarını qorumaq uğrunda mübarizə aparırdı. Elə həmin dövrdə yaratdığı "Azərbaycan Milli Komissiyası" Almaniyada olan Azərbaycanlı əsirlərin hüququnu qorumaq üçün fəaliyyət göstərirdi. M.Ə.Rəsulzadənin yaratdığı "Milli Azərbaycan Komitəsi" (1943) Almaniya höküməti təmsilçiləri tərəfindən elə də rəğbət ilə qarşılanmamışdı. Bu dövrdə öz ölkəsinin müstəqilliyi, Almaniyada yaşayan mühacirlərin hüququnun müdafiəsi tək Azərbaycanlıların deyil, digər Qafqaz xalqlarının da arzusu idi. M.Ə.Rəsulzadə bu barədə yazırdı: "1943 – cü ildir. İkinci Cahan hərbi əsnasında Alman Xariciyyə Nazirliyindən Fon Surenburqin, (sonradan Hitlerə yapılan sui qəsd işi ilə edam edilən) dəvəti üzərinə Berlində idim. Milli Azərbaycan komitəsi təşəkkül etmişdi. Bu komitə Milli Azərbaycan davasının əsaslarını Alman məqamlarına qəbul etdirmək üzrə fəaliyyətə keçmişdi"[3].

M.Ə.Rəsulzadənin başçılıq etdiyi Milli Azərbaycan komitəsi bu proqramla mübarizə aparırdı: "Azərbaycan Milli haqqlarını qorumaq, vətənin xilası ilə istiqlalı üçün mübarizə etmək, Qafqazıyalı millətin dostluqları və siyasətcə bir yerdə yaşamaları üçün çalışmaq və Almaniya ilə sıxı surətdə iş birliyi təmin etmək"[3]. Lakin qeyd etməliyik ki, M.Ə.Rəsulzadənin bu dövrdə apardığı mücadilələr Azərbaycanlı əsirlərin yəhudilər ilə birlikdə soyqırıma məruz qalmasına qarşı apardığı siyasi qarşıdurmalar və səylər, Azərbaycanlı əsirlərin müdafiəsi üçün yaratdığı "Azərbaycan Milli Komissiyası", keçmiş SSRİ rəhbərliyi tərəfindən birmənalı qarşılanmamışdır. Əlbəttə ikili standartlar Azərbaycan və Azərbaycanlılara qarşı həmişə mövcud olmuşdur, bu gündə mövcud olaraq qalmaqdadır. Həmin illərdə tariximizi saxtalaşdırmağa cəhd edənlər, M.Ə.Rəsulzadəni hitlerçilərlə əməkdaşlıq etməkdə ittiham etmişlər. Onun müharibə zamanı A.Hitler ilə görüşərək Azərbaycanlı hərbi əsirlərin həyatı ilə maraqlanması, onların aqibəti, soyqırımdan xilası, müharibədən sonrakı dövrdə Azərbaycanlı legion üzvlərinin taleyinə biganə qalmaması, onlara dəstək olması və bununla əlaqədar həqiqətlərin, onların doğru şərhinin

dünyaya çatdırılması, heç şübhəsiz ki, müasir tarixşünaslıqda yetərincə qeyd edilmişdir.

Professor M.Əmrahov, Rəfiylinin, A. Hitlerlə M.Ə.Rəsulzadənin görüşü haqqındakı yazısına istinadən A.Hitlerlə M.Ə.Rəsulzadə arasında gedən dialoqdan nümunə gətirir. Bu dialoqdan məlum olur ki, M.Ə.Rəsulzadə Azərbaycanlı əsirlərin SSRİ-ə qarşı vuruşmasının əsas səbəbini Rus bolşevizminə zərbə olduğunu söyləmişdir. A.Hitlerin onu güneyli-qüzeyli bütöv Azərbaycanın və tamam Qafqazın baş canişini təyin edəcəyini eşidən M.Ə.Rəsulzadə, ona cavabında belə demişdir: "Razıyam, cənab kansler, bir şərtim var, gərək Almaniya mənim bütöv Azərbaycanımın dövlət müstəqilliyini tanısın, suverenliyimizə hörmətlə yanaşsın." Cavab Hitleri qəzəbləndirsə də, "mən Sizə geniş fəaliyyət dairəsi bağışlayıram, bir də düşünün." - demişdir. M.Ə.Rəsulzadə: "Mən də Sizin kimi vətənimin azadlığı və istiqlal arzusunu əsas tuturam. Musavat, bütöv Azərbaycan Sizin Almaniyanın etibarlı müttəfiqi olacaqdır" [Rəfiyli, 1992-2002].

Fürerin hiddətinə səbəb olan belə cavabı yəqin ki, o, heç vaxt və heç kəsdən eşitməmişdi [1]. M.Ə.Rəsulzadə A.Hitlerə qəti şəkildə bildirmişdi ki, Azərbaycan heç vaxt Alman tabeliyində müstəqil ola bilməz. Onun bu ideologiyası əlbəttə Alman hökümətini qane edə bilməzdi və ona görə də o, 1943 –cü ilin noyabrında "qeyri-qənaətbəxş" işinə görə almanlar tərəfindən "Azərbaycan Milli Komitəsi" nin rəhbərliyindən uzaqlaşdırıldı və Buxarestə qayıtmışdır. Buxarestdə yaşamasına rəğmən 1947-ci ildə, Münxendə 30 səhifəlik "Azərbaycan tarixi" kitabını çap etdirdi, Azərbaycan – Türkiyə cəmiyyətini yaratdı və bu cəmiyyət vasitəsi ilə Azərbaycanlıların Almaniyadan Türkiyəyə getməsini təmin etdi. Dostları, (başda Həmdullah Sübhi Tanrı Övər olmaqla) onun Türkiyəyə qayıtması üçün xariciyyə vəkili ilə görüşüb danışdılar. Türkiyə prezidenti İsmət İnönün sərəncamı ilə Türkiyəyə qayıtmasına icazə ala bildilər [4].

1951 – ci ildə, 18 yanvarda ABŞ dövlətinin dəstəyi ilə "SSRİ xalqlarının azadlığı uğrunda Amerika Komitəsi" yaradılır və Rəsulzadə İtaliyaya və Almaniyaya dəvət olunur, əməkdaşlığa çağırılır [4].

1951 – ci il Münxendə "Amerika komitəsi" nin təşkilatçılığı ilə M.Ə.Rəsulzadənin başçılıq etdiyi "Azərbaycan Milli Mərkəzi" Məhəmməd Kəngərlinin timsalında tədbirdə təmsil olunur [4].

1952-ci il, 11-16 dekabr tarixlərində Münxendə "Ümumqafqaz konfransı" keçirilir və Rəsulzadə burada iştirak edir. 1953-cü ildə M.Ə.Rəsulzadə "Amerika komitəsi" nin dəvəti ilə Almaniyaya gedir. Azərbaycan istiqlalının 35 illiyi münasibəti ilə Amerikanın səsi radiosunda çıxış edir və səsi vala yazılaraq ona bağışlanır [4].

İyirmi iki ildən artıq bir müddətdə mühacir həyatı yaşayan M.Ə.Rəsulzadə öz xalqının, millətinin azadlığını, dövlətinin müstəqilliyini uca

tutmuşdur. O, A. Hitlerin özünə belə Azərbaycanın müstəqilliyini hər şeydən üstün tutduğunu deməkdən çəkinməmişdir. Onu nə Hitler, nə də Stalinin "geniş fəaliyyət dairəsi" təklifləri maraqlandırmamışdır. Mühacir həyatı yaşadığı bütün ölkələrdə onun bir məqsədi, bir qayəsi olmuşdur: - Azərbaycanın müstəqilliyi!

M.Ə.Rəsulzadə müxtəlif illərdə Almaniyada keçirdiyi mühacir həyatında, xüsusilə müharibə və müharibədən sonrakı illərdə azərbaycanlı əsirlərin xilası üçün çalışdığını yuxarıda qeyd etmişdir. Xüsusən azərbaycanlı əsirlərin xilasına yol açan "Milli Azərbaycan Komitəsi" nin yaradılması, onları çox sevindirmişdir. O zaman Azərbaycan leqionerlərinə başçılıq edənlərdən mayor Ə. Fətəlibəyli Düdənginski, M.Ə.Rəsulzadəyə aşağıdakı məzmunda bir məktub göndərmişdi: "Mərhəba, çox möhtərəm Məmməd Əmin! Əziz yurdumuz Azərbaycanın yorulmaz hürriyyət mücahidi olan sizi cəbhədəki bütün əsgərlərimiz adından salamlayıram."

Azərbaycan Cümhuriyyətinin yaradıcılarından olan M.Rəsulzadə demək olar ki, bütün şüurlu həyatını Azərbaycanın dövlət müstəqilliyinə, azərbaycan xalqının azadlığına həsr etmişdir və Almaniyada zaman-zaman mühacir həyatı yaşadığı dövrlərdə də bu amal uğrunda mübarizə aparmışdır. Mühacir həyatı yaşadığı ölkələrdə, o cümlədən Almaniyada yaratdığı mətbuat orqanları, komitələr, konfranslarda olan bütün çağırış və çıxışları ilə o, azərbaycançılıq ruhunu daima yaşatmağa nail olmuşdur.

## Ədəbiyyat


1. Əmrahov. M. – "Azərbaycan legionerləri: Saxtalaşdırılmış tarix və reallıqlar" – Bakı,2023,21 səh.
2. Quliyev. Г. «Azərbaycanın mühacir ədəbiyyatı"- BSU, 2001, 100 səh.
3. Yaqublu. N. – "Azərbaycan legionerləri" – Çıraq, 2005, 22 səh.
4. Yaqublu. N. – "Məmmədəmin Rəsulzadə" - AVCIXA, 2014, 103 səh.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 3 (44), s.119-126

# DƏYİŞƏN DÜNYA MÜSTƏVİSİNDƏ DƏYİŞMƏYƏN MİR CƏLAL FENOMENİ YARADICILIĞINDA YAZIÇI, ALİM VƏ PEDAQOQ ZİRVƏSİ

**Xankişi Məmmədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
kankishimamedov_53@mail.ru

**Riyad Rüstəmli**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
riyadrustamli@yahoo.com

**Açar sözlər:**, *Heydər Əliyev,Mir Cəlal Paşayev, təbiət, folklor, tərbiyə nümunələri*

*Məqalədə XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, Azərbaycan elminin, eyni zamanda ədəbiyyatının həm inkişafında, həm də onun məzmunca zənginləşməsində təkrarsız və əvəzsiz xidmətləri olan istedadlı ədib, qüdrətli qələm sahibi, fədakar maarif xadimi, müdrik alim və ləyaqətli insan Mir Cəlal müəllim fenomeninin yaradıcılığında təbiət, folklor və tərbiyə örnəkləri tədqiq edilir. Qeyd edilir ki, dünyada elə insanlar var ki, onlar yüzə-yüz dəyişmirlər, sabit qalırlar, öz nüfuzlarını, şəxsiyyətlərini, samballarını qoruyub saxlaya bilirlər. Sözü bütöv, sözünü dəyişməyən, sözünü danmayan, söz verib ona əməl edən, xeyirxahlıq üçün canından keçən, ömrünü xalqına, millətinə, dövlətinə həsr edən bu cür insanlar nadir, az-az dünyaya gələn, başqa sözlə fenomen insanlar adlanır. Məsələn, Heydər Əliyev fenomeni, İlham Əliyev fenomeni kimi. Ədəbi aləmdə bu ada layiq olanlar içərisində Mir Cəlal Paşayev fenomeni birincilərin birincisi sırasında qərarlaşıb. Qeyd olunur ki, Mir Cəlal müəllim ədəbiyyatımızda yeni mərhələdir, onun yaradıcılığının tədqiqi isə böyük əhəmiyyət daşıyır. Bu yazıda bu və dugər məsələlər öz əksini tapmışdır.*

## ВЕРШИНА ТВОРЧЕСТВА НЕИЗМЕННОГО ФЕНОМЕНА - ПИСАТЕЛЯ, УЧЕНОГО И ПЕДАГОГА МИР ДЖАЛАЛА В МЕНЯЮЩЕМСЯ МИРЕ

**Ханкиши Мамедов**
**Рияд Рустамлы**

**Ключевые слова:** *Гейдар* Алиев, *Мир Джалал Пашаев, природа, фольклор, просветительские примеры*

*В статье на примере природы, фольклора и образования рассматривается феномен Мир Джалала - выдающегося представителя истории отечественной литературно-художественной мысли XX века, талантливого и могучего писателя, самоотверженного педагога, мудрого ученого и достойного человека, имевшего уникальные и незаменимые заслуги в развитии азербайджанской науки и литературы, а также в обогащении ее содержания. Отмечается, что в мире есть люди, которые не меняют лица, остаются стабильными, умеют сохранять свою репутацию, личность и статус.Таких людей, которые держат слово, не изменяют своему слову, не отказываются от своего слова, обещают и выполняют его, жертвуют собой ради доброты, посвящают свою жизнь своему народу, нации и государству - это редкие люди, которые рождаются невсегда, другими словами - феноменальные люди.Например, феномен Гейдара Алиева, а также феномен Ильхама Алиева. Феномен Мир Джалала Пашаева относится к числу тех, кто заслужил это имя в литературном мире. Отмечается, что Мир Джалал - это новый этап в нашей литературе, и изучение его творчества имеет огромное значение.Эти и другие вопросы отражены в данной работе.*

## THE PİNNACLE OF THE WORK OF AN ENDURİNG PHENOMENON - WRİTER, SCHOLAR AND EDUCATOR MİR JALAL İN A CHANGİNG WORLD

**Khankishi Memmedov**
**Riyad Rustamli**

**Keywords**: *Heydar Aliyev*, *Mir Jalal Pashayev, nature, folklore, enlightening examples*

*The paper examines the phenomenon of Mir Jalal, an outstanding representative of the history of national literary and artistic thought of the 20th*

*century, a talented and powerful writer, a selfless teacher, a wise scientist and a worthy person who had unique and irreplaceable merits in the development of Azerbaijani science and literature, as well as in the enrichment of its content, on the example of nature, folklore and education. It is noted that there are people in the world who do not change their faces, remain stable, know how to preserve their reputation, personality and status. Such people who keep their word, do not change their word, do not renege on their word, promise and fulfil their word, sacrifice themselves for goodness, dedicate their lives to their people, nation and state - these are rare people who are not born forever, in other words, phenomenal people. For example, the phenomenon of Heydar Aliyev, as well as the phenomenon of Ilham Aliyev. Mir Jalal Pashayev's phenomenon is among those who have earned this name in the literary world. It is noted that Mir Jalal is a new stage in our literature and study of his works is of great importance.These and other issues are reflected in this paper.*

Dünyada hər şey dəyişir: təbiət, cəmiyyət, vəziyyət, vəsiyyət, nəzarət, keyfiyyət, kəmiyyət, səmimiyyət, millət, adət, siyasət, sürət, sifət, ləzzət, rüşvət, daha nələr, nələr...Bu dəyişkənlik müstəvisində insanlar da var. Bircə fərq ondadır ki, sadaladıqlarımızın hamısı yüzə-yüz dəyişsə də, insanlarda bu hal fərqlidir. Doğrudur, burada da dəyişkənlik çoxuna aiddir. Amma elə insanlar var ki, onlar yüzə-yüz dəyişmirlər, sabit qalırlar, öz nüfuzlarını, şəxsiyyətlərini, samballarını qoruyub saxlaya bilirlər. Belə insanları heç kim əqidələrindən dəyişdirə bilmək gücündə deyil. Sözü bütöv, sözünü dəyişməyən, sözünü danmayan, söz verib ona əməl edən, xeyirxahlıq üçün canından keçən, ömrünü xalqına, millətinə, dövlətinə həsr edən bu cür insanlar nadir, az-az dünyaya gələn, başqa sözlə, fenomen insanlar adlanır. Məsələn, Heydər Əliyev fenomeni, İlham Əliyev fenomeni. Ədəbi aləmdə bu ada layiq olanlar içərisində Mir Cəlal Paşayev fenomeni birincilərin birincisi sırasında qərarlaşıb, sanki o, əlçatmaz zirvədə bardaş qurub əbədi əyləşib. Müasir izahlı lüğətlərdə də "fenomen" izah edilə bilinməyən nadir hadisə,qeyri-adi insan, əvəzolunmaz şəxsiyyətkimi qeyd olunur. Sönməyən ulduza bənzəyən Mir Cəlal Paşayev fenomeni də Alahın Azərbaycana bəxş elədiyi qeyri-adi şəxsiyyət, əvəzolunmaz yazıçı, alim, pedaqoq, müəllimlər müəllimi olaraq milli düşüncə tariximizdə əbədiyaşar fenomen şəxsiyyətlərdən biridir.

Bənzərsiz və geniş yaradıcılıq diapazonuna malik olan Mir Cəlal müəllimin qələmə aldığı yetmişdən çox kitablarda, romanlarda, povestlərdə, orijinal hekayələrdətəbiət və folklor örnəkləri yetərincədir və bu əsərlər hər birisi ayrı-ayrılıqdahəyat məktəbi, insanlıq dərsidir. Sanki bu əsərlərin hamısının xəmiri təbiətlə, folklorla yoğrulub, mayası isə kökdən, süddən, sudan, xalqına olan sonsuz sevgidən irəli gəlir. Elə bir əsəri yoxdur ki, orada atalar sözlərindən, el deyimlərindən, məsəllərdən, aforizmlərdən istifadə edilməsin,

elə bir əsəri yoxdur ki, o əsərdən həyat qoxusu, insanlıq ətri, humanizm təravətihiss olunmasın. Əslində Mir Cəlal müəllimin həyat və yaradıcılığı min birdən də çox qapısı olub, sahili olmayan sirli-sehrli bir ümmanı xatırladır. Bu ümmana varmaq, o dəryadan nə isə götürməyi bacarmaq ancaq mahir qəvvaslara qismət olar, hər adi adama qismət olmaz. İstedadlı alim, publisist, məşhur televiziya tənqidçisi, professor Qulu Məhərrəmlinin bir sözü bu yerdə yada düşür. Qulu müəllim hələ on altı il bundan qabaq deyirdi ki, vətənimizin böyük oğlu, şərəfli, əxlaqlı bir nəsil qoyub gedən Mir Cəlal müəllim ədəbiyyatımızda yeni mərhələdir, onun yaradıcılığının tədqiqi isə böyük əhəmiyyət daşıyır. İndi həmin fikirlərin nə qədər böyük məna daşıdığı göz önündədi. Doğrudan da ədəbiyyatda yeni iz açmaq, cəmiyyətdə bu qədər nüfuz qazanmaq, bu qədər tədqiq olunmaq hər kəsə qismət olmur Mir Cəlal müəllimə qismət olan kimi.

Mir Cəlal müəllimin yaradıcılığında atalar sözlərindən istifadə arealı çox genişdir. Bu gözəlliyi hiss etməmək, duymamaq, ləzzət almamaq mümkün deyil. Bu mənada ədibin hələ otuz yaşı olmamışkən qələmə aldığı "Bir gəncin manifesti" əsərinə nəzər salmaq kifayət edər. Əsərdə 2-ci fəsil "Qarışqa qanad gətirəndə ölümü yaxınlaşar" [1, s. 42], 3-cü fəsil "Arxalı köpək qurd basar" [1, s.53],, 4-cü fəsil "Əsl dostları qılınc da ayıra bilməz" [1, s.81], 7-ci fəsil "Ölmək ölməkdir, xırıldamaq nə deməkdir" [1, s.116], 8-ci fəsil "İtə ataram, yada satmaram" [1, s.133], 11-ci fəsil "Yolçu yolda gərək" [1, s. 198], 16-cı fəsil "Yüz gün yaraq, bir gün gərək" [1, s.276], 17-ci fəsil "El gücü, sel gücü" [1, s.288], atalar sözləri ilə başlayır. Yaxud "Bir gəncin manifesti" əsərinin başlanğıcında Höteyə məxsus "Həyat və azadlıq, ancaq onlar üşün hər gün döyüşə gedən adamlara layiqdir" [1, s.15], 1-ci fəsildə "Bütün xoşbəxt ailələr bir-birinə bənzəyirlər, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir" (L.Tolstoy) [1, s.19], 6-cı fəsildə istifadə olunan "Həqiqətin gecəsi yoxdur, gecənin də həqiqəti var" [1, s.91] və bu kimi aforizmlər dediklərimizə əyani sübutdur.

"Bir gəncin manifesti" romanından bəzi nümunələrə diqqət edək: 1-ci fəslidə Mərdan Hacı İbrahimxəlilin dərsini verib evə qayıdanda çoxdandı görmədiyi dostu Sureni görür. Nə qədər sevinirsə, bir o qədər də narahat olur. Və Surenə bir söz gəlməsin deyə vaxtın qorxulu, düşmənin güclü və kəmfürsət olduğunu xatırladaraq, "Ehtiyat igidin yaraşığıdır" deyib gecəykən kənddən çıxmağı məsləhət bilir. Yaxud "Oğul" hekayəsinin başlanğıcında ustadımız "Kölgədə bitən ağacın kölgəsi olmaz" atalar sözündən istifadə edir. Doğrudur əsərdə bu atalar sözü formaca bir qədər fərqli işlədilib, amma mənaca hər şey qaydasındadır. Bu deyim atalar sözləri kitablarında belə işlənir: "Kölgədə olanın kölgəsi olmaz".Əlbəttə belə misallar yetərincədir.

Mir Cəlal müəllimin əsərlərində folklorun istər, arxaik, istərsə də çağdaş janrlarından hamısına, məsələn, andlara, dualara, alqışlara, qarğışlara bol-bol

rast gəlmək olur. "Bir gəncin manifesti" romanının birinci fəslində Ağaməcid Baharı tut ağacında yerə endirə bilməyəndə ona söyür: - Demirəm düş, ay dul arvadın oğlu? yaxud Ağaməcid Baharı şirin dilə tutub aşağı yendirəndə, Ağaməcidin anası Qarınca xanım Baharı qulaqlayır: - Nə cürətlə ona sataşırsan, a qodux?! Yalan danışma itin küçüyü deyərək söyüşlər işlədirlər. Yaxud romanın üçüncü fəslində oxuyurur: Yassar yüzbaşı Ağa əl verib görüşmək istəyəndə bəy acıqlı-acıqlı ona deyir: A binamus oğlu binamus, utanmırsan, mənə əl də verirsən? Ay arvaddan əskik!təhqirlə cavab verir.

Mir Cəlal müəllimin əsərlərində elə deyimlər var ki, onlar atalar sözləri və məsəllər kitablarında olmasa da, atalar sözləri qədər müqəddəsdir. Güman edirik ki, nəşr edilən növbəti atalar sözləri kitablarında bu deyimləri görə biləcəyik. Məsələn, "Bir gəncin manifesti" romanında Mərdandan şikayət edilməsi barədə ərizə yazılması haqqında götür-qoy edilərkən Hacı İbrahim-xəlilin qardaşı oğlu Bala Əbülfət deyir: "Ay canım, ərizəni adamdan yazarlar, o nə itdir, əlindən ərizə yazıla? Kişi arvaddan şikayət eləməz, arvad kişidən şikayət edər". Göründüyü kimi, bu deyimi əslində hamımız atalar sözü kimi işlədirik.

Mir Cəlal müəllimin əsərləri gözəllik dünyasının sirli-sehirli qapılarının sayını müəyyən etməyə, o qapıları açmağa, "gözəllik" məghumunun formulunu müəyyən etməyəvə gözəlliyin tam və dürüst tərifini verməyə imkan verir. Mir Cəlal müəllimin əsərləri mümkünsüz olanın mümkün olmasını öz oxucusuna anladır və onun əsərlərini oxuyarkən elə mənzərələr, bəzəklər, naxışlar, baxışlar yaranır ki, bu duyğular hətta ağıllı olanın da ağlını alır. Fikir fikri, düşüncə düşüncəni, duyğu duyğunu, söz sözü çəkir. Oğul gərəkdir ki, bu gözəllikdən baş aça, onun dadını, tamını duyub hiss edib ləzzət ala.

Bəlkə də yuxarıda qeyd etdiyimiz kimi hər kəlməsində dünya dahilərinin, məsələn alman şair və dramaturqu Yohann Volfqanq fon Höte, rus şairi və yazıçısı Nikolay Nikolayeviç Aseyev, alman şairi və jurnalisti Kristian İohan Henrix Heynekimi dahilərin aforizmlərindən məharətlə istifadə edən Mir Cəlal müəllim atalar sözlərini, el deyimlərini mükəmməl bilən söz və fikir adamı kimi özü də atalar sözlərinə və məsəllərinə həmişə əməl edib. Fikrimizcə dahiliyə gedən yol elə burdan başlayır. Gərək dediyin sözlə əməlin bir birini tamamlasın. Yoxsa hər şey yarımçıq qalır. Bir dəfə cavalığında bircins şalvar almışımış. Həyatə düşməyiynən qələm dostlarının baməzə balaları professoru dövrəyə alırlar. Professor, çox mübarəkdir, hökmən yumaq lazımdır deyərək maşına əyləşib Bakı bağları tərəfə üz tuturlar. Mir Cəlal müəllim deyir ki, mənzil başına çatan kimi maşındakılar hərəsi bir tərəfə qaçdı. Mən də taksidə qabaqda oturmuşdum, gördüm tək qalmışam. O saat başa düşdüm ki, bunlar niyə aradan çıxıblar. Taksi də getməlidir, hər dəqiqə pul yazırdı o zaman taksilər. Nəisə pulu verib taksini yola salandan sonra uşaqlar hamısı peyda oldu. Mən də üstünü vurmadım ki, elə belə olmalıdır. Yaxşı istirahət edəndən sonra

axşam evə qaydanda yenə istədilər məni maşının qabağında oturdalar. Nə qədər elədilər, dedim ki, olmaz. Gözlərimə gün düşür. Qayıtdılar ki, professor, indi gün var, gün çoxdan batıb. Qayıtdım ki, yox, gözümə gün düşür, kişinin sözü bir olar. Nəisə onlardan biri qabaqda oturdu, mənzil başına çatanda da pulu verdi və hesab oldu bir-bir.

İndinin özündə də Mir Cəlal müəllimin aforizmlərindən istifadə edənlər çoxdur. Çox böyük müəllimimiz tələbələrinə deyərmiş: "Hər gün yazın, çox yazın, çoxu ixtisar etmək olur, azı yox". Bu məqalənin müəlliflərindən biri olan X.Məmmədov qeyd edir ki, təzə şeir yazanda istiyirdim ki, yaxşı şeir yazam. Görürdüm alınmır. Sonra Mir Cəlal müəllimin bu aforizmi köməyimə gəldi. Başladım gündə yazmağa. Elə olurdu gündə, iyirmi, otuz şeir yazırdım. Sonra gördüm ki, aha deyəsən yavaş-yavaş babat şeirlər yaranır. Mir Cəlal müəllimin bir aforizmi də heç zaman yadımdan çıxmır. Ustadımız deyərmiş ki, "Uşaq pis söz danışanda ağzını sabunla yuyun". Doğrudur, tez-tez olmasa da arada bir belə bir el deyimi eşidirik. Görürsən deyirlər ki, "Pis söz danışan uşağın ağzını sabunla yuyarlar". Düzü neçə dəfə kitabları çox araşdırmışam, amma mənbələrdə belə bir el deyiminə rast gəlməmişəm. Amma sonralar mütaliə edəndən sonra gördüm ki, bu el deyiminin müəllifi bizim Mir Cəlal müəllim imiş. Bizə elə gəlir ki, əsl atalar sözüdür. Atalar sözü necə olmalıdır ki?

Azərbaycanın bəxtinə elə düşüb ki, xalqımız həmişə düşmənlərin əhatəsində, qan-qada, savaş, müharibə içində yaşayıb. Düzdür, arada bir nisbi sakitlik olsa da, başımıza gələnləri hamımız yaxşı xatırlıyırıq. Mir Cəlal müəllimin müharibə ilə bağlı bir aforizmi indi də öz orijinallığını saxlamaqdadır. İmam övladı olan Mir Cəlal müəllim deyərmiş ki, "müharibə yataq xəstəliyindən betərdi". Bu fikrin indi nə qədər doğru olduğunu gözlərimizlə görürük.

Mir Cəlal müəllimin bütün əsərləri tərbiyəvi xarakterə malikdir. Ana obrazına diqqət etmək istərdik. Təsəvvür edin, müharibə gedir, düşmən qorxusu bir yana, aclıq insanları məhv edir, ana son ümidi olan xalçanı bazara çıxarıb satmaq istiyir. Elə bu anda həmin səmtə bir əcnəbi gəlib xalçanı almaq istədiyini deyir. Kim olsa sevinər ki, nə yaxşı malım satıldı. Amma bir tikə çörəyə möhtac olan ana qürurunu sındırmır və "itə ataram, yada satmaram" deyərək xalçanı satmaqdan imtina edir.Bu məqamda "adam ölər, ac qalar amma varını, malını, əmlakını, yurdunun bir daşını da yada satmaz" kimi tərbiyəvi fikirlər gözlərimiz önündə canlanır. Gəlin etiraf edək ki, bunu heç kim yox, yalnız azərbaycanlı anası edə bilər və belə bir obrazı yaratmaq məhz ömrünün sonunacan ədəbiyyatımızın nazıyla oynayan Mir Cəlal müəllimə nəsib olub.

Mir Cəlal müəllim inanılmaz dərəcədə həssas, qayğıkeş, təmənnasız və sadə adam olub. Deyilənlərə görə bir gün auditoriyada mürgüləyən uşaqdan "yuxun gəlir, ay oğul?" deyə soruşur. Biləndə ki, həmin tələbə kirayədə qaldığı otaqdan çıxarılıb və keçən gecə vağzalda gecələyib, elə həmin gün məsələni rektor səviyyəsində həll edərək o tələbəyə yataqxanada yer düzəldir. Gəlin

səmimi deyək: indi belə müəllimlərimiz varmı? Bir mənalı olaraq biz "yox" cavabını veririk. Yəqin ki, sizlər də bizinən razılaşarsınız.

Mir Cəlal müəllimin əsərlərində dolğun təsvirləri, canlı lövhələri xatırladan təbiət cizgiləri o qədər ustalıqla, zövqlə, incəliklə, olduğu kimi yazılıb ki, oxucu özünü sanki həmin mühitdə hiss edir. Bu təsvirlərdən birinə diqqət edək: "Səhər yenicə açılmışdı. Yağışlı bir gün idi. Elə yağırdı, deyəsən, göydən yerə dolça ilə su tökülür. Navalçalar kran kimi işləyir, küçələrdən su gedirdi. Üfüqlər elə qaralmışdı, deyərdin bu hava daha açılmaz. Rütubətli ağır havada hər şey bomboz, kədərli idi. Hələ sönməyən lampalar limona bənzəyirdi. Adamlar yerə baxır, yeyin ötür, bir-birini basıb tramvaylara doluşurdular. Cəld ötən çətirli qadınlar səyyar çadır kimi görünürdü. Yer, səma qazan kimi pıq-pıq qaynayırdı" [4]. İndi belə təsvirdən, belə bir gözəllikdən necə zövq almayasan, necə büllurlaşmayasan? İstər-istəməz bir sual hər kəsi düşündürə bilər: Görəcən Mir Cəlal müəllim bu zirvələri neçə fəth eliyib? Axı o zaman onun köməyinə gələn bir yaxın adamı da yox idi? Bizə el gəlir ki, bu uğurların əsas səbəbi böyük ədibimizin sözün və istedadının gücünə güvənməyindən irəli gəlir. Yoxsa bu qədər uğur qazanmaq mümkün olmazdı. Yaxud bu təsvirə diqqət edək: - "Dərə nə dərə! Elə bil böyük dənizləri dolduran çayların hamısı buradan axıb ötmüşdü. Çılpaq, uca, müdhiş qayalar tərtəmiz, bomboz. Fikir edirsən ki, bədəni çölə çıxmış yerdir. Dərənin tərkindən, göz işləyən yerdən parıltı gəlir, ancaq su görünmür. Sarıköynəklər, qaranquşlar qayalar arasında oynaşır, kollar arasında itirlər". Hər biri orijinal rəsm əsərlərini xatırladan bu duyğuları tablolara köçürən lazımdı bu yerdə.

Açığını deyək ki, bu cür canlı təbiət lövhəsi yaratmaq çox çətindir. Bəlkə də heç mümkünsüzdür, çünki bu cür təsvir yer adamına aid ola bilməz. Amma bunu Mir Cəlal müəllim bacarıb. Səbəbi də odur ki, o, yer adamı deyil. Elə ona görə ona "Allah adamı" və ya "Göylər adamı" deyirlər. Onu da qeyd edək ki, yaxşı əsərləri, şeirləri Allah yazdırır.

Mir Cəlal müəllimin müdrik kəlamları yetərincədir: Çörək elə şeydir, tülkünü aslan edir, aslanı tülkü; Kölgədə bitən ağacın kölgəsi olmaz; Bəzi ulduzlar kiçik olduqları üçün yox, yüksəkdə olduqları üçün görünmürlər; Azadlıq verilməz, alınar; Azadlığı qorumaq – onu fəth etmək qədər müqəddəsdir; Zəncirləri qırmaq üçün əql gücü də, əl gücü də işlətmək lazımdır; İtən hörməti qapı-qapı gəzib dilənmək olmaz; Subaylıq – sonsuzluqdur [3, s. 3-4 ]və s.

Sona yaxınlaşmaq ərəfədə bir şeyə təəssüflənirik ki**,** Mir Cəlal müəllimin bütün əsərləri hamısı bizə gəlib çatmayıb. Məsələn, böyük ədibimizin 1928-ci ildə yazdığı və "Qızıl Gəncə" qəzetində çap otdirdiyi "Müəllm" əsəri yoxdur [ 2, s.3].

Sonda isə qeyd edək ki, XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi,Azərbaycan elminin, həm də ədəbiyyatının həm inkişafında, həm

də onun məzmunca zənginləşməsində təkrarsız və əvəzsiz xidmətləri ola-nistedadlı ədib, qüdrətli qələm sahibi, fədakar maarif xadimi, müdrik alim, işıqlıadam, nur çeşməsi, Allah adamı, imam övladı, sönməyən ulduz, göylər adamı, yaxşı kişi, ləyaqətli insan, xalqının ürəyində daim yaşayan şəxsiyyət, amma bununla belə heç bir fəxri adı olmayan əbədiyaşar Mir Cəlal müəllimən əsası xoşbəxt adamdır. Çünki xoşbəxt o kəsdir ki, özündən sonra onun ocağını yandıran, odunu, közünü sönməyə qoymayan, ideyalarını layiqincə davam etdirən, sonrakı ömrünü pohrələri yaşadan Arif Paşayev, Hafiz Paşayev kimi oğulları, Mehriban Əliyeva, Nərgiz Paşayeva kimi nəvələri, Arzu, Leyla və Heydər kimi nəticələri var. Bu yerdə böyük ədibimizin indi də dillər əzbəri olan bu kəlamı istər-istəməz yada düşür. Mir Cəlalmüəllim deyərmiş ki, "həyatımda yaratdığım ən böyük əsər ailəmdir" [5, s.9]. Bütün bu qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olur ki, heç bir zaman yadımızdan çıxmayan, qəlbi, ruhu, ideyaları, tövsüyələri ürəyimizdə, qəlbimizdə yaşayan, əsərlərindən hər zaman bəhrələndiyimiz üçün Mir Cəlalmüəllim həm də bizim müasirimizdir. Çünki o, həmişə bizimlədir.

**Ədəbiyat**

1. Mir Cəlal. Seçilmiş əsərləri. II kitab. Bakı, Çaşıoğlu, 200. 468 s.
2. Abdullayeva F. Filosof, alim, yazıçı və müəllim. Mədəniyyət qəzeti,12 aprel 2008-ci li, 3 s.
3. Əbədiyaşar şəxsiyyət Mir Cəlal Paşayev – 115 (Daycest), Bakı, 2023. 26 s.
4. Eminov A. Mir Cəlal nəsrində təbiət: dolğun təsvirlər, canlı lövhələr. 525-ci qəzet.- 2022. - 16 aprel.- 18 s.
5. Nəcəfxanlı Ə. Mir Cəlal – böyük insan, böyük ədib, böyük müəllim. Xalq qəzeti. - 2022. - 26 aprel. - № 86. – 9 s.

# AZƏRBAYCAN TARİXİNİN MƏNBƏŞÜNASLIĞININ TƏDRİSİNƏ DAİR (MÜASİR DÖVR)

**Zakir Kərimov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
zakir.kerimov.1955@mail.ru

***Açar sözlər:*** *mənbə, mənbəşünaslıq, Azərbaycan tarixi, vidieo-elektron mənbələr*

*Məqalədə Azərbaycanda Üçüncü Respublika dövründə (1991-ci ildən indiyədək) meydana gəlmiş mənbələr araşdırılmışdır. Qeyd olunmuşdur ki, ölkəmizin sosial-iqtisadi, hərbi-siyasi , mədəni həyatında baş verən sürətli dəyişikliklərlə bağlı olaraq mənbələrin də sayı sürətlə artır. Bu mənbələr bolluğundan yararlanmaq, onları elmi-tədqiqata cəlb etmək, onlardan milli tariximizin yazılmasında səmərəli şəkildə istifadə etmək üçün qruplaşdırmağa ehtiyac duyulur. Məqalədə müxtəlif tədqiqatçıların mənbələrin təsnifatına münasibəti təhlil olunur. Təhlil nəticəsində belə nəticəyə gəlinir ki, müasir dövr tarixinin öyrənilməsində mənbələrin yazılı, etnoqrafik, dilçilik (linqvistika), şifahi, kino-foto, fono, video-elektron mənbələr şəklində qruplaşdırılması məqsədəuyğundur. Üçüncü Respublika dövrü mənbələri arasında əhəmiyyətli yeri yazılı və video-elektron mənbələr tutur. Yazılı mənbələri daha etibarlı mənbələr hesab etmək olar. Onların özləri də müxtəlif qruplara bölünür: dövlət, özəl müəssisələrə aid müxtəlif səpkili sənədlər və şəxsi xarakterli sənədlər. Dövrün tarixinin öyrəilməsi üçün dövlət qaynaqları və mətbuat materialları əvəzi olmayan qaynaqlardır. Mənbələrin təsnifində mənşə, məzmun və forma prinsiplərinin birlikdə götürülməsi vacib şərtdir.*

## О ПРЕПОДАВАНИИ ИСТОЧНИКОВЕДЕНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА (СОВРЕМЕННЫЙ ПЕРИОД)

**Закир Керимов**

***Ключевые слова:*** *источник, источниковедение, история Азербайджана, видеоэлектронные источники*

*В статье были рассмотрены источники, появившиеся в период Третьей республики в Азербайджане (с 1991 года по настоящее время). военно-политической и культурной жизни нашей страны необходимо их сгруппировать, чтобы привлечь к научным исследованиям и эффективно использовать в написании нашей национальной истории. В статье*

*анализируется отношение различных исследователей к классификации источников. Уместно сгруппировать его в виде устных, кино-фото фоно, видео-электронных источников и т.д. Письменные и видео электронные источники занимают важное место среди источников периода Третьей республики. Более достоверными источниками можно считать письменные источники. Они сами делятся на различные группы: документы различного стиля, относящиеся к государству, частным предприятиям, а также личные документы. Незаменимыми источниками для преподавания истории того периода являются государственные источники и материалы прессы. При классификации источников используются принципы происхождения, содержания и формы, это важное условие, которое необходимо учитывать вместе.*

## ON THE TEACHİNG OF THE SOURCE STUDİES OF THE HİSTORY OF AZERBAİJAN (MODERN PERİOD)

**Zakir Karimov**

***Keywords:*** *source, source studies, history of Azerbaijan, video-electronic sources*

*İn the article, the sources that appeared in the period of the Third Republic in Azerbaijan (from 1991 to the present) were examined. It was noted that the number of sources is increasing rapidly in connection with the rapid changes in the socio-economic, military-political and cultural life of our country. It is necessary to group them in order to involve them in scientific research and to use them effectively in writing our national history. The article analyzes the attitude of various researchers to the classification of sources. it is appropriate to group it in the form of oral, film-photo, phono, video-electronic sources. Written and video sources occupy an important place among the sources of the Third Republic period. Written sources can be considered more reliable sources. They themselves are divided into different groups: documents of various styles related to the state, private enterprises, and personal documents. State sources and press materials are irreplaceable sources for teaching the history of the period. In the classification of sources, the principles of origin, content and form are used. it is an important condition to be taken together.*

Məlumdur ki, tarixin yazılmasında mənbələr əvəzsiz rola malikdir. Mənbələr tarixin öyrənilməsində və yazılmasında bir növ təməl, bazis rolunu oynayır. Fransada pozitivist tarixi məktəbin nümayəndələri mənbələrin rolunu yüksək qiymətləndirərək bildirirdilər ki, mənbə varsa, tarix var, mənbə yoxdursa

tarix yoxdur. S.O.Şmıdt qeyd edir ki, tarixi mənbə dedikdə, tarixi tədqiqat məqsədləri üçün istifadə edilən bütün təzahürlər, xüsusən keçmişi öyrənməyə imkan verən bütün təzahürlər başa düşülür [ 7, s. 28]. K.D.Petryayev isə göstərir ki, mənbə həqiqətin subyektiv surətidir [ 6, s. 60]. Ş.Məmmədova isə bu fikri tamamlayaraq qeyd edir ki, mənbə keçmiş haqqında yeganə bilik mənbəyimizdir.

Sovet İttifaqının süqutundan sonra müstəqillik əldə etmiş respublikalarda, o cümlədən Azərbaycanda tarix elminə münasibət tamamilə dəyişməyə başladı. Siyasi-ideoloji məhdudiyyətlərin və senzuranın aradan qalxması, mənbələrə çıxış imkanlarının genişlənməsi tədqiqatçıların işini asanlaşdırdı. Müasir dövrdə dünyada, o cümlədən ölkəmizdə sosial, hərbi-siyasi, iqtisadi və s. proseslər sürətlənmişdir. Bununla bağlı olaraq müxtəlif sahələr üzrə informasiya bolluğu yaranmış və bunun nəticəsi olaraq mənbələr də son dərəcə sürətlə artmaqdadır. Bu da dövrün mənbələrinin təsnifi məsələsini aktuallaşdırır. Mənbələr əsasən tiplərə və növlərə görə təsnif edilir. Sovet mənbəşünaslıq elmi dünya təcrübəsini nəzərə alaraq mənbələri aşağıdakı kimi təsnif etmişdir: 1.Yazılı mənbələr, 2.Maddi əşyavi (arxeoloji) mənbələr, 3.Etnoqrafik mənbələr, 4.Dilçiliyə aid mənbələr (linqvistika), 5.Şifahi mənbələr, 6.Kino-foto, 7.Fono sənədlər.

Ş.Məmmədova göstərir ki, müasir mənbəşünaslıq mənbələri tiplərinə görə 4 qrupa bölür: maddi, yazılı, təsviri və səsli. Yazılı mənbələr özləri də salnamə, diplomatik, qanunvericilik, kargüzarlıq, statistik, şəxsi xarakterli sənədlər, dövrü mətbuat və s. olmaqla növlərə bölünür [4, s. 117]. H.Əmirov mənşə və məzmun prinsiplərini əsas götürməklə müasir dövr mənbələrini: yazılı sənədlər, siyasi partiya sənədləri, parlament, qanuçuluq, statistik, diplomatik, mətbuat, memuar, ədəbiyyat və incəsənət növlərinə bölür [ 3, s. 14-15].

Mənbələrin tərtibində dil və yazı qrafikası əsas faktorlardır. Xalqımızın dünya, o cümlədən ümumtürk mədəniyyətin qovuşmasında böyük əhəmiyyəti olacağını nəzərə alaraq Azərbaycan SSR Ali Soveti 1991-ci ilin dekabrın 24-də latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında qanun qəbul etdi. 1992-ci ilin sentyabrından orta məktəblərin birinci sinfindən dərslər bu əlifba ilə keçirilməyə başlandı. Lakin latın qrafkalı əlifbaya keçid ləng gedirdi. Buna görə də Prezident H.Əliyevin 2001-ci il 18 iyun tarixli "Dövlət dilinin təkmilləşdirilməsi" haqqında fərmanı ilə həmin ilin avqustun 1-dən latın qrafikalı əlifbanın qəti tətbiq olunması qərara alındı. Həmin gün "Azərbaycan əlifbası və Azəraycan dili günü" elan olundu. Mənbələr əsasən Azərbaycan dilində, bəzən paralel olaraq rus , ingilis dilində də tərtib olunur.

Dövrün tarixini öyrənmək üçün ən geniş yayılmış mənbələr yazılı mənbələrdir. Müasir dövrdə geniş yayılmış sosia-siyasi, iqtisadı və s. məzmunlu tivit, mesaj kimi elektron yazışmalar da yazılı mənbələr sayıla bilər. Yazılı mənbələr (sənədlər) adətən dövlət, özəl müəssisələrdə və istənilən şəxslər tərəfindən tərtib olunur. Mənbələr, xüsusən yazılı mənbələr adətən dövlət (mərkəzi), cari (müəssisə, idarə və s.) və şəxsi arxivlərdə saxlanılır. Təbii ki, dövlət arxivlərində

saxlanılan sənədlər texniki baxımdan dəqiq standartlar əsasında tərtib olunur və mühafizə edilir.

Dövlət müstəqilliyimizə aid sənədlər (mənbələr) ən mötəbər qaynaqlardır. Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasında “Azərbaycan SSR-nin suverenliyi haqqında” qəbul edilmiş 1989-cu il 23 sentyabr tarixli Qanunu, “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini bərpa edilməsi haqqında” 1991-ci il 30 avqust tarixli bəyanatı, “Azərbaycan Respublikasının Dölət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il tarixli Konstitusiyası Aktını və s. buna nümunə göstətmək olar.

Azərbaycan Respublikasnın qanunvericilik sisteminə daxil olan aktlar: konstitusiya, referendumla qəbul edilmiş aktlar, Milli Məclisin qəbul etdiyi qərar və qanunlar, Respublika Prezidentinin təsdiq etdiyi fərman və sərəncamlar, Respublika Nazirlər Kabinetinin qərarları, Mərkəzi İcraiyyə hakimiyyəti orqanlarının normatv aktları, məhkəmə qərarları, əsasnamələr, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr həmçinin “Əsrin müqaviləsi”, ”Üçtərəfli bəyanat” (10 noyabr 2020), Şuşa, Bakı, (2021), Qarabağ (2024) bəyanatları, notalar, etimadnamələr, övdatnamələr və s. Naxçıvan Muxtar Respublikasının Konstitusiysı və qanunları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları, bələdiyyə aktları və s. sənəd xarakterli mənbələrdir. Maliyyə-bank sənədləri, vətəndaşlar və təşkilatlar arasında bağlanmış müqavilələr də bu qəbildəndir. Hal-hazırda yazılı mənbələrin sayı çox sürətlə artır, həmin mənbələrin çox zaman paralel olaraq kağız və elektron formada tərtib olunur. Müstəqillik dövrünün mənbələrinin az qismi kiril, çox hissəsi latın qrafikası əsasında tərtib olunmuşdur. İndi də mənbələr latın qrafiksı ilə tərtib olunmaqdadır.

Respublikanın Prezidentləri H.Əliyev [1] və İ.Əliyevin [2], [9] çıxışları, müsahibələri, məktubları tariximizin öyrənilməsi və yazılması üçün zəngin qaynaqlardır.

Yazılı mənbələrin bir növü olan şəxsi xarakterli mənbələr əsasən xatirələri, gündəlik və məktubları, qeydləri və s. əhatə edir. Azərbaycanin sabiq Xarici İşlər Naziri Vilayət Quliyevin və başqalarının Prezident Heydər Əliyev haqqında xatirələri çox dəyərli mənbələrdir.

Müasir dövr tariximizin öyrənilməsi üçün şifahi mənbələr ona görə qiymətlidir ki, hadisə haqqında ilk informasiya mənbəyi onun şahidlərdir. Məsələn, Qarabağda-Xankəndində erməni separatizmiinin necə başlanması və o, zamankı Azərbaycan rəhbərliyinin bunu ciddiyə almaması haqqında Az.TV-nin həmin dövrdə bölgə müxbiri işləmiş Allahverdi Əsədovun, Sumqayıt hadisəsini (1988-ci il) araşdıran Moskvadan göndərilmiş komissiyanın üzvü olan rus generalından İTAR-TASS agentliyinin Azərbaycan mənşəli junalisti Səadət Qədirovanın aldığı müsahibə, keçmiş dövlət müşaviri Qabil Hüseynlinin Prezident H.Əliyevin İran səfər haqqında söylədikləri (1994), Prezident Ə.Elçibəyin hökumətində çalışmış bəzi şəxslərin o cümlədən, Ramiz Yunusun

1992-1993-cü illərdəki siyasi vəziyyətlə bağlı söylədikləri, Milli Qəhrəman Allahverdi Bağırovun erməni əsirliyidən xilas etdiyi 2024–cü ilin avqustun 4-də vəfat etmiş Xocalı sakini Dürdanə Ağayevanın (1972-2024) [8] və digər girov və əsirlərimizin hekayələri tarixi, siyasi və hüquqi cəhətdən əhəmiyyətli qaynaqlardır.

Dövlət müşaviri Vəfa Quluzadənin kiçik bir müsahibəsi Heydər Əliyevin diplomatik bacarığını aşkara çıxartmaq baxımından maraqlıdır. V.Quluzadə söyləyir ki, H.Əliyev mənə deyirdi ki, Vəfa, mən öz iradəmi idarə etməyə qadir adamam. Bir dəfə mənim də, iştirakımla o, ATƏT-in Minsk qrupunun ilk Rusiyalı həmsədri, ermənipərəst Vladimir Kazimirovu qəbul edirdi. Birdən H.Əliyev ona hirsləndi, əlini çox bərk şəkildə stola vurub dedi: "Siz elə bilirsiniz Azərbaycan həmişə belə zəif olacaq?". Onun əlinin zərbəsindən çay stəkanı aşdı, çay dağılıb stola yayıldı. Kazimirovun rəngi ağappaq oldu, o çox qorxdu. Görüş başa çatandan sonra Heydər Əliyev mənə dedi: "Vəfa, mən həddimi çox aşmadım ki?. Xeyir –, dedim. V.Kazimirovun missiyası başa çatanda H.Əliyev ona bir portret bağışlayir. Portretdə Kazimirovun Azərbaycanın qəddar düşmənləri-Z.Balayanla, S.Kaputikyanla, Q.Staravoytova ilə restoranda araq içməsi təsvir olunmuşdu.

Hərbi müxbirlərin (Çingiz Mustafayevin, Fərdin İsazadənin, Heydər Mirzənin və başqalarının) çəkdiyi foto, video sənədlər qiymətli mənbələrdir. Zənnimizcə, hal-hazırda informasiya bazası kimi istifadə edilən vikipediayaya mənbədən daha çox tarixşünaslıq xarakterli elektron ensiklopediya kimi baxmaq olar. Çünki oradakı məqalələr müəyyən mənbələr əsasında yazılır. Aerokosmik peyklər və dronlar vasitəsi ilə çəkilən fotoşəkillər müasir dövr Azərbaycan tarixini öyrənmək üçün əhəmiyyətli mənbələridir. Məsələn, Azərbaycan hökuməti "Azərspeys" kosmik peykləri vasitəsi ilə işğal dövründə Ermənistanın Qarabağda törətdiyi ekoloji fəlakətləri, talançılığı və qanunsuz məskunlaşdırma hallarının fotolarını ələ edərək beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə çatdırmışdır. Həmin fotoların həm dəlil-sübut, həm də tarixi mənbə kimi əhəmiyyəti vardır. Vətən müharibəsində həm aerokosmik peyklərimizin, həm də hərbi müxbirlərimizin çəkdiyi fotoşəkillər müharibə tariximizi, döyüşçülərimizin qəhrəmanlığını öyrənmək üçün çox qiymətli məxəzlərdir. Azərbaycanın CBC televiziya kanalı İrəvan şəhərində (Təpəbaşı məhəlləsi) azərbaycanlılara məxsus memarlıq abidələrinin erməni daşnaklarının vandaizminin qurbanı olduğunu dronla çəkib dünya ictimaiyyətinə nümayiş etdirdi.Yaxud Qərbi Azərbaycandakı alban Kobər vənginin şəkli dronla çəkilmişdir. Videokameralar və telefonlu kameralar vasitəsi ilə çəkilən sosial-siyasi və mədəni-maarif məzmunlu fotolar və audivideo görüntülər də həm keçmiş, həm də müasir tariximizə aid dəyərli sənədlərdir. Sənədlərin demək olar ki, böyük hissəsi deyildiyi kimi dövlət arxivlərində saxlanılır və qeydiyyata alınır.

Tarixi proseslərin öyrənilməsində məlum olduğu kimi statistik sənədlər də qiymətli mənbələrdir. Xüsusən bu mənada 1999 və 2009-cu ildə respublikamızda keçirilmiş siyahıya alınmanın statistik nəticələrinin çoxcildlik nəşri ölkəmizdə III respublika dövrünün sosial-iqtisadi, milli, mədəni və s.proseslərini öyrənməyə və təhlillər aparmağa imkan verir.

Dövrü mətbuat bütün yazılı mənbələr içərisində seçilən, özünəməxsus xüsusiyyətlərə və geniş imkanlara malik informasiya bazasıdır. Bu mənbələr kütləvi xarakter daşıyaraq, cəmiyyət həyatının bütün sahələri haqqında məlumatların xronoloji ardıcıllıqla təsvirinə imkan yaradır. Məlumdur ki, hər bir mətbuat orqanı, o cümlədən qəzet müəyyən qüvvələrin (siyasi, iqtisadi, sosial və s.) təmsilçiləri kimi çıxış edir və onların maraqlarını ifadə və müdafiə edir. Dövrü mətbuat orqanlarındakı materialları ikili xarakter daşıyır və onlardakı informasiya hər hansı tarixi mənbə kimi həm obyektiv, həm də subyektiv xarakterə malik olur. Həmin informasiyanın subyektivliyinə xas olan amillər bunlardır: birincisi, mətbuat, xüsusən qəzet onu təsis edənin ictimai-siyasi, iqtisadi maraqlarının daşıyıcısıdır. İkincisi, qəzetin informasiya bazasının keyfiyyəti onu tərtib edən insanların, əsasən də redaktorun sosial- siyasi baxışlarından asılıdır. Üçünçüsü, dövrü mətbuat müəyyən siyasi meylə malik olduğundan gerçəkliyi, tarixi reallığı tam müxtəlif səpkidə və ya saxtalaşdırılmış şəkildə şərh edir. Lakin bunlarla yanaşı dövrü mətbuat materialları obyektiv informasiyaya da malikdir.

Üçüncü respublika dövrünün tarixinin öyrənilməsində mənbəşünaslıq bazası kimi Kütləvi İnformasiya Vasitələrindəki (KİV) məlumatlar çox əhəmiyyətlidir. Müstəqil Azərbaycan Respublikasının KİV-ləri çoxşaxəlidir; qəzet, jurnal, internet portalı, saytları, radio-televiziya və s. KİV-lər əsasən dövlət və özəl olmaqla iki qrupa bölünür. Rəsmi (dövlət) mətbuat orqanları içərisində Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Mətbuat orqanları “Xalq qəzeti”; “Respublika”; Milli Məclisin orqanı “Azərbaycan”; Yeni Azərbaycan Partiyasının orqanı “Yeni Azərbaycan” qəzeti nüfuzludur.

Respublikamızda cərəyan edən hərbi-siyasi prosesləri gündəlik izləmək, sosial-iqtisadi, mədəni həyatda, sosial-məişətdə baş verən dəyişikliklə tanış olmaq, öyrənmək və təhlil etmək üçün ölkəmizdə nəşr olunan dövrü mətbuat materialları da çox əhəmiyyətlidir. Bu mətbuat orqanları informasiya əldə etmək baxımından çox zəngindir. Verilən informasiya respublikamızın və dünyanın çoxcəhətli həyatını əks etdirir.

“Xalq qəzeti” 1919-cu ildən “Kommunist”adı ilə nəşr edilmişdir. Qəzetin təsisçisi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyətidir. Qəzet 12 səhifədən ibarətdir. Qəzet gündəlik ictimai-siyasi qəzetdir. Qəzetin ilk səhifəsində Prezidentin xarici ölkələrə səfərləri, dünyanın dövlət və hökumət başçıları ilə rəsmi görüşləri yerləşdirilir. Qəzetin ikinci səhifəsində Respublika Prezidentin sərəncamları, üçüncü səhifədə Nazirlər Kabinetinin qərarları, dördüncü səhifədə hökumətin proqram və strategiyası, beşinci səhifədə

bəzən Milli Məclisin fəaliyyəti ilə məlumatlar, yeddinci səhifədə hökumətin tədbirləri, səkkiz, doqquz, on, on bir və on ikinci səhifələrdə ölkənin sosial-iqtisadi, mədəni tədbirləri barədə məlumatlar verilir. Qəzetdəki məlumatlar AZƏRTAC-ın qəzetin müxbirlərinin, oxucuların yazıları, on ikinci səhifədə dünya xəbərləri dərc olunur. Prezidentin xarici qonaqlarla görüşü, ölkə daxili səfərləri barədə iri həcmli fotoları verilir. Ən vacib xəbərlər qəzetin manşetinə çıxarılır. Qəzetin həm kağız, həm də elektron versiyası mövcuddur.

Dövrün öyrənilməsində rəsmi dövlət qəzeti, Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetinin xüsusi yeri var. Bu qəzet Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. İlk nömrəsi 1918-ci ildə çap olunmuşur. Qəzet sovet dövründə fəaliyyətini dayandırsa da müstəqillik dövründə bərpa olunmuşdur. Qəzet geniş formatlı olub 16 səhifədən ibarətdir. Qəzetdə Milli Məclisin qəbul etdiyi qərarlar, onun komissiyalarının fəaliyyəti, deputatların çıxışları, Prezidentin təsdiq etdiyi fərmanlar, sərəncamlar, birinci vitse-prezidentin çıxışları, Prezidentin, birinci-vitse prezidentin, Milli Məclisin sədrinin rəsmi görüşləri və s. öz əksini tapmışdır. Qəzetin səhifələrində Azərbaycan həyatı ilə bağıı rəngli fotolar yerləşdirilmişdir.

III Respublika dövründə həyata qədəm basan nüfuzlu rəsmi mətbuat orqanlarından biri "Respublika" qəzetidir. İlk dəfə 1993-cü ildə işıq üzü görən bu qəzet gündəlik ictimai-siyasi, sosial-iqtisadi yönümlü qəzetdir.

"Yeni Azərbaycan" qəzeti III Respublika dövründə, yəni 1993-cü ilin aprelindən başlayaraq nəşr olunur. İqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının orqanıdır. Qəzetin yuxarı sol hissəsində Heydər Əliyevin rəsmi verilir və Heydər Əliyevin bu ifadəsi qəzetin devizi seçilmişdir: Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır. Qəzetin sağ hissəsində YAP-ın səkkizguşəli ulduz, yarpaqlı ağac şəkli təsvir edilmişdir. Qəzet 8 səhifədən ibarətdir həm kağız, həm də elektron versiyası mövcuddur. Qəzetin birinci səhifəsində Prezidentin iş günü, onun ölkədə rəsmi görüşləri, xaricə səfərləri, YAP-ın tədbirləri və partiya rəhbərlərinin fəaliyyətləri işıqlandırılır.

Müstəqil, ictimai-siyasi mətbuat orqanlarından informasiya bolluğu ilə seçilən qəzetlərdən biri "Kaspi" qəzetidir. Qəzetin informasiya diapazonu genişdir. Qəzetdəki informasiyalar gündəm, siyasət, region, cəmiyyət, mədəniyyət başlıqları altında qruplaşdırılır. "Üç əsrin qəzeti" epiqrafı ilə çap olunur. Məlumdur ki, qəzetin əsası 1881-ci ildə qoyulmuşdur. Bu qəzetin rus dilindəki versiyası "Kacпий" adı ilə nəşr olunur.

"İki sahil" ictimai-siyasi qəzetdir. Qəzet həm ölkəmizin, həm də dünyanın çoxcəhətli, sürətli dəyişən həyatı barədə hərtərəfli informasiya ilə oxucuları tanış edir. Qəzetin maraqlı bir devizi var: Vahid Azərbaycan uğrunda. Digər mətbuat orqanları kimi "İki sahil" qəzeti də dövrün iqtisadi, sosial-siyasi mədəni həyatı,

günümüzün tarixi həyatı ilə bağlı rəngli fotolar dərc etmişdir. “525-ci qəzet” müstəqillik dövründən nəşrə başlayıb, informasiyalar baxımından zəngindir.

Zənnimizcə, mənşə, forma və məzmun prisiplərini əsas götürməklə müasir dövr Azərbaycan tarixinin mənbələrini belə təsnif etmək olar: yazılı, etnoqrafik, toponomik, dilçilik (linqvistika), şifahi, kino-foto, fono, vidieo-elektron mənbələr. Mənbələrin tələbələr və tədqiqatçılar tərəfindən səmərəli tədqiqini təmin etmək üçün onların daha vaciblərinin külliyyat halında nəşri zəruridir. Həm də tələbələrə mənbələrlə işləmək bacarığı aşılamaq və elmi metodları izah etmək üçün ayrica fənn tədris olunması da faydalı olar.

## Ədəbiyyat


1. Əliyev H. Müstəqilliyimiz əbədidir. I-X cildlər, Bakı. 1997-2002; Müstəqillik yollarında. I-IV cildlər, Bakı, 1997. 572 s.
2. Əliyev İ. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 136-cı kitab. Bakı, 2024
3. Əmirov H.Yeni və ən yeni Azərbaycan tarixinin mənbəşünaslığı. Bakı, 2001, 125 s.
4. Məmmədova Ş. Mənbəşünaslığa giriş (dərs vəsati). Bakı. Mütərcim, 2008, 218 s.
5.Quliyev V. Heydər Əliyev. Böyük insan haqqında xatirələr. TEAS Press Nəşriyyat evi. Bakı, 2023, 216 s.
6. Петряев К. Д.Некоторые вопросы методологии источниковедения. В книге.: Вопросы историогрфаии и источниковедения всеобщей истории. Днепропетровск, 1970
7.Шмидт С.О. Современные проблемы источниковедение. В книге: Источниковедение.Теоретические и методические проблемы. Москва, 1969
8.https://oxu.az>Ordu Dürdanə Ağayeva; D.Ağayeva. Erməni zindanında səkkiz gün. Bakı, 2016
9.https://ilham aliyev.preslib.az İ.Əliyev: elekton külliyyat

# 2003-2023-CÜ İLLƏRDƏ ŞAMAXIDA İDMANIN İNKİŞAFI

**Zərifə Cavadova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
cavadova.zerife@mail.ru

***Açar sözlər:*** *İlham Əliyev, Şamaxı, idman, saglamlıq, inkişaf*

*Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş istər daxili, istərsə də xarici siyasət sahəsindəki yolu ugurla davam etdirən Prezident İlham Əliyev digər sahələrdə oldugu kimi bölgələrimizdə idmanın inkişafı sahəsində ugurlar qazanılmasına nail olmuşdur. Hələ vaxtilə Ümummilli Lider Heydər Əliyevin diqqəti və dəstəyi ilə idman sahəsində ardıcıl və məqsədyönlü işlər görülmüş, bir sıra qərarlar qəbul edilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən bölgələrimizdə idmanın inkişafı sahəsində mühüm müvəffəqiyyətlər əldə olunmuşdur. Məqalədə Şamaxıda idmanın inkişafına aparan uğurlu yol - idman komplekslərinin inşası və idmançı gənclərə olan münasibət, onların müxtəlif yarışmalarda nailiyyətləri Prezident İlham Əliyevin bu sahəyə olan qayğısı kimi dəyərləndirilmişdir. Məhz bunun nəticəsidir ki, Şamaxıda məhşur idmançılar yetişmiş və bu gün də bu iş davam etməkdədir.*

## *РАЗВИТИЕ СПОРТА В ШАМАХЕ В 2003-2023 ГГ*

***Зарифа Джавадова.***

***Ключевые слова:*** *Ильхам Алиев, Шемахы, спорт, здоровье, развитие*

*Президент Ильхам Алиев, успешно продолживший путь, заложенный великим лидером Гейдаром Алиевым в области внутренней и внешней политики, а также в других областях, добился успехов в сфере развития спорта в наших регионах. Еще при внимании и поддержке общенационального лидера Гейдара Алиева была проведена последовательная и целенаправленная работа в области спорта, принят ряд решений проблем в этой области. Под руководством Президента Ильхама Алиева достигнуты важные успехи в сфере развития спорта в нашей стране, в том числе в Шемахинском регионе. В статье прослеживается забота Президента Ильхама Алиева в сфере развития спорта в Шемахинском регионе. Прослеживаются успешные пути,*

*ведущие к развитию спорта в Шемахе, как строительство спортиных комплексов и отношение к юным спортсменам, их достижениям на различных соревнованиях. Президентская забота и внимание к развитию спорта в Шемахе способствовала тому, что в этом регионе выросли знаменитые спортсмены. Работа в этом направлении продолжается и сегодня.*

## *DEVELOPMENT OF SPORTS IN SHAMAKHI IN 2003-2023*

***Zarifa Javadova***

***Key world:*** *Ilham Aliyev, Shamakhi, sports, health, development*

*"Mr. President Ilham Aliyev, who has successfully continued the path laid by the Great Leader Heydar Aliyev, both in the fields of domestic and foreign policy, has also achieved significant successes in sports as well as in other areas. Goal-oriented work has been carried out, and several laws have been adopted. The attention and focus on this field have been successfully implemented in the activities of Ilham Aliyev since his election as President. Under his leadership, important successes have been achieved in the development of sports in our country, including in the regions. As in all regions of Azerbaijan, in Shamakhi, the construction of sports complexes and the growing support for young athletes demonstrate the increasing concern for this field. As a result, famous athletes have emerged from Shamakhi, and this work continues to this day."*

İdman sahəsində qazanılan nailiyyətlər ölkəmizin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi böyük əhəmiyyət kəsb edir. Çünki bu sahədə əldə olunan ugurlar ölkəmizin inkişafı ilə paralellik təşkil edir. Məlumdur ki, bəşəriyyəti birləşdirən əsas dəyərlərdən biri kimi idman sağlam düşüncəli gələcək nəslin formalaşmasında mühüm rol oynayan amildir. Respublikamızda idmana böyük diqqət verilməsi hələ Ulu Öndər Heydər Əliyev vaxtından böyük vüsət almışdı. Xalqımızin Ümummilli lideri Heydər Əliyev gənclərə, idmana,idmançılara daim diqqət göstərirdi. İdmançılarımızın beynəlxalq yarışlarda iştirakı və ugurlar əldə etməsi həmişə diqqət mərkəzində idi. Bu gün isə bu siyasət Prezident İlham Əliyev tərəfindən ugurla davam etdirilir. Azərbaycan bu gün dünyada idman dövləti kimi tanınır. İndi bizim idmançılarımız həm Avropa, həm dünya çempionatında, həm də olimpiya oyunlarında ölkəmizin bayragını zirvələrə qaldırırlar. Bunlar içərisində respublikamızın bölgələrindən, o cümlədən Şamaxıdan da olan idmançılarımız vardır. Bu isə bir daha bölgələrdə, o cümlədən

qədim ticarət və mədəniyyət paytaxtı olmuş Şamaxıda da idmana olan qaygının təzahürləri deməkdir. Şamaxıda idman komplekslərinin, şahmat, güləş məktəblərinin tikilməsi, futbol meydançalarının yaradılması idmanda son illər ərzində əldə edilmiş ugurlar rayon idmançılarına göstərilən diqqət və qaygının bariz nümunəsidir.

Ölkəmizdə idman sahəsində yaranan münasibətləri tənzimləmək,bununla əlaqədar dövlət siyasətini müəyyənləşdirmək, bədən tərbiyəsi və idmanla hər kəsin məşgul olmaq hüququnu təmin etmək məqsədilə hələ Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə 1997-ci ildə “Bədən tərbiyəsi və idman haqqında “Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. 03 fevral 2000-ci il tarixdə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 258 saylı qərarla “Bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı”qəbul olunmuşdur. Ümumiyyətlə,bəhs olunan dövrdə Azərbaycanda idman sahəsi intibah dövrünə qədəm qoymuş, ölkədə bədən tərbiyəsi və idman geniş vüsət almışdı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşulmuş,bu sahədə sistemli şəkildə işlər görülmüşdü.Azərbaycanın bütün bölgələrində,ucqar rayonlarında belə müxtəlif idman növləri ilə məşgul olmaq üçün mövcud şərait yaradılmışdı. Bu qanun və qərarın icrası ilə əlaqədar olaraq Şamaxı rayonunda xeyli işlər həyata keçirilmişdir. Belə ki, ənənəvi olaraq İcra Hakimiyyəti, Gənclər,İdman və Turizm idarəsi, Təhsil şöbəsinin təsdiq etdiyi əsasnaməyə uygun olaraq məktəblilərin 2002-2003-cü tədris ili üçün 8 idman növü üzrə il boyu idman spartakiadası keçirilmişdir. Şamaxıda idmanın sərbəst güləş, sambo, cüdo, Milli İdman Oyunları, taykvando, futbol, valeybol, yüngül atletika və şahmat növləri üzrə rayon birincilikləri və bir çox idman növləri üzrə respublika turnirləri keçirilmişdir.Keçirilən turnirlərdə Bakı, Sumqayıt, İsmayıllı, Qobustan, Siyəzən, Qusar, Zaqatala, Agsu, Göyçay və s. rayonlarla yanaşı Rusiya Federasiyasının Dagıstan respublikasından da idmançılar iştirak etmişdir.

Cənab Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”ndan sonra Şamaxı əsil dinamik inkişaf mərhələsinə daxil olmuş, digər sahələrdə oldugu kimi idman sahəsində də mühüm ugurlar qazanılmışdır. Regionlarda, o cümlədən Şamaxıda idman və idmançılara olan diqqət və qaygının nəticəsi kimi 2003-cü ildən Şamaxıda Olimpiya Kompleksinin tikintisinin başlanması, şəxsən Cənab Prezidentin bu kompleksin açılışında iştirakı bunun bariz nümunəsidir. Ölkə Başçımız idman kompleksinin açılışında çıxış edərək demişdir: ”Bu kompleks şamaxılılar üçün tikilib, gənclər, idmançılar üçün tikilibdir. Burada ən yüksək dünya standartları nəzərdə tutulubdur. Böyük oyun zalı, üzgüçülük hovuzu, digər oyun meydançaları var, başqa obyektlər, tikililər var. Bir sözlə, dünyanın ən yüksək standartlarına cavab verən bu qurgu şamaxılılara xidmət edəcəkdir. Mən də çox şadam ki, biz buna

nail olduq. Çox şadam ki,Azərbaycanın gözəl diyarında, qədim Şamaxı torpagında bu gözəl memarlıq abidəsi ucaldılıbdır "[1, s. 73].

Məlumdur ki, Azərbaycanda idman vətənpərvərlik ruhunun daha da yüksəlməsində çox mühüm rol oynayır. Şamaxıda da vətənpərvər idmançıların yeni bir nəsli formalaşmışdır. Bu baxımdan da idmanın inkişaf etdirilməsinə diqqət, bu vacib sahəyə qaygı daha da artmaqdadır. Təbii ki, idmançıların öz səviyyələrini qaldıra bilməsi üçün də müvafiq şəraitin olması da vacib məsələlərdəndir. Bunun üçün Prezident İlham Əliyev qeyd etdiyi kimi, şərait "Təkcə Bakıda yox, Azərbaycanın hər bir yerində olmalıdır və Milli Olimpiya Komitəsi öz əməli, praktiki işləri ilə artıq bunu sübut edibdir. 2000-ci ildə bizim təşəbbüsümüzlə başlamış bu quruculuq işləri indi çox gözəl nəticələrini verir. Azərbaycanın müxtəlif yerlərində gözəl, müasir idman kompleksləri istifadəyə verilir, insanlarımızın, gənclərimizin sərəncamına verilir ki, burada həm idmançılar yarışsın, eyni zamanda hər bir insan öz sağlamlığını möhkəmləndirə bilsin. Biz istəyirik ki, gənc nəsil fiziki və mənəvi cəhətdən sağlam olsun. Bunu etmək üçün idmanla məşğul olmaq çox vacibdir" [1, s. 74].

Dövlətin idmana, idmançılara göstərdiyi diqqət və qayısının nəticəsində Şamaxı idmançıları keçirilən spartakiada və idman yarışlarında fərqlənmiş, müvafiq yerlər tutmuiş, təltiflərə layiq görülmüşdülər."Müxtəlif idman növləri üzrə rayon birincilikləri keçirilərək rayonun yıgma komandası müəyyənləşdirilmiş və respublika birinciliklərində və turnirlərdə iştirak edərək mükafata layiq yerlər tutmuşlar. Belə ki, 01-11 yanvar 2004-cü il tarixində şahmat üzrə respublika birinciliyinin zona yarışında bir idmançımız Əfsanə Zaidova öz yaş qrupunda I yerə layiq görülərək final yarışında müvəffəqiyyətlə iştirak etmişdir. 21-25 yanvar 2004-cü il tarixində sambo üzrə Azərbaycan birinciliyində yeniyetmələr arasında Elgün İsrafilov öz çəki dərəcəsində III yerə layiq görülmüş,gənclər arasında keçirilən Azərbaycan birinciliyində Faiq Atakişiyev isə III yerə layiq görülərək Azərbaycan kuboku yarışına vəsiqə qazanmışdır**.** 25-28 mart 2004-cü il tarixində taekvando idman növü üzrə keçirilən ümumrespublika çempionatında Elnur Agayev öz çəki dərəcəsində III yerə layiq görülmüşdür. 07-09 iyun 2004-cü il tarixlərində gənclərin arasında Azərbaycan birinciliyində bir idmançımız Teymur Teymurov III yerə layiq görülmüşdür 10-23 may 2004-cü ildə keçirilən yeniyetmələrin respublika oyunlarında Şamaxı rayon komandası 10 idman növü üzrə tam tərkibdə müvəffəqiyyətlə iştirak etmişdir. Həndbol idman növü üzrə final yarışında komandamız bütün rəqiblərinə qalib gələrək III yerlə kifayətlənmişdir.Ümumilikdə ,komandamız respublikanın şəhər və rayon komandaları arasında IV yeri tutaraq Gənclər,İdman və Turizm Nazirliyinin Fəxri Fərmanına layiq görülmüşdür. 21-23 oktyabr 2004-cü il tarixlərində keçirilən "Azıərbaycan Milli İdman Oyunları"üzrə XV spartakiadada Şamaxı rayon

komandası 9 idman növü üzrə tam tərkibdə iştirak edərək spartakiadada II yerə layiq görülmüş və müvafiq keçici kuboku qazanmışdır" [2, s.7].

Şamaxı rayon İcra Başçısı yanında Şuranın 23 fevral 2004-ci il tarixli 04 saylı Şura iclasının qərarına əsasən I nömrəli əlavədə rayonun 2003-cü il yerli gəlir və xərclərinin illik icrası haqqında məlumatda qeyd olunur ki, "bədən tərbiyəsi və idman xərcləri plana əsasən 44000, icrası 43942 olmuş və icra 99,9 faiz təşkil etmişdir [3, s. 11].

Şamaxıda idmanın inkişafı üçün dövlət səviyyəsində hər cür şərait yaradılmaqla həm də bu sahəyə vəsait qoyuluşu, xərclər də xeyli artırılmışdır. Belə ki, "Şamaxı rayonunun 2004-cü il yerli gəlir və xərclərinin illik icrasının yerinə yetirilməsi haqqında məlumata əsasən bədən tərbiyəsi və idman xərcləri 58000,o cümlədən icra 57962 yerinə yetirilməsi 99,9 faiz olmuşdur"[ 4, s. 10].

İdmanın digər növləri kimi sərbəst güləş növü üzrə də idmançılarımız mühüm ugurlara imza atmışlar."2006-ci ildə də respublika və beynəlxalq yarışlarda rayon komandalarımız müvəffəqiyyətlə iştirak etmiş və mükafata layiq yerlər tutmuşdur. Sərbəst güləş idman növü üzrə Etibarov Valeh yeniyetmələr arasında I yerə layiq görülmüş və Türkiyədə keçirilən Avropa birinciliyində iştirak etmişdir. Poverliftinq idman növü üzrə Musayev Rüstəm Vaqif oglu və Məmmədov Zamir Azərbaycan çempionu adına layiq görülmüş və Avropa kubokunda I və II yerləri tutmuşdular.Şahmat idman növü üzrə keçrilən Dünya birinciliyində bir idmançımız Zahidova Əfsanə şahmat məsələlərinin həlli üzrə bürünc medala layiq görülmüşdür "[ 5, s. 3].

"2007- ci il ölkə başçısının təşəbbüsü ilə "Gənclər ili" elan olunmuşdur. Şamaxı rayonunun gəncləri üçün də ötən il əlamətdar olmuşdur. Belə ki, bədən tərbiyəsi və idman sahəsində bir sıra ugurlar qazanılmışdır. Preziden İlham Əliyevin şəxsən açılışında iştirak etdiyi Olimpiya kompleksi və onun nəzdində fəaliyyət göstərən idman qurguları uşaqların saglamlıgında mühüm rol oynamışdır. Hal- hazırda burada sərbəst güləş,agır atletika,üzgüçülük və digər idman növləri də inkişaf etməkdədir. Gənc idmançılar nəinki respublika daxili ,həm də beynəlxalq arenada nümunəvi nəticələr göstərə bilmışlər. Şahmatçı Əfsanə Zahidova şahmat məsələləri və etüdlərinin həlli üzrə dünya çempionatında bürünc medala ,Rüstəm Musayev Tolyatti şəhərində keçirilmiş dünya çempionatında gümüş medala layiq görülmüşlər. "[6 ].

Azərbaycan Respublikasında 2003-2023-cü illərdə futbolun inkişafına dair Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə rayonda fəaliyyət göstərən uşaq, gənclər idman məktəblərinin hər ikisində yeni futbol bölmələri açılmış,yeniyetmə və gənclərin futbol idman növünə olan maraqları daha da artırılmışdır. İl ərzində futbol idman növü üzrə idarə,müəssisə və təşkilatlar arasında rayon çempionatı keçirilmiş və qalib gəlmiş komandalar Gənclər və İdman idarəsi tərəfindən mükiifatlandırılmışdır.Rayonda fəaliyyət göstərən Şahmat məktəbinin Heydər Əliyev Fondu tərəfindən əsaslı təmiri və yeni

müasir texniki avadanlıqlarla təchiz olunması yeniyetmə və gənclərin şahmata olan maraqlarını daha da artırmışdır. Rayon şahmatçıları respublikada keçirilən müxtəlif yarışlarda müvəffəqiyyətlə çıxış etmişlər.

Rayonda idmanın demək olar ki, bir çox növləri üzrə məşqçilərin də təlimlərə, məşqlərə cəlb edilməsi davam etmişdir.Təcrübəli məşqçilər hər cür idman növü üzrə idmançıların yetişdirilməsində iştirak etmişdir. Bunun nəticəsi olaraq idmanın cüdo,sambo,sərbəst güləş ,agır atletika ,poverliftinq və digər növləri üzrə gənclər və idman idarəsi Nazirliyin təsdiq etdiyi əsasnaməyə uygun olaraq rayonda xatirə turnirləri və açıq rayon birinciliklərinin keçirilməsini təşkil etmişdir.Bu turnirlərdə isə idmançıların ugurları dəyərləndirilmişdir.

2006-cı ildə də bədən tərbiyəsi və idmana olan qaygı davam etmiş,bu sahəyə müvafiq xərclər ayrılmışdır. Bunu belə bir rəqəmlərdən də görmək mümkündür ki,"Şamaxı rayon İcra Başçısı yanında Şuranın 15 yanvar 2007-ci il tarixli 01 saylı Şura iclasının qərarına əsasən I nömrəli əlavədə rayonun 2006-cı il yerli gəlir və xərclərinin illik icrası haqqında məlumatda qeyd olunur ki, bədən tərbiyəsi və idman xərcləri 16360,o cümlədən icra 13835,icra faizi isə 84,6 faiz olmuşdur" [ 7, s. 9].

2004-cü ildə Dövlətimizin Başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və göstərişi ilə Şamaxıda müasir Olimpiya Mərkəzində beynəlxalq və respublika yarışlarının,eləcə də digər ölkə əhəmiyyətli tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.Buna görə də burada respublikanın müxtəlif rayonlarından gələn idmançıların respublika və Beynəlxalq yarışlara qoşulması mümkün olmuşdur.Fərqlənən idmançılar təltif edilmişdir. O cümlədən , Şamaxı idmançıları da müxtəlif idman növləri üzrə Beynəlxalq və Respublika yarışlarında da iştirak edərək mükafata layiq yerlər tutmuşdular. Belə ki,2012-ci ilin may ayında Rusiya Federasiyasının Soçi şəhərində keçirilən Poverliftinq idman növü üzrə Dünya çempionatında idmançımız Musayev Rüstəm Vaqif oglu çempion adına layiq görülərək qızıl medala sahib olmuşdur. 17-19 iyul 2012-ci il tarixlərində Polşa Respublikasının Katovice şəhərində keçirilən yeniyetmələr arasında sərbəst güləş üzrə Avropa birinciliyində həmyerlimiz Surxayev Ruslan Adil oglu 50 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək Avropa birincisi olmuşdur.Sərbəst güləş idman növü üzrə Rusiya Federasiyasının Dagıstan vilayətində yeniyetmələr arasında keçirilən Beynəlxalq turnirdə Qədirli Məsim Qara oglu I yerə layiq görülmüşdülər. Bundan başqa İsmayılov Məqsəd Mirzə oglu agır atletika ,Agayev Nadir Aydın oglu poverliftinq ,Səmədov Yunis Səfa oglu sambo idman növləri üzrə keçirilən republika birinciliklərinin qalibi olmuşdurlar" [8, s.14].

Bəhs olunan dövrdə Şamaxı rayonunda olan idman qurguları minlərlə uşaq və gənclər tərəfindən istifadə edilmişdir.Belə ki,hələ 2012-ci ildə rayonda 102 idman qurgusu fəaliyyət göstərmişdir. Onlardan 1- 1,5 min və daha çox

yer tutan stadion,1-i isə üzgüçülük hovuzudur. Rayon əhalisinin 15572 nəfəri və ya 16 faizi bədən tərbiyəsi ilə məşgul olur.İdman göstəriciləri bu illər ərzində belə olmuşdur:

İdmanın əsas göstəriciləri (ilin əvvəlinə)

| | 2003 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| Olimpiya kompleksi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| idman qurgularının sayı ,cəmi: | 88 | 94 | 100 | 100 | 100 | 102 | 102 | 102 |
| onlardan: | | | | | | | | |
| Tribunalar1,5 min və daha çox yer tutan stadionlar | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| kompleks İdman qurguları | | | | | | | | |
| üzgüçülük hovuzları | | | | | 1 | 1 | 1 | 1 |
| atıcılıq tirləri | 1 | 1 | 1 | 1 | 1 | 1 | - | - |
| Bədən tərbiyəsi ilə məşgul olanların sayı,nəfər(il ərzində) | 4909 | 5278 | 5459 | 5671 | 5727 | 15867 | 15870 | 15880 |

[9,62]

"2015-ci ildə rayon gənclər və idman idarəsi tərəfindən keçirilən 51-dən çox müxtəlif tədbirdə 7005 nəfər gənc ,bədən tərbiyəsi və idman sahəsi üzrə keçirilən 38 yarışlarda 3635 nəfər idmançı iştirak etmişdir. 2012-ci ildə rayon idmançılarından Rüstəm Musayev poverliftinq idman növü üzrə keçirilən dünya çempionatında iki dəfə birinci yerə ,Ruslan Surxayev isə sərbəst güləş idman növü üzrə Avropa birinciliyində birinci və dünya birinciliyində iki dəfə ikinci yerə çıxmışdır. Fərid Həmidov sərbəst güləş üzrə yeniyetmələr arasında keçirilən Azərbaycan birinciliyində üçüncü yeri tutmuşdur. Kənd idmançılarının Spartakiadasında isə birinci yerə layiq görülmüşdür" [10, s.22 ].

2015-ci il də ümumilikdə respublikamızda gənclər və idman sahəsində də əlamətdar bir il kimi yadda qalmışdır. 50 ölkənin iştirakı ilə ölkəmizdə keçirilən ilk Avropa oyunlarında 20 idman növü üzrə 6000 –dən çox idmançı iştirak etmişdir. Bu yarışlarda ölkəmiz 21 qızıl,15 gümüş və 20 bürünc medal olmaqla ,cəmi 56 medal qazanaraq ümumi komanda hesabına Avropa

oyunlarının ikincisi olmuş və bir daha öz qüdrətini və idmana olan qaygısını dünyaya sübut etmişdir. Şamaxı rayonunda da idman sahəsində bir çox işlər həyata keçirilmişdir.

"Şamaxı rayonunda bədən tərbiyəsi və idmanın kütləviliyini artırmaq məqsədilə məktəbli yeniyetmələr arasında tədris ili ərzində 7 idman növünü əhatə edən spartakiadanın proqramına uygun olaraq müxtəlif idman növləri üzrə yarışlar keçirilmişdir. 2015-ci il ərzində rayonda yeniyetmə və gənclər arasında sərbəst güləş, cüdo, sambo, agırlıqqaldırma, poverliftinq, şahmat və digər idman növləri üzrə müntəzəm olaraq müxtəlif yaş qruplarını əhatə edən rayon birinciliyi və çempionatlar təşkil olunmuş,yarışlarda qalib gəlmiş idmançılar müvafiq diplom və Fəxri fərmanlar təltif olunmuşdur.Rayonun dayaq idman növləri üzrə yıgma komandasının tərkibi müəyyənləşdirilmiş və yıgma komandanın baş məşqçisi təyin edilmişdir. Ötən il ərzində müxtəlif idman növləri üzrə keçirilən respublika və beynəlxalq yarışlarda da rayon idmançılarımız yaxından iştirak etmiş və yüksək nəticələr əldə etmişlər. Belə ki, Bakı şəhərində keçirilən sambo idman növü üzrə gənclər arasında Azərbaycan birinciliyində Seyidov Mayıl Ədilxan oglu III yerə, agır atletika idman növü üzrə kişi və qadınlar arasında Azərbaycan çempionatında Şərifov Elışad Niyaz oglu III yerə, sərbəst güləş idman nüvü üzrə gənclər arasında Azərbaycan birinciliyində Qasımov Vaqif Mehman oglu II yerə, yeniyetmələr arasında agır atletika idman növü üzrə Azərbaycan birinciliyində Şərifov Elşən Niyaz oglu və Hüseynov Elməddin Məhəmməd oglu I yerlər, sambo idman növü üzrə Azərbaycan kubokunda Dəmirov Vahid Mehman oglu III yerə layiq görülmüşlər. Bakı şəhərində keçirilən Poverliftinq və Benc-Press idman növləri üzrə Dünya çempionatında Eynalov Elvin Ərəstun oglu I yer, Səmədzadə Fərid Mehman oglu isə II yeri tutmuşlar. Rusiya Federasiyasının Moskva şəhərində keçirilən poverliftinq və benc-press idman növü üzrə Eynalov Elvin Ərəstun oglu I yer, Musayev Rüstəm Vaqif oglu II yer, Serbiyada keçirilən veteranlar arasında sərbəst güləş idman növü üzrə Dünya çempionatında Quliyev İslam Şeyfur oglu II yer, Bakı şəhərində keçirilən sambo idman növü üzrə gənclər arasında Bakı şəhərinin açıq birinciliyində Məmmədov İbrahim Caməmməd oglu III yer, sərbəst güləş idman növü üzrə R.Məmmədbəyovun xatirəsinə həsr olunmuş respublika turnirində Həsənov Agadəmir Həbib oglu və Aydəmirzadə Eltac Ceyhun oglu II yerlərə layiq görülmüşlər. Sambo idman növü üzrə kişilər arasında Bakı şəhərinin açıq çempionatında Dəmirov Vahid Mehman oglu II yerə, Məmmədov İbrahim Caməmməd oglu, Ədilov Röyal Zakir oglu və Bayramov Ramin Adil oglu III yerlərə layiq görülmüşlər. ABŞ-da keçirilən Poverliftinq idman növü üzrə Dünya çempionatında Musayev Rüstəm Vaqif oglu qızıl medala sahib olmuşdur."[11, s. 4].

Prezident İlham Əliyevin həm də bölgələrdə, o cümlədən Şamaxıda da idmana olan diqqət və qaygısının təzahürü olaraq nəinki uşaqlar və

yeniyetmələr arasında turnirlər, yarışlar keçirilmiş, həm də veteran idmançıların da yarışlara qoşulması və ugurlar əldə etməsi üçün şərait yaradılmışdır. Belə ki, “25 oktyabr 2015-ci ildə Sabir qəsəbə tam orta məktəbin müəllimi Quliyev İslam Şeyfur oglu Veteran güləşçılər arasında Yunanıstanda keçirilən Dünya çempionatında dünya çempionu olmuşdur” [12, s. 8].

“Rayonda yeniyetmə və gənclər üçün fəaliyyyət göstərən Uşaq gənclər İdman Məktəbi ,idman klubları və digər idman qurguları ilə yanaşı “Məhsul”KİC-nin Şamaxı rayon şurası da fəaliyyət göstərir. Bu cəmiyyət 1957-ci ildə yaradılmış və hazırda Şamaxı şəhər stadionunun bazasında yerləşir. Burada sərbəst güləş,cüdo,sambo, agır atletika ,futbol,kikboksinq idman bölmələri üzrə 14 qrup fəaliyyət göstərir. 7 məşqçi işləməklə ,210 nəfər idmançı bu idman növləri ilə məşgul olur. Idman növləri üzrə cəmiyyətin daxili birincilikləri keçirilitr.07-09 oktyabr 2016-cı il tarixlərində Sabirabad rayonunda keçirilmiş Milli Xalq İdman Oyunları üzrə Respublika spartakiadasında Şamaxı rayon komandası tam tərkibdə qaliblər sırasında olmuş 9 idman növü üzrə yüksək nəticə göstərmiş və I yerə layiq görülərək keçici kuboka sahib çıxmışdır. Digər idman növləri üzrə də cəmiyyətin gənc və yeniyetmə idmançıları Respublika birincilikləri və turnirlərdə rayonumuzi layiqincə təmsil etmişlər.

Rayonda fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbi Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmuş, və öz işini Uşaq Gənclər İdman Məktəbinin birtipli əsasnaməsinin tələblərinə uygun olaraq qurmuşdur.Məktəbdə 2 bölmə üzrə (sərbəst güləş və futbol)14 qrupda 164 nəfər yeniyetmə və gənc məşgul olur. Hər iki bölmə üzrə təhsilli və təcrübəli məşqçi müəllimlər çalışırlar.04-07 aprel 2016-ci il tarixlərində Xaçmaz şəhərində keçirilən Yeniyetmələrin X- Respublika Oyunlarının proqramına daxil olan sərbəst güləş idman növü üzrə Respublika birinciliyinin final yarışında idmançılardan Heydərov Mirqamət,Məmmədov Mahir,Əmirov Əlişah,Quliyev Seyfur və Qasımov Fərid I yerə,Nuhov Asim,Hümbətov Ədalət və Əmirov Adəm isə II yerə layiq görülərək final yarışında iştirak etmək hüququ qazanıblar. 07-08 may 2016-cı il tarixlərində Qobustan rayonunda 1999-2000-ci il təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş idman növü üzrə respublika birinciliyinin seçmə turunda Cavadzadə Murad, Eyvazov İbrahim I yerə, Kərimov Həmdəm isə II yerə layiq görülmüş və yeniyetmələr arasında keçiriləcək final yarışında iştirak etmək hüququ qazanmışlar.

15-17 yanvar 2017-ci il tarixlərində Bakı şəhərində keçirilən 2000-2002-ci il təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş idman növü üzrə Müşviq İsayevin xatirəsinə həsr olunmuş Beynəlxalq turnirdə Usublu Şahmurad gümüş medala layiq görülmüşdür.

04-07 aprel 2017-ci il tarixlərində Xaçmaz şəhərində keçirilən yeniyetmələrin XI-Respublika Oyunlarının proqramına daxil olan sərbəst güləş

idman növü üzrə Respublika birinciliyinin zona yarışında 10 nəfər yeniyetmə idmançılar I vəII yerləri tutaraq 27-30 aprel 2017-ci il tarixlərində Balakən rayonunda keçiriləcək respublika birinciliyinin final yarışlarında iştirak etmək hüququ qazanmışlar.

Şamaxı Uşaq Gənclər Şahmat məktəbi qədim Şamaxının ən görkəmli yerində yerləşir. Burada yetişən şahmatçılar respublika üzrə keçirilən şahmat yarışlarında daim fənqlənmiş və müvafiq yerlər ,mükafatlar qazanmışlar. Təsadüfi deyilditr ki,respublikada fəaliyyət göstərən 66 şahmat məktəbləri arasında Şamaxı şahmatçıları da öz nəticələri ilə seçilmişdir. Belə ki,14-22 fevral 2016-cı il tarixlərində Balakən rayonunda “Təhsil” RİM-nin Respublika birinciliyinin zona yarışında iştirak etmiş idmançılarımızın hər biri yaş qruplarında mükafata layiq yerlər tutmuşlar.14-17 mart 2017-ci il tarixlərində Şamaxı Uşaq Gəncər Şahmat məktəbində ənənəvi “Novruz turniri” rayon birinciliyi-təsnifat turniri keçirilmişdir. Turnirdə 154 məktəbli şahmatçı iştirak etmişdir. Yüksək idman mübarizəsində keçən bu yarışda 6 nəfər I dərəcə,21 nəfər II dərəcə,36 nəfər isə III dərəcə normativləri yerinə yetirmişlər [13, s. 6].

Şamaxıdan olan idmançılar il boyu keçirilən yarışlarda layiqli yerlər tutmuş və təltif olunmuşlar. Belə ki,“ümumilikdə 2017-ci ilin I yarımili ərzində rayon idmançılarımız beynəlxalq yarışlarda respublika birinciliiklərində və müxtəliif turnirlərdə 9 qızıl,11 gümüş və 16 bürünc medal qazanmışlar”[14, s.11].

2017-ci ildə də idmana ayrılan vəsat xeyli coxaldılmışdır. Belə ki,“Şamaxı rayonunun yerli gəlir və xərclərinin 2017-ci ilin doqquz ayında dürüstləş-dirilmiş icrası barədə məlumatda qeyd olunur ki, bədən tərbiyəsi və idman tədbirləri xərcləri planda 35,5,fakt 34,5 97 faiz təşkil edir. [15, s. 5].

Şamaxı rayonunda idmana olan dövlət qayğısı nəticəsində həm də bu sahə ilə məşğul olanların sayının da ildən ilə artmasına və bu prosesin bu gün də davam etməsinə səbəb olmuşdur. Bunu statistik rəqəmlərdən də görmək olar. Belə ki, “əgər 2003-cü ildə bədən tərbiyəsi ilə məşgul olanların sayı il ərzində 4909 nəfər olmuşdusa 2020-ci ildə bu rəqəm 18721-ə çatmışdır. Eləcə də 2020-ci il ərzində idman,bədən tərbiyəsi ilə məşgul olan bu insanlardan 7639-u qadınlar olmuşdur”[16, s.69 ] .

2023-cü ildə idmanın futbol oyunları üzrə də inkişafını daha da yaxşılaşdırmaq məqsədilə bu sahəyə də diqqət və qaygı dövlət tərəfindən artırılmışdır. Bunun nəticəsidir ki, bu sahədə də Şamaxı futbolçularının ugurları çoxalmışdır.

Gənc nəslin sağlam böyüməsi, fəaliyyət sahəsi kimi idmanın daha da inkişaf etdirilməsi hər zaman diqqət mərkəzindədir. Bölgələrimizdə yaradılan idman kompleksləri və qurğuları, idman məktəbləri bu sahənin regionlarda, o cümlədən Şamaxıda da inkişafını göstərir. Bu isə Prezident İlham Əliyevin

idmanla baglı həyata keçirdiyi düzgün siyasətinin məntiqi nəticəsidir, onun bu sahəyə diqqət və qaygısının bəhrəsidir.

**Ədəbiyyat**


1. Heydər Əliyev və Şamaxı. Bakı,"Nurlan", 2005.-112s., 9+72 səh.şəkil
2. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№18,30 sentyabr 2004-cü il.)Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 130,siyahı №.1,iş № 18, vərəq-9
3. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№04,23 fevral 2004-cü il.)Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 130,siyahı №.4,iş № 115, vərəq-7
4. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№06,30 mart 2005-ci il.)Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 38, vərəq-11
5. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№22,15 noyabr 2007-ci il.)Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş №115, vərəq-7
6. Səməd Hüseynoglu."Şamaxının yeniləşən ab-havası."Xalq qəzeti,2 mart2008-ci il ,bazar
7. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№01,15 yanvar 2007-ci il .)Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 194, vərəq-10
8. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№18,30 avqust 2012-ci il.)Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 194 vərəq-26
9. Şamaxı rayon statistika idarəsi Şamaxı rayonunun statistik göstəriciləri 2003-2012)Şamaxı, 2012. 74 s .
10. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№04,22 fevral 2013-cü il.Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 228.vərəq-49
11. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№05,26 fevral 2016-cı il.Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 322.vərəq-16
12. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№15,12 avqust 2016-cı il.Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 332.vərəq-20
13. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№09,12 may 2017-cı il.Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 364.vərəq 19.

14. Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№10,19 may 2017-cı il.Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 368.vərəq 28.
15.Şamaxı rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№20,27 oktyabr 2017-cı il.Azərbaycan Respublikası Dövlət Arxivinin Şamaxı filialı ,Fond 30,siyahı №.1,iş № 374.vərəq 18
16. Şamaxı rayonunun 2003-2020-ci illər statistik göstəriciləri. Şamaxı 2021, 81 s.

## MÜNDƏRİCAT

***Abbas Seyidov, Leyla Rüstəmova.***XƏZƏRSAHİLİ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ ARXEOLOJİ QAZINTILAR VƏ DƏNİZDƏ SUALTI TƏDQİQATLAR......................................................................................3-12
***Afiq Abdullayev.*** HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : MONETLƏR........................................................................................13-24
***Aynurə Əfəndiyeva.***XVIII ƏSRİN SONU-XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ÇAR RUSİYASININ CƏNUBİ QAFQAZA HƏRBİ MÜDAXİLƏSİ (AKADEMİK P.Q.BUTKOVUN "1722-1803-CÜ İLLƏRDƏ QAFQAZIN YENİ TARİXİ ÜÇÜN MATERİALLAR" ƏSƏRİ ƏSASINDA)..............25-37
***Aynurə Əsgərova.*** İNFORMASİYA MƏDƏNİYYƏTİ: ŞƏRHLƏR VƏ YANAŞMALAR.....................................................................................38-45
***Elmira Əliyeva.*** MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ BAKI ŞƏHƏRİ ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ (1991-2009-CU İLLƏR)...46-54
***Эльмира Мамедова.*** ТЕРРИТОРИЯ АЗЕРБАЙДЖАНА В ПЕРИОД ГОСПОДСТВА САСАНИДОВ.............................................................55-71
***Habil İsmayılov.***XIX ƏSRİN İKİNCİ YARISI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN QUBERNİYASINDA ƏKİNZİLİK VƏ MALDARLIQ........................................................................................72-78
***Naibə Əhmədova, Zakir Kərimov.*** İLK XAÇ YÜRÜŞLƏRİ VƏ AZƏRBAYCAN.....................................................................................79-88
***Nigar Həmidova.*** ƏBÜLFƏZL MƏHƏMMƏD İBN HÜSEYN BEYHƏQİNİN "TARİXİ-BEYHƏQİ" ƏSƏRİ ƏSASINDA DÖVLƏT TƏŞKİLATI.........................................................................................89-100
***Vəfa Əliyeva.*** AĞABALA QULİYEVİN "QAFQAZ UNÜYÜTMƏ VƏ ÇƏLTİKTƏMİZLƏMƏ DƏYİRMANLARI SƏHMDAR CƏMİYYƏTİ"NİN YARADILMASI BARƏDƏ.................................101-111
***Vüqar Abdullayev.*** AZƏRBAYCAN MÜHACİRLƏRİNİN ALMANİYADA FƏALİYYƏTİ...........................................................112-118
***Xankişi Məmmədov, Riyad Rüstəmli.*** DƏYİŞƏN DÜNYA MÜSTƏVİSİNDƏ DƏYİŞMƏYƏN MİR CƏLAL FENOMENİ YARADICILIĞINDA YAZIÇI, ALİM VƏ PEDAQOQ ZİRVƏSİ......119-126
***Zakir Kərimov.***AZƏRBAYCAN TARİXİNİN MƏNBƏŞÜNASLIĞININ TƏDRİSİNƏ DAİR (MÜASİR DÖVR)...............................................127-134
***Zərifə Cavadova.***2003-2023-CÜ İLLƏRDƏ ŞAMAXIDA İDMANIN İNKİŞAFI.......................................................................135-146

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2024, 3 (44)*

***Çapa imzalanmış 21.10.2024-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 10***
***Sifariş 384, sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***